AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

MÜZƏFFƏROVA SEVİNC NAZİM QIZI

# İSRAİL-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ

MAGİSTRLİK DİSSERTASİYASI

Elmi Rəhbər: Rafiq Abbasov

Bakı-2017

MÜNDƏRİCAT

GİRİŞ……………………………………………………………………….3

FƏSİL 1. İSRAİL-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN DİNİ-İDEOLOJİ ASPEKTLƏRİ

1.1 İsrail-Ermənistan münasibətlərinin tarixi təkamülü…………………………....9

1.2 İsrail-Ermənistan münasibətlərinin dini-ideoloji aspektləri……………………..24

FƏSİL 2. İSRAİL-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN GEOSİYASİ ASPEKTLƏRİ

2.1 İsrail-Ermənistan münasibətlərində Ermənistanın Azərbaycana təcavüzü faktoru........................................................................................................40

2.2 Holokost və "erməni soyqırımı" məsələsinin İsrail-Ermənistan münasibətlərinə təsiri……………………………………………………………………….61

NƏTİCƏ……………………………………………………………………..73

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI…………………………………...75

# GİRİŞ

**Mövzunun aktuallığı.** İsrail və Ermənistan münasibətləri günümüzdə Azərbaycanın xarici siyasətinin diqqət mərkəzində olan problemlərindən biridir. Ermənistan artıq 25 ildir ki, Azərbaycanın münaqişə şəraitində olduğu dövlətdir və bu münaqişədə İsrail Azərbaycanı hərbi sursatla təmin edərək ədalətli mövqe tutur. Bu cəhətdən İsrail və Ermənistan dövlətləri arasındakı münasibətlərin araşdırılması Azərbaycan üçün aktualdır.

Ermənistan və İsrail dövlətlərləri bir-biri ilə sərhədlərə malik olmayan, iqtisadi potensialı baxımından çox fərqli olan və dini cəhətdən də bir-birinə əks olan iki dövlətdir. Ermənilərin və yəhudilərin yeganə ortaq nöqtəsi onların bütün dünyaya yayılmış olmalarıdır. Xarici siyasətlərində bəzi oxşarlıqların olmasına baxmayaraq, bu iki ölkə arasında münasibətlər hər zaman gərgin olmuşdur. 1992-ci ildə Yerevan və Tel-Əviv qarşılıqlı diplomatik münasibətlərini qurduqdan sonra İsrail dövləti 2007-ci ilə kimi Ermənistanla olan münasibətlərini Tiflisdəki səfirliyi vasitəsilə saxlayırdı. Bugünə kimi bu iki dövlətin öz ərazilərində səfirlikləri mövcud deyil. İsrailin Ermənistan üzrə səfiri Şmuel Meyromun iqamətgahı Yerusəlimdə yerləşir. Ermənistanın İsrail üzrə səfiri isə Misirdəki səfiri Armyan Melkonyandır.

Ermənistan-İsrail dövlətlərinin arasında bu gərginlik daha çox iki xalq arasında yüz illərdən bəri davam edən dözümsüzlük hissindən yaranmışdır. Yəhudi və erməni millətləri tarix boyunca bir-birlərinə çox tez-tez rastlamasalar da, rastlaşdıqları zamanda da mehriban münasibətlərə sahib olmamışlar. Tarixin müəyyən dövrlərində bu xalqlar birgə yaşamış, lakin hər zaman bir-birilərinə əks mövqelərdə yer almışlar. Buna nümunə olaraq, iki xalqın Osmanlı dövründə birgə yaşadıqları illəri göstərmək olar. Yəhudilər həm başqa dövlətlərin idarəsi altında birgə yaşadıqları dönəmlərdə, həm də Ermənistan dövləti daxilində erməni antisemitizmindən əziyyət çəkmişlər.

Beləliklə, iki xalq arasında olan bu gərgin münasibət dövlətlərin yaranmasından sonra qurulan münasibətlərə də təsirsiz qalmamışdır. Hər iki dövlət belnəlxalq münasibətlər arenasında meydana gəldiyi andan ağır geosiyasi vəziyyətdə olmuş və bu çətin vəziyyətdə digər dövlətlərlə münasibətlərini formalaşdırmağa

başlamışdır. Ermənistan dövləti yarandığı dövrdə İsrailin ərəb dövlətləri ilə olan münaqişəsi artıq yarım əsrdən çox idi ki, davam edirdi. Ermənistan isə hələ Sovetlər birliyinin tərkibində olduğu zaman Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları nəticəsində başlanmış olan münaqişənin gedişində Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş və beləliklə, münaqişə şəraitində öz milli dövlətçiliyini qurmağa başlamışdır.

İsrail və Ermənistanın düşmənçilik etdiyi dövlətlərinin hər ikisinin müsəlman dövlətləri olması faktoru bu ölkələrin yaxınlaşacaqlarına və vahid bir mövqedən çıxış edəcəkləri kimi fikrin formalaşmasına gətirib çıxarırdı. Lakin iki xalq arasında olan dözümsüzlüklə yanaşı, iki dövlətin belnəlxalq və regional məsələlərdə də ayrı-ayrı barrikadalarda yer alması bu dövlətlətləri müttəfiqdən daha çox rəqibə çevirmişdi.

İki ölkə arasında siyasi dialoqun təşkili bir sıra geosiyasi amillərə görə çətinləşir. Bunlardan ən əsası İsrail-Türkiyə və Ermənistan-İran strateji əməkdaşlıqları olmuşdur. İsrailin Türkiyə ilə olan yaxın münasibətləri Ermənistan tərəfini qıcıqlandırmış və onda İsrailə qarşı inamsızlıq yaratmışdır. Eyni zamanda, Ermənistanın da İranla olan yaxın münasibətləri İsrail tərəfində qısqanclıq yaratmasa da, Ermənistanla mümkün ola biləcək yaxın münasibət qurmaq fikrindən daşındırmışdır. İsrail dövləti Ermənistana heç bir zaman potesial tərəfdaş kimi baxmamış, onu bəzən Türkiyə ilə olan münasibətlərində təsir vasitəsinə çevirmişdir. Beləliklə, İsrailin Ermənistana olan münasibətini İsrail-Türkiyə ilə əlaqələri formalaşdırmışdır.

Ermənistan tərəfi isə İsrail ilə yaxın münasibətləri qurulması uğruna heç bir zaman İranla olan münasibətlərini qurban verməmiş və prioritet əhəmiyyəti hər zaman İrana vermişdir. İran da Ermənistan vasitəsilə erməni lobbisinin Amerikadakı güclü təsirindən faydalanmışdır.

Bu münasibətlərdə maneçilik yaradan digər bir faktor isə Ermənistan Rusiyanın, İsrailin isə ABŞ-ın tarixi strateji müttəfiqləri olması faktoru olmuşdur. Bu kimi amillər iki dövləti bir-birindən uzaqlaşdıraraq əks mövqelərdə yer almalarına səbəb olmuşdur.

İsrail-Ermənistan münasibətlərinin gərgin olmasına səbəb olan bəzi ideoloji faktorlar da vardır. Bunlardan ən əsası, ermənilərin qondarma erməni soyqırımı iddialarıdır. Yəhudilər bu erməni iddialarına bir neçə dəfə etirazlarını bildirsələr də, ermənilərin bu sahədə israrçılıqları hələ də davam edir. İsrail dövlətində qondarma erməni iddialarına inanan və İsrailin bu "soyqırımı" rəsmi olaraq tanımalı olduğu fikirlərini iddia edənlərin də olmasına baxmayaraq, ölkə rəhbərliyi rəsmi tanınmadan söhbət açmır. Bunun da səbəbi, Türkiyə ilə olan münasibətlərin yenidən isinməyə başlanması, İsrail-Azərbaycan strateji müttəfiqliyidir.

Bundan əlavə, Amerikada erməni və yəhudi lobbilərinin illərdən bəri davam edən mübarizəsi faktoru da iki dövlət arasında münasibətlərin soyuqluğuna səbəb olmuşdur. Beləliklə, İsrail-Ermənistan münasibətləri həm regional təhlükəsizlik baxımından, həm də Azərbaycanın xarici siyasi maraqları nəzərindən mühüm elmi-siyasi əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini İsrail və Ermənistan dövlətləri arasında olan münasibətlər və buna təsir edən geosiyasi amillər təşkil edir.

**Tədqiqatın predmeti.** İsrail-Ermənistan münasibətlərinin siyasi-ideoloji və dini-ideoloji aspektləri, İsrailin Ermənistan -Azərbaycan münaqişəsində tutduğu mövqe, Holokost və "erməni soyqırımı" məsələsinin İsrail-Ermənistan münasibətlərinə təsiri tədqiqat işinin predmetinə daxildir.

**Tədqiqatın məqsədi.** İsrail-Ermənistan münasibətlərinin geosiyasi, siyasi-ideoloji və dini-ideoloji aspektlərinin xüsusiyyətlərini, bunun regional və beynəlxalq münasibətlərə təsirini öyrənməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- İsrail-Ermənistan münasibətlərinin tarixi təkamülünü aydınlaşdırmaq;
- İsrail-Ermənistan münasibətlərinin dini-ideoloji aspektlərini öyrənmək;
- İsrail-Ermənistan münasibətlərində Ermənistanın Azərbaycana təcavüzü faktorunu təhlil etmək;
- Holokost və "erməni soyqırımı" məsələsinin İsrail-Ermənistan münasibətlərinə təsirinə aydınlıq gətirmək.

**Tədqiqatın metodoloji əsasları.** Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsədlərə çatmaq, dövlətlərarası münasibətlərin dinamikasını izləmək, problemlərin mahiyyətini açmaq, ümumiləşdirmələr aparmaq prosesində müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlar tətbiq olunmuşdur.

**Tədqiqat işinin xronoloji çərçivəsi.** Tədqiqat işi xronoloji qədim dövrdən başlayaraq müasir dövrə qədər olan mərhələni əhatə edir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı mövcud ədəbiyyat bazasından, nəşr olunmuş rəsmi sənədlərdən geniş istifadə olunmuşdur. Dissertasiya işinin yazılmasında ingilis, türk, azərbaycan və rus dillərində olan ədəbiyyatlardan, qəzet və jurnallardan, internet resurslarından istifadə edilmişdir.

Hər bir aktual məsələnin tədqiqində olduğu kimi, İsrail-Ermənistan münasibətlərinin araşdırılması və öyrənilməsində mövzu üzrə olan mənbələrin müstəsna əhəmiyyəti var.

Disertasiya işinin yazılmasında əsasən aşağıdakı sənədlərdən istifadə edilmişdir: a) İkitərəfli münasibətlərə dair sənəd və materiallar toplusu; b) İsrail və Ermənistanın rəsmi şəxslərinin dövri mətbuatda çap edilən məruzə, çıxış, müsahibələri; c) İkitərəfli münasibətlərə dair kitablar və s.

İsrail-Ermənistan münasibətlərinin əsas xüsusiyyətlərini və istiqamətlərini əks etdirən mühüm sənədlərdən biri İbrahim Kaya və Sedat Laçinerin birgə əsəri olan “The Armenian issue and the Jews” kitabıdır. Bu kitabda İsrail və Ermənistan dövlətləri arasındakı münasibətlərin əsas məqamları dərindən araşdırılaraq şərh edilmişdir. Bu kitabda iki dövlət arasındakı soyuq münasibətin kökləri araşdırılmış, hələ Osmanlı dövründən etibarən ermənilərin yəhudilərə qarşı olan nifrətləri faktlarla dərc olunmuşdur. Kitabda İsrail-Ermənistan münasibətlərini dərindən araşdıran müəlliflər ermənilərin yəhudilərə qarşı olan inamsızlığını bir neçə səbəblə izah edir: a) Tarixi səbəblər; b) Dini səbəblər; c) Ermənistanın Qərbə qarşı olan şübhəli münasibəti və özünü təcrid olunmuş kimi hiss etməsi; d)İsrailin Türkiyə və Azərbaycan ilə olan yaxın münasibətləri; c) İsrailin erməni iddialarına qarşı olan münasibəti.

Disertasiyasiyada mənbə kimi istifadə edilmiş digər önəmli əsər Yusuf Çınarın "Kafkasyada İran-İsrail çekişmesi ve Güvenlik sorunları" adlı məqaləsdir. Müəllif bu məqalədə İsrailin Qafqazdakı siyasəti, İsrail-Azərbaycan münasibətlərində İran faktoru, Ermənistanın İsrail-Azərbaycan strateji müttəfiqliyinə münasibətini şərh edir.

Digər önəmli mənbələrdən biri isə İsrailin Haaretz qəzaetində dərc olunmuş "Azerbaijan, not Armenia is İsraels true ally" adlı məqaləsidir. Bu məqalədə yazıçı İsrailin Azərbaycanla olan yaxın münasibətlərindən bəhs edir. İsrailin strateji müttəfiq olaraq Azərbaycana verdiyi yüksək dəyəri izah edən yazıçı Azərbaycanın İsrail üçün nə dərəcə önəmli müttəfiq olmasından bəhs edir. Azərbaycanın regiondakı ən güclü dövlət olması, İranla böyük sərhədə malik olması, Azərabaycandakı yəhudi icmasını İsrail və Azərbaycan arasındakı yaxın münasibətlərin əsas amilləri qeyd edir.

Bundan başqa, İsrailin Al-Monitor qəzetində dərc edilmiş yazıçı Ephraim Snehin "Why Israel is staying silent on Azerbaijan-Armenia conflict" məqaləsi də önəmli yer tutur. Bu məqalədə İsrailin Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqe yəhudi yazıçı tərəfindən izah olunur. Yazıçı İsrailin Azərbaycanı silahla təmin etdiyi təqdirdə niyə rəsmi şəkildə Ermənistanı işğal olunmuş Azərbaycan torpaqlarını azad etməyə çağırmadığını, münaqişədə birbaşa iştirakdan qaçmasını özünün Qərb sahilindəki işğalınının hələdə davam etməsindən qaynaqlandığını bildirir. Məqalədə qeyd olunur ki, İsrailin əsas qaçmaq istədiyi amil Ermənistanın Dağlıq Qarabağ işğalının Qəzza sektorundakı işğal ilə eyniləşdirilməsidir.

İstifadə olunmuş materiallar arasında dövri mətbuat və İnternet resursları da əhəmiyyətli yer tutur. Qeyd olunan materiallardan istifadə bir tərəfdən problemin hansı səviyyədə öyrənildiyini aşkara çıxarmağa, digər tərəfdən tədqiqatı tarixi və mövcud siyasi reallıqlar nəzər alınmaqla sistemli şəkildə aparmağa kömək etmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Məlumdur ki, Ermənistan və İsrail dövlətləri arasında mövcud olan münasibətlər və bu münasibətlərdə mərkəzi mövqe tutan Azərbaycan faktoru beynəlxalq münasibətlər çərçivəsində həmişə maraq dairəsində olmuşdur. Problem ətrafında müəyyən ədəbiyyat bazası mövcud olsa da, yəhudi-erməni cəmiyyəti, eləcə də İsrail-Ermənistan münasibətləri ilə bağlı bəzi ilkin

mənbələr Azərbaycanda elmi dövriyyəyə bu işlə gətirilmişdir. İsrail-Ermənistan münasibətlərinin azərbaycanlı müəllifin baxış bucağı altında və neytral şəkildə qiymətləndirilməsini də tədqiqatın elmi yenilikləri sırasına daxil etmək olar.

**Tədqiqat işinin elmi və təcrübi əhəmiyyəti.** Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılmış ümumiləşdirmələr İsrail-Ermənistan münasibətləri ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

İş prosesində əldə olunmuş nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına yardım edə bilər. Bundan başqa, dissertasiyanın materialları əsasında İsrailin və Ermənistanın xarici siyasəti, İsrailin xarici siyasətində Azərbaycan faktorunun rolu və əhəmiyyəti ilə bağlı tədqiqatların aparılması, analitik materialların hazırlanması mümkündür.

Tədqiqat işində yer almış materiallar problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin strukturu.** Magistr dissertasiyası "Giriş", iki fəsil, dörd paraqraf, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat siyahısı"ndan ibarətdir.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Beynəlxalq Münasibətlər kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları kafedra iclasında müzakirə edilmişdir. Magistrlik dissertasiyasının əsas müddəaları müəllifin müxtəlif nəşrlərdə dərc olunmuş 1 tezis və 1 məqaləsində öz əksini tapmışdır:

Müzəffərova Sevinc. İsrail- Ermənistan münasibətlərinin bəzi aspektləri// tezis

Müzəffərva Sevinc. İsrail-Ermənistan münasibətlərində Dağlıq Qarabaq faktoru // məqalə

# I FƏSİL

# İSRAİL - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN DİNİ-İDEOLOJİ ASPEKTLƏRİ

## 1.1 İsrail-Ermənistan münasibətlərinin tarixi təkamülü

İsrail və Ermənistan dövlətləri arasındakı münasibətlərin tarixi təkamülündən bəhs edərkən ilk öncə bu iki ölkənin milli kimliyinin əsasında duran yəhudi və erməni xalqlarının tarixi keçmişlərini nəzərdən keçirmək faydalı olardı. Beləki, hər iki dövlət beynəlxalq münasibətlər arenasında XX əsrdə ortaya çıxsada, onları təşkil edən xalqların tarixi və qarşılıqlı əlaqələri uzaq keçmişlərə dayanır.

Yəhudilər dünyanın qədim xalqlarından biridir. Yəhudi dininin müqəddəs kitabı olan Tövrata görə yəhudilərin tarixi b.e.ə 1750-ci ildən başlayır. Həzrəti İbrahim onların atası və yəhudi dininin qurucusu hesab olunur. Yəhudilərə görə onlar tanrının seçilmiş qullarıdırlar və Tanrı müqəddəs torpaqları onlara vəd edib. Bu torpaq keçmişə aid mənbələrdə Xanan diyari kimi vurğulanır. Xanan diyari təqribən indiki İsrail torpaqlarını əhatə edir (39,44).

Tövrata görə yəhudilər Həzrəti Nuhun oğlu və Sami irqinin atası hesab olunan Şam nəslindən idilər. Bu irqə mənsub olan yəhudilərin vətənləri Mesopotamiya hesab olunur. Babilin Ur şəhərindən öz qəbiləsi ilə birlikdə Xanan bölgəsinə gələn Hz.İbrahim və qəbiləsi bu bölgənin yerli tayfaları ilə baş edə bilməyəcəklərini görüb, həmçinin bu bölgənin şəraitsizliyinə görə burada qalmayıb Misirə üz tuturlar.

B.e.ə 1200-ci ilədək Misirdə kölə halında yaşamış yəhudiləri Hz.Musa köləlikdən azad edir. Tövrata görə Hz.Musanın başçılığı altında yəhudilər Sina yarımadasına gəlmişlər, lakin Hz.Musa yolda vəfat edir və bu dönüşu tamamlamaq ona qismət olmur. Hz.Musanınköməkçisi olan Hz.Yuşanın başçılığı ilə müqəddəs torpaqlarına, yəni indiki Fələstin torpaqlarına dönmüş yəhudilər buranın yerli xalqları ilə döyüşüb, e.ə 1234-cü ildək Fələstin torpaqlarına tam hakim olmuşlar.

Hz.Musadan sonra onu əvəzləyən Hz.Yuşa Fələstin torpaqlarını fəth etdikdən sonra bu torpaqları on İsrail qəbiləsi arasında paylayır. E.ə 1200-1030 illər arası

dövrdə xarici düşmənə qarşı  birləşmək ehtiyacını duyan qəbilələr onlara başçılıq etmək üçün  hakimlər seçirlər. Buna görə də, Hz.Yuşanın başçılığı altında Fələstin torpaqlarına gəldikləri dönəmdən İsrail krallığı qurulana qədər olan dönəmi Hakimlər dönəmi adlandırırlar (39,48).

Təqribən 200 il köçəri həyat yaşamış yəhudi qəbilələri Fələstin torpaqlarında yerləşdikdən sonra öz aralarında da münaqişələr yaşamışlar. Buna görə də, daxili münaqişələrə son verməyin və  qəbilələrini bir arada tutmağın vacibliyini anlayıb, özlərinə kral seçmək qərarına gəlmişlər.

E.ə 1020-ci ildə birinci yəhudi kralı Saul seçilir. Saul yəhudi qəbilələrini birləşdirməyi bacararaq, bu qəbilələrdən təşkil olunmuş vahid orduyla Fələstinlilərə qarşı müharibəyə hazırlaşır. Müharibənin əvvəlində uğurlar qazansa da, müharibənin sonunda Fələstinlilərə uduzmuş və vəfat etmişdir.

Sauldan sonra hakimiyyətə gələn kral Davud 12 yəhudi qəbiləsini vahid idarəçilik altında birləşdirmiş, Qüdsü işğal edərək İsrail krallığının paytaxtı etmişdir. Kral Davud ölmədən oğlu Süleymanı taxta çıxarmışdır. Hz.Süleymanın dövrü e.ə 965-930 illəri əhatə edir. Bu illər krallıq tarixinin ən yaxşı illəri hesab olunur. Bu dövrdə krallığın torpaqları Misirdən Dəclə və Fərat çaylarına qədər olan ərazini əhatə etmiş, həm siyasi, həm də iqtisadi cəhətdən güclənmişdir.Bu dövrdə Süleyman Qüds şəhərində yəhudilərin ilk dini ibadətgahını inşa etdirərək, Qüdsü yəhudi dininin müqəddəs şəhərinə çevirir. Bu dönəmi birinci ibadətgah dönəmi adlandırırlar. Kral Süleymanın ölümündən sonra bəzi qəbilələr onun oğlunu kral olaraq qəbul etmək istəmirlər. Bu da İsrail krallığının iki hissəyə ayrılmasına yol açır. Şimaldakı on qəbiləni birləşdirən və paytaxtı Samariya olan İsrail krallığı və cənubda Süleymanın oğluna sadiq qalan, iki cənub qəbiləni birləşdirən və paytaxtı Qüds olan İudeya krallığı.

Təxminən 200 ilə qədər varlığını qorumuş İsrail krallığı e.ə 722-ci ildə Assurlar tərəfindən işğal olunmuşdur. Təqribi 350 il mövcud olmuş İudeya dövləti isə e.ə 587-ci ildə Assuriya dövləti dağıdıldıqdan sonra onun yerində yaranmış Babil dövlətinin istilasına uğramış və devrilmişdir. Bütün bu olanların nəticəsində yəhudilər Babilə sürgün edilmiş və yəhudi ibadətgahı da dağıdılmışdır. Bundan sonra yəhudilər uzun

müddət dağınıq halda yaşamış və bu hadisələr yəhudi tarixində Babil sürgünü dövrü adını almışdır. Babillilərin bu istilası birinci ibadətgah dönəminin sonu olmuşdur.

Assuriya İsrail və Urartu üzərində hakimiyyəti ələ keçirdikdən sonra yəhudiləri Urartu ərazisinə deportasiya edir (22).

Assuriyanın tənəzzül dövründə Babil imperatorluğu onun torpaqlarını ələ keçirir. Beləliklə, Qərbi Asiya üzərində hakimiyyət Babil padşahlığının əlinə keçmiş olur. İudeya şəhəri öz tərəfdaşları olan Assuriya və Misirsiz təklikdə Babil padşahlığı ilə vuruşa bilməzdi. Babil şahı Navuxodonosor öz ordusunu yığıb İudeyanı Misirin tərəfinə keçdiyinə görə cəzalandırmaq istədi. B.e.ə 597-ci ildə İudeyanın çarı İexoniya şəhəri Babil şahına təslim etdi. İudeyanın yeni çarı Sedekiya oldu. O vaxtın ənənəsinə görə Navuxodonosor yəhudilərin bir hissəsini öz paytaxtına köçürdü. Bunda məqsəd xarici hakimiyyətə qarşı şəhərin müdafiəsini azaltmaq idi. Köçürülənlər şəhərin ən yüksək təbəqəli ailələri idilər. Bunlar yəhudi varlıları və ustaları idilər. Bu köçürülmə Babil əsarəti adını almışdı. Bundan 11 il sonra Sedekiya İudeyanın azadlığını və Babil şahlığından ayrıldığını elan edərkən Navuxodonosor yenidən e.ə 568-ci ildə Yerusəlimi tutur və bu dəfə birinci ibadətgah hesab olunan Solomon ibadətgahı da daxil olmaqla hərşeyi darmadağın edir. Yəhudilərin bir hissəsi bu hadisə zamanı Navuxodonsor tərəfindən Urartu torpaqlarına köçürülmüşdür. Burada onlar indiki ermənilər adlandırdığımız xalq ilə qaynayıb qarışmışlar (22).

Beləliklə, tarixdə yəhudi və erməni millətlərinin ilk qarşılaşması və qaynıyıb-qarışması hadisəsi baş verdi.

V əsr erməni tarixçisi Movses Xorenatsi məlumat verir ki, Baqratuni nəsli Babil işğalından sonra köçürülüb gətirilmiş yəhudilərdən törəmə idi. Baqratunilər Ararat dağı da daxil olmaqla böyük torpaqlara sahib idilər. Onlar bir neçə feodal birliklərini özlərinə birləşdirib bütün Ermənistanda hakimiyyəti ələ ala bilmişdilər. Bu nəsil Şabbat adlı yəhudi əsirindən əmələ gəlmişdir (22).

Qeyd edək ki, erməni adına ilk dəfə e.ə VI əsrdə Əhəməni hökmdarı Daranın kitabələrində rast gəlinir. Ən maraqlısı isə budur ki, ermənilər özlərini heç bir zaman erməni deməmişlər, onlar özlərini Hayklar adlandırmışlar. Erməni adı fars

hökmdarının bölgənin adına uyğun olaraq uydurduğu bir addır. Çünki mixi yazılarında da qeyd olunur ki, hələ e.ə III minillikdən etibarən onların yerləşdiyi Şərqi Anadolu bölgəsinə Armanu və ya Armenia deyilirdi. Buda o deməkdir ki, hələ ermənilərin bu bölgələrə gəlməsindən təxmini 1600 il əvvəl də Şərqi Anadolu bölgəsi Armenia adıyla bilinirdi. Beləliklə, fars hökmdarı da hakimiyyətində olan və çox güman ki, qərbdən köç etmiş bu xaricilərə Armenia diyarında qalanlar mənasını ifadə edən ermənilər adını vermişdi (6).

Bunu da qeyd etmək lazımdır ki, ermənilər özlərindən qabaq bu bölgədə yaşamış Urartuluları (e.ə IX-VI) səhfən öz ataları olaraq göstərir və dolayısı ilə, bu bölgənin qədim və əsl sakinləri olduqlarını isbatlamağa çalışırlar (6).

Halbuki, araşdırmalar nəticəsində sübut edilmişdir ki, ermənilərin istifadə etdikləri dil Hind-Avropa mənşəli bir dildir. Uratuluların dili isə e.ə III minillikdə Şərqi Anadolunun və Şimali Anadolunun sakinləri olan və alimlər tərəfindən Proto-Türklər olduqları bildirilən Hürrilərin dili ilə qohum olub, Asya köklü dillərdəndir (6). Belə olan təqdirdə, ermənilərin belə iddialari irəli sürməsi tamamilə yersizdir.

Belə güman edilir ki, ermənilər e.ə VIII əsrdə baş vermiş Trakların köçləri nəticəsində Anadoluya gəldikdən və iki əsir orada burada yaşadıqdan sonra Urartu dövlətinin də dağıdılmasından istifadə edərək e.ə VI əsrin əvvəllərində Van gölu və onun ətraf ərazilərinə fars kralının hakimiyyətini qəbul edərək, ona vergi ödəmək şərti ilə yerləşə bilmişlər (6). Beləliklə, ermənilərin bu bölgəyə gəlməsindən 1600 il əvvəl də bu Şərqi Anadolu bölgəsində Armanu vilayəti mövcud idi.

Erməni tarixçilərinin çoxu erməni tarixini çox qədimlərə bağlamaq istəsələr də, əslində, bu millətin keçmiş tarixi haqqında tam və vahid bir fikir mövcud deyil. Mənbələr çox fərqli fikirləri irəli sürürlər.

Erməni alimi Agop Melik Aqopyan "Samvel" adlı əsərində ermənilərin tarixi haqqında deyir: " Bizim tariximizdə xalq, tamamilə, unudulmuşdur. Biz erməni kəndlisinin necə yaşadığını bilmirik. Ağaları ilə necə münasibətdə olduğunu, nə yeyib, nə icdiyini, nə cür paltar geyindiyini bilmirik. Biz erməni sənətkarlarının nə ilə məşğul olduqlarını, erməni tacirlərinin hansı ölkələr ilə ticarət əlaqələrini qurduqlarını belə bilmirik. Bizim tariximiz bütün bunlar haqqında susur..." (4).

Bunan da belə başa düşürük ki, ermənilər üçün onların vətənlərinin hara olduğu münaqişəlidir.

Rus alimi V.L.Veliçko isə belə bir fikir irəli sürür: " ermənilər kimlərdir? Onların əsl mənşəyi az araşdırılıb. Tarix onların Babil əsarəti dövründə və Yerusəlimin dağıdılmasından sonra yəhudilərin böyük bir kütləsi ilə qarışdığını isbat edir. Antropoloji baxımdan onların böyük əksəriyyətində başlarının eni uzunundan artıqdır, yəni qısabaşlıdırlar və Şantrın, Erkertin, Pantyukovun və digər alimlərin araşdırmalarından məlum olduğu kimi, bu cəhətdən dağ yəhudilərinə, hətta Sirogildanilərə, yəni Aşşurlara daha çox oxşayırlar (4).

Öz tarixlərini hər nə qədər qədimlərə aparmaq istəsələrdə, Azərbaycan tarixinə görə doğru və vacib olan budur ki, ermənilər Cənubi Qafqaza, xüsusilə də Azərbaycana və indiki Ermənistan bölgəsinə günümüzdəki Dağlıq Qarabağ probleminə də səbəb olan 1828-ci il Rusiya və İran arasında imzalanan Türkmənçay müqaviləsənin XV maddəsi ilə Ruslar tərəfindən köçürülmüşlər.

B.e.ə IV əsrdə Armavir şəhərində yəhudilər çoxluq təşkil edirdilər. Erməni çarı IV Ervandın dövründə yəhudilər yeni paytaxt olan Ervandaşata köçürülürlər (22).

Birinci ibadətgahın Babillilər tərəfindən dağıdılması və yəhudilərin sürgün edilmələri diasporanın başlanğıcı hesab olunur. Bu sürgün yəhudilərin milli duyğularının daha da qüvvətlənməsinə və nəvaxtsa, yenidən, doğma Fələstin torpaqlarına qayıdacaqları ümüdi ilə yaşamağa səbəb olmuşdur. Bu sürgündən sonra yəhudilər Fələstin torpağı ilə əlaqələrini itirməmişlər və 70 il sürən babil əsarətindən onları Əhəməni hökmdarı II Kir azad etmişdir. O, e.ə 538-ci ildə Babil şahlığını ələ keçirib, onun varlığın son qoyaraq, sürgündəki yəhudilərin öz vətənlərinə dönmələrinə icazə vermişdir. Bununla da, yəhudilərin Fələstin torpaqlarına birinci dönüşü gerçəkləşmişdir.

Əhəməni hökmdarı I Daranın hakimiyyəti dövründə azad yaşamış yəhudilər Qüdsdə Babillilər tərəfindən dağıdılmış ibadətgahın yerində e.ə 515-ci ildə ikinci ibadətgahı tikirlər. Fars hökmdarları Hz.Musanın qaydalarının bütün imperatorluqda keçərli elan etməklə yanaşı, Tövratın böyük hissəsinin yazıya alınmasını da əmr

etmişdilər. Fələstin üzərində Fars hakimiyyəti e.ə 535-332 illər arasında davam etmiş, bundan sonra buranın idarəsi Makedoniyalı İsgəndərin əlinə keçmişdir .

Böyük İsgəndərin Fələstin torpaqlarının da daxil olduğu bütün Suriya torpaqlarını hakimiyyəti altına alması ilə yəhudi tarixinin Ellinistik dövrü başlamışdır. Yəhudi dini və mədəniyyəti üzərində bu yunan təsiri VII əsrdə İslamiyyətin meydana çıxmasına qədər davam edir. Bu yunan dövlətinin Fələstində Ellinizmi yerləşdirmək istəyindən irəli gələrək bütpərəst yunanlı hakimlərin Tövrata qadağa qoyması və yəhudilərin müqəddəs məbədinə bütpərəstliyin simvolu Zevsin heykəlini yerləşdirməsi ilə yəhudilər ayağa qalxmış və üsyan qaldırmışdılar. Yunan ordusu e.ə 163-cü ildə üsyanı yatırıb, Qüdsü ələ keçirməyi bacarmışdısa da, yəhudilərin sakitləşməyəcəyini anlayıb, onların azadlığını tanımaq məcburiyyətində qalmışdır .

E.ə 331-ci ildə erməni vilayəti Əhəmənilər imperiyasının varlığına son qoymuş Makedoniyalı İsgəndərin imperiyasının tərkibinə qatıldı. E.ə 321-ci ildə erməni vilayətinin bir hissəsində Oruzlar (Orontlar) sülaləsi hakimiyyətə gəlir. Bununla da, erməniyədə Orontlar sülaləsinin dövləti yaranır və çarlığa çevrilir (3).

Az sonra Ön Asiyanın bir hissəsi və Kiçik Asiya ilə birlikdə bu erməni vilayəti də Selevkilər dövlətinin daxilinə qatılır. E.ə 201-ci ildə Selevki hökmdarı III Antiox Orontu hakimiyyətdən uzaqlaşdırır və oranı öz canişinliyinə çevirir. Artaş adlı əslən türk sərkərdəsini isə bu vilayətə strateq təyin edir (3).

Selevkilər dövlətinin süqutundan sonra ona daxil olan dövlətlər müstəqil oldular. Erməniyə vilayəti də strateq Artaşın başçılığı altında müstəqilliyini elan edir və qonşu dövlətlərə qarşı işğalçı yürüşlərə başlayır. Artaş heç də bəzi erməni tarixçilərinin dedikləri kimi, müasir erməni əcdadlarının başçısı olmamışdır. Erməni alimi Hovannesyan etiraf edir ki, “ Qədim dövrlərdə qısa bir zaman kəsiyindən savayı Kilikiyadan Qafqaza qədər olan torpaqlar heç bir zaman ermənilərə məxsus olmamışdır ” (3). Beləliklə, Artaşanın dövründə müasir Ermənistanın da ərazisini müvəqqəti özündə əhatə edən, həmçinin “Böyük Erməniyə” adlanan qısa müddətli bir qurum yaradıldı və bununla da ümümiləşdirici Armini anlayışı meydana çıxdı. Deməli, əvvəlcə Armini vilayətinin adı  olan bu isim sonradan qərbdən Trak köçləri

ilə gələn friqlərin bir qoluna bu əyalətdə kök saldıqdan sonra aid edilmişdir. Ermənilərin indiki Ermənistan ərazisinə sonralar gəldiklərini erməni alimi B.İşyanxan da etraf edir ki, “Ermənilər, həmçinin Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlər yayılmışlar”.

Artaşın nəvəsi II Tiqranın hökmdarlığı dövründə Ermənıyə dövlətinin sərhədləri xeyli böyüyür. Onun apardığı müharibələrin əksəriyyəti işğalçı xarakter daşıyırdı. II Tiqranın hakimiyyəti illərində yəhudilərin erməni vilayətinə köçləri baş verir. Bu, II Tiqranın e.ə I əsrdə Fələstin torpaqlarına işğalçı hücumları zamanı yəhudiləri əsir götürərək, erməni şəhərlərinə yerləşdirməsi ilə olmuşdur. O, bu yəhudiləri Armavir şəhərində və Vardeks kəndində yerləşdirmişdir (3).

II Tiqranın Fələstin torpaqlarına olan bu işğalçı yürüşü ilə ermənilərin bu torpaqlara səfərləri başlayır. Bu səfərlər bizim eranın IV əsrindən etibarən, ermənilərin xristianlığı qəbul etmələri ilə bu torpaqlardakı xristianlığın müqəddəs ocaqlarının yerləşməsi səbəbindən daha da artmışdır. Yeni din onlara vacib impuls vermiş oldu ki, Yerusəlimə İsa peyğəmbərin şəhərinə qızğın dindarlar kimi üz tutsunlar. Zamanla bu dindar ermənilərin bir çoxu vətənə qayıtmayıb, müqəddəs yerlərin ətrafında məskunlaşaraq Yerusəlimdə qalmağa üstünlük vermişlər. Beləcə, IV əsrin bu dindarları Yerusəlimin erməni cəmiyyətinin toxumlarını yaratmış oldular. Bununla da, Yerusəlimin erməni kvartalının əsası qoyulmağa başlayır (bax 1.2.).

II Tiqranın yürüşlərindən sonra yəhudilərin erməni vilayətinə köçürülməsi və sonradan ermənilərin müqəddəs torpaqlarda məşkunlaşmağa başlamaları bu xalqların qaynayıb qarışması prosesini intensivləşdirmiş və iki xalqın biri-birinin həyatında daha yaxından iştirak etməsinə yol açmışdır.

Böyük Tiqrandan sonra hakimiyyətə gələn oğlu II Artavadz da atasının siyasətini yürütmüşdür. Artavadz yəhudilərin taxt üstündə gedən müharibələrindən istifadə edərək, tərəflərdən birini müdafiə edərək müharibəyə qoşulur. O, bu müharibədə çoxlu sayda yəhudi əsir götürür və Van şəhərində yerləşdirir. Yəhudilərin birinci axını xristianlığı qəbul etmişlərdisə də, Van yəhudiləri öz dinlərinə sadiq qalmışdılar (3).

Erməni hökmdarları yəhudiləri öz şəhərlərində məskunlaşdırmaqla şəhər həyatını inkişaf etdirilməsinə çalışırdılar. Beləki, yəhudilərin şəhər mədəniyyəti vardı. Yəhudilərin çoxalması ilə İudaizmə sitayiş edənlərin sayı da artırdı.

Bunu da qeyd etmək lazımdır ki, II Tiqran etnik cəhətdən erməni deyildi. Erməni mənbələrində də onu sadəcə "Ərməniyə çarı" adlandırırdılar (3).

Göründüyü kimi, bu iki xalq arasında əlaqələr artıq e.ə I əsrdən etibarən qurulmuşdur. Bu xalqlar tarixin gedişində demək olar ki, çox zaman eyni dövlətlərin hakimiyyəti altında olmuşlar. E.ə 66-cı ildə Romalılar II Tiqranı məğlub edib, erməni vilayətinin torpaqlarının zəbt edirlər. Beləliklə, yəhudilər kimi ermənilər də Roma imperatorluğunun hakimiyyəti altına düşürlər (3).

Yəhudilər üzərində yunan hakimiyyətindən sonra roma hakimiyyəti quruldu. E.ə 64- b.e 324 illəri arasında Fələstin Romalıların əlində idi. Roma imperatorluğu Suriya üzərinə yürüyərək yəhudiləri öz hakimiyyəti altına salmışdır. Roma hakimiyyəti dövründə, əvvəlcə, yəhudilərə yaxşı münasibət göstərilmiş, ədalətli qanunlarla qorunmuş, bəzi imtiyazlar verilmiş və yəhudi xalqının camaat işləri Qüdsdə oturan böyük rahiblərə buraxılmışdı. Ancaq sonradan Roma idarəsində yəhudilərə yönəldilən vergilərin ağırlığı, feodalların zülmü və dini məhdudiyyətlər yeni-yeni üsyanlara səbəb olmuş və onların arasında yeni müstəqil yəhudi dövləti qurma fikirlərini formalaşdırmışdır. Bu məqsədi güdən yəhudilər uzun müddət Tövrata bağlı qalmış, bir gün Tanrının bütün dünyanı yəhudilərin hökmü altına salacağına inanmışlar.

Bu fikirlərin formalaşması ilə yəhudilər 66-73 cü illərdə yenidən ayağa qalxdılar. Buna görə də, Roma orduları Qüdsə yönələrək, babil sürgünündən qayıtdıqdan sonra yenidən inşa edilmiş olan ikinci ibadətgahı da dağıtmışdılar. Bundan sonra, yəhudilər yerlərindən köçməyə vadar edilmiş, başda Misir olmaqla fərqli ölkələrə sürgün edilmişlərdi. Bu müqəddəs ibadətgahın dağıdılması ilə İsrail dövlətinin qurulmasına qədər olan bu dönəmi yəhudilər Xaricilərin Hakimiyyəti Dönəmi adlandırırlar (39,137).

Bütün bu tarixə nəzərə saldıqda görürük ki, yəhudilərin bir dövlət olaraq bu bölgəyə hakim olduqları zaman çox azdır. İkinci iqamətgahın dağıdılması ilə İsrail

dövlətinin yaradılmasına qədər olan müddəti yəhudilərin tarixində ikinci diaspora dövrü də adlandırırlar. Bu dövr ərzində Fələstin torpağı müxtəlif dövlətlərin hakimiyyətləri altında olmuşdur.

Romalılar tərəfindən Fələstindən sürgün edilmələri ilə yəhudilərin tarixində ikinci sürgün dönəmi başlamış oldu. Romalılar tərəfindən Suriyaya birləşdirilmiş Fələstin torpaqlarına dönmək yəhudilərə qadağan edilmişdi. Yəhudilər Şimali Afrika, Anadolu və Şərqi Avropaya köç etmiş, bəziləri əsir olaraq Romalılar tərəfindən Qərbi Avropaya aparılmış, bəziləri Mesopotamiyaya üz tutmuşdur.

Bu hadisələrdən sonra yəhudilərin Fələstin torpaqlarındakı nüfuzu yox dərəcəsində idi. Yəhudilərin bu dağınıq yaşadıqları dönəmdə, nə siyasi, nə də torpaq birliyi olmadan keçirdikləri bu illərdə bağlandıqları yalnız dinləri olmuşdur. Yəhudi dini bu millətin dünyanın dörd bir tərəfinə dağılmalarına baxmayaraq, onları vahid millət kimi saxlayan yeganə ünsür idi.

325-ci ildə Roma imperatoru Konstantinin xristianlığı qəbul etməsi ilə xristianlıq Roma imperiyasının dövlət dini elan edilir. Bundan sonra, Roma imperatorluğunda bütün hakimiyyət altında olan xalqlara bu yerli dini qəbul etdirməyə çalışırlar. Yerusəlim də daxil olmaqla, bütün müqəddəs torpaqlar ərazisində kilsə və monastrlar qurulur. Yəhudilərin öz dinlərinə sitayişində qadağalar qoyulur. Bununla da, yəhudi və xristianların arasında ixtilaflar baş verir.

Ermənilər isə hələ 301-ci ildə xristianlığı rəsmi dövlət dini olaraq qəbul etmişlərdi. Onlar bu qəbul etdikləri yeni etiqada böyük ümidlər bəsləyirlərdi. Beləki, onlar Roma imperiyası ilə eyni etiqada malik olmağa fars Sasani imperiyasına qarşı mübarizədə qüdrətli bir müttəfiq əldə etmək kimi baxırdılar.

387-ci ildə Erməni çarlığı iki hissəyə bölünür. Kiçik hissə olan qərb hissəsi Roma imperatorluğunun tərkibinə qatılır. Qalan əsas hissə isə farsların əlinə keçir. Sasani II Şapurun erməni vilayətini tutması ilə yəhudilər fars ərazilərinə köçürüləyə başlayır və bununla da, inkişaf dayanmış olur (22).

Bu illərdə Fələstin torpaqlarında ermənilərin məskunlaşması yüksək templə davam edirdi. Bizans idarəsi altında erməni monarxları Fələstin və Yerusəlim səhrasında öz varlıqlarını qurmağa çalışan ən fəalların içində idilər. Erməni

monarxları içində məşhurlardan biri olan Evfimiy Masada və Vifleyam şəhərləri arasındakı yerlərdə, təqribən, 15 monastr inşa etmişdi (41) .Yuxarıda qeyd etdiyimiz kimi, IV əsrdən etibarən erməni monarxları və dindarları tədricən bu səhranın sakinləri arasında meydana gəlməyə başlayırlar. Erməni dindarları 400-500 nəfərlik karvanlarla Yerusəlimə və müqəddəs yerlərə səfərə çıxırdılar.

Xristianlığın erkən tarixlərindən etibarən, ermənilər onları idarə edənlərə öz inancları ilə təsir göstərməyi bacara bilmişlər. Karen Armstrong Yerusəlim kitabında qeyd edir ki, 444-cu ildə Bizans imperatoru Konstantinapol II Fiadosinin xristianlığı qəbul etmiş arvadı Empres Eudokia Yerusəlimin idarəçisi olmuşdur. Onun idarəsi dövründə Eudokia İsa peyğəmbərin təbiəti və şəxsiyyəti haqqında olan doktrinal müzakirələrdə fəal iştirak etmiş və əhalinin içində yayılan kilsə və yeni istiqamətlərin çaşqınlığının şahidi olmuşdur. O, erməni monarxlarının başçısı Evfimiydən bir müddət təlim aldıqdan sonra xristianlığın ortodoks istiqamətinə üz tutur və Yerusəlim ortodoks mərkəzinə çevrilir (41).

Bu məlumat nəticəsində, ermənilərin Yerusəlimdə əldə etdikləri üstünlükləri anlamaq mümkün olur. Lakin erməni cəmiyyətinin və kilsəsinin inkişafı hər zaman belə rahat getməmişdir. Zamanla, Roma imperatorları tərəfindən dəstəklənən yunan kilsəsi Yerusəlimdə daha çox təsir gücünə malik olmağa başlayır. Heç bir arxası olmayan erməni kilsəsi isə ikinci yerə düşür.

Müsəlmanların idarəçiliyi altında, Yerusəlimi işğal etmiş II Xəlifə Ömərin hakimiyyəti dövründə ermənilər müqəddəs torpaqlarda əsas aktorlar kimi çıxış etməyə davam edirlər. Roma imperatorları ilə müharibə aparan Xəlifə Ömər yunanlara etibar etmirdi. O, belə hesab edirdi ki, ermənilərin sədaqətliyinə arxalanmaq olar.

Yunanlara qarşı ermənilərin köməyindən faydalanan Xəlifə Ömər bu dəstəyinin qarşılığında Patriarx titulunu yaratmışdı. Bu titul yepiskop Abrahamı Yerusəlim ermənilərinin patriarxı vəzifəsinə təyin edirdi (41). O vaxtdan etibarən orada davamlı olaraq patriarx rejimi fəaliyyət göstərir. Bu titul ilə Xəlifə Ömər erməni patriarxının bəzi müəyyən edilmiş müqəddəs yerlər üzərində hüquqlarını və üstünlüklərini nəzərdə tuturdu. Bundan sonra ermənilərin erməni kvartalında və

Müqəddəs James kilsəsi ətrafında məskunlaşmasında artım olmuşdur. Ermənilərə qarşı olan bu tolerant münasibət nəticəsində ermənilərin Ərəb imperiyası ilə yaxın münasibətləri formalaşmışdır.

1095-ci ildə Papa II Urban müqəddəs torpaqlara xaç yürüşünü elan edir. Məqsəd İsanın qəbrini müsəlmanların əlindən qurtarmaq idi. Xaç yürüşləri zamanı ermənilər xristian avropalıların Yerusəlimə doğru hücumlarında böyük kömək olmuşdular. Kilikia erməniləri xaçlılar ilə ittifaq yaratmışdılar.

Yerusəlimin xaçlıların hakimiyyətində olduğu müddətdə ermənilər xeyli üstünlüklərə malik olmuşdular. Xaçlıların ermənilər ilə yaxın qohumluq əlaqələri də yaranmışdı. Xaçlıların Yerusəlimi idarə edən kralları hakimiyyətlərində erməni cəmiyyətini və erməni kilsəsini müdafiə edirdilər. Erməni kilsəsi torpaq və mülklər almağa davam edirdi. Bu dövrdə onlar indiki erməni kvartalı sayılan ərazinin çox hissəsini əldə etmiş və 1165-ci ilə qədər artıq erməni kvartalının ən önəmli tikilisi olan Müqəddəs James kilsəsinin tikintisini də bitirmişdilər (41).

1187-ci ildə Səlahəddin Yerusəlimi işğal etdi. 200 illik xristian idarəçiliyindən sonra müsəlmanlar yenidən müqəddəs şəhərdə hakimiyyətlərini bərpa etdilər. Müsəlmanların hakimiyyəti altında olan müqəddəs şəhərdə yaşamaq artıq xristianlar, xüsusən latın xristianlar üçün əlverişli sayılmırdı. Səlahəddin müqəddəs torpaqlarda etibarlı müttəfiqə ehtiyac duyurdu. Latın xristianlar onun birinci dərəcəli düşmənləri idilər. O, yunanlara etibar etmədiyinə görə erməniləri özünə müttəfiq kimi görmüş və onlarla əlaqələrini qura bilmişdi. Xəlifə Ömər kimi, Səlahəddin də ermənilərə müəyyən üstünlüklər verməklə onlara digər xristianlardan fərqli olaraq öz torpaqlarında qalmağa icazə vermişdi.

Karen Armstrong özünün Yerusəlim kitabında erməni cəmiyyətinin bu torpaqlarda baş verən bütün dəyişiklərə rəğmən öz varlığını qoruyub saxlamasının səbəbini araşdıraraq yazır: “ Ermənilər xaçlılar ilə yaxından bağlı olmuşlardır, lakin onlar xaçlıları İslama qarşı olan nifrətdə təqib etməmişdilər. Onlar artıq öyrənmişdilər ki, tərəfdaşlıq etmək olmaz. Bunun da nəticəsində, onlar yeganə cəmiyyət idilər ki, 300 illik dəyişikliklər dövründə öz kvartalında sıxışdırılmadan öz varlıqlarını qoruyub saxlamağı bacara bilmişlər ” (41).

Yerusəlimdə Sultan Süleymanın dövründə də erməni cəmiyyəti öz varlığını qoruyub saxlamış və daha da inkişaf etmişdir. XVII-XIX əsrlərdə erməni cəmiyyəti və kilsəsi rahatlıqla öz varlığını davam etdirirdi. Kilsə müqəddəs torpaqlara dini səfərlər edən minlərlə dindarları qəbul etməyə davam edirdi. XX əsrdə Osmanlıda olan tənəzzül səbəbi ilə bu monastr dindarları yataqxana və yeməklə təmin etmə kimi fəaliyyətini dayandırdı.

Dini mühakimələrə baxmayaraq, yəhudilərin Osmanlıda sayları kəskin artır və eyni zamanda, onların idarəetmədə və iqtisadiyyat üzərində təsirləri də güclənirdi ki, buda xristian təbəəni narahat etməyə başlamışdı. Yəhudi və xristianlar arasında bu artan rəqabət nəticəsində xristianların yəhudilərə bir neçə dəfə hücumları oldu, çünki xristianlar öz siyasi və iqtisadi sahədə olan üstünlüklərini itirmək istəmirdilər. Bu basqınlar zamanı çoxlu sayda yəhudi öz həyatını itirmişdi. Avropalıların Osmanlı imperiyası üzərində siyasi və iqtisadi təsiri artdıqdan sonra onlar osmanlı xristianlarını dəstəkləməyə başlayır və ermənilərlə yunanlar ticarətdə imtiyazlar əldə edirlər. Bu da yəhudilər üçün əlverişsiz idi. Bundan əlavə, erməni və yunanların gücü artdıqca yəhudilərə qarşı təqiblər və hücumların sayı da artırdı. Ermənilər və yəhudilər araındakı rəqabət sarayda və maliyyə sistemində, xüsusilə, kəskin idi. Erməni bankirləri osmanlı maliyyə sistemində inhisar hüququnu ələ keçirdikdən sonra əllərindən gələni edirdilər ki, yəhudiləri saraydan uzaqlaşdırsınlar, hətta bu məqsədlə onlara böhtanlar atıb sultana sədaqətsizlikdə ittiham edirdilər. Bu iftiralar nəticəsində çoxlu sayda yəhudi həyatlarını itirmişdi.

Göründüyü kimi, Osmanlı imperiyası dövründə birgə yaşadıqları dönəmdə bu iki xalq bir-biri ilə rəqabət vəziyyətində olmuş, qarşılıqlı olaraq bir-birilərinə nifrət hissi bəsləmişlər. Bu xalqlar arasındakı münasibətdə artıq birinin qələbəsi digərinin uğursuzluğuna çevrilirdi. Məsələn, Osmanlı mülklərinin avropalılar tərəfindən zəpt edilməsi və avropalıların hərbi qələbələri yəhudilər üçün böyük üzüntü olmuşdu. Beləki, xristian avropalılar bura gəldikdə öz xristian qardaşları olan erməni, yunan, bulqarları müdafiə edib, yəhudi və müsəlmanları isə cəzalandırırdılar. Nəticədə, yəhudilər XIX əsrdə azlıqların içində Osmanlı dövlətinə sadiq olanlar oldular. Bu da millətçi ermənilərlə yəhudilər arasındakı münasibətlərin daha da korlanmasına gətirib

çıxarırdı. Radikal ermənilər yəhudiləri özlərinin inqilabi hərakatlarına qarşı olan dövlətin agentləri kimi qəbul edirdilər. Hətta bəzi ermənilər iddia edirdilər ki, 1915-ci il hadisələrinin bəzi məsul şəxsləri məhz yəhudi masonlar və ya yəhudi və masonlar tərəfindən dəstəklənənlər idilər (36,105). Baxmayaraq ki, bu iddialar ciddi qəbul edilə bilməz, ancaq bunlar bizə ermənin yəhudilərə qarşı olan mənfi münasibətini anlamağa kömək edir.

Yəhudilər üçün başqa bir mənfi hal isə, ərəb əraziləri olan balkanlar və anatoliada millətçi separatist hərəkatlar idi. Bu ərazilərdə yəhudilərin yeganə müdafiəçisi Osmanlı dövləti və onun qubernatoru idi. Çünki ərəblər və xristianlar yəhudilərə adət və dinlərinə görə nifrət edirdilər. Buna görə də, yəhudilər Osmanlı dövlətinə daha sadiq olmuşlar. Bu da öz növbəsində, erməni və yunanları qıcıqlandırırdı. Bir çox yunan üsyanlarında yəhudilər Osmanlı dövlətini müdafiə etmişdilər (46,18).

Xülasə, ermənilər davamlı olaraq dini səbəblər, şəxsi və etnik maraqlar üzündən yəhudiləri təqiblərə məruz qoymuşdular. Bu hücumlar labüd olaraq kəskin gərginliyə səbəb olur və ermənilərlə yəhudilər arasında qarşılıqlı nifrəti gücləndirirdi. Bunun nəticəsində yəhudilər ermənilərə qarşı müxtəlif etnik qruplarla əməkdaşlıq edirdilər (46,18).

Erməni və yunanlar yəhudi xalqına qarşı basqınlar etməkdən savayı, onları saraydan və digər rəsmi vəzifələrdən uzaq tutmaq üçün əllərindən gələni edirdilər. Bundan əlavə, onlar İstanbulda yeni sinaqoqların tikintisinə qarşı çıxırdılar. Göründüyü kimi antisemitizm osmanlı erməniləri arasında adət halını almışdı. Müasir dövrdə bu daha da artır.

Getdikcə iki millət arasında bir-birinə qarşı inamsızlıq daha da artır və nəticədə ermənilərin tərəddüd etmədən Nazi hökümətini dəstəkləməsinə səbəb olur. Bu ermənilərin alman dilində nəşr etdikləri faşist və antisemitik tendensiyalı jurnallarında özünü daha aydın göstərirdi. Bu jurnallarda ermənilər Nazi doktrinalarını və antisemitik nazi siyasətini açıqca müdafiə edirdilər. Bundan əlavə, Hitler də öz antisemitik kompaniyasında ermənilərdən dəstək almağı qarşıya məqsəd qoymuşdu. Onlar yəhudilərə qarşı eyni hissləri bəsləyirdilər. Hitlerin gələcək

Rusiyanı işğal planları ermənilərə azad olmaları üçün qızıl şans təmin edirdi ki, onlar "tarixi Ermənistan"ı Sovetlər və Türkiyədən azad etsinlər (46,19).

1915-ci ildə Osmanlı dövlətinin Müvəqqəti Köç haqqında qanunu (təhcir qanunu) ilə ermənilərin Osmanlı dövlətindən deportasiyasına başlanmışdı. Bununla əlaqədar olaraq, Yerusəlimin erməni kilsəsi öz monastrında erməni qaçqınlarını qarşılamalı oldu.

1921-ci ilə kimi Britaniya mandatlığı altında olan Fələstin torpaqlarında vəziyət gərgin idi. Buna baxmayaraq, buradakı erməni cəmiyyəti inkişaf edərək, dini, mədəni, sosial olaraq böyüyürdü. Ermənilər Patriarxın yönləndirməsi altında öz ənənəvi yaşayışlarına davam edir, ətrafdakı ərazi uğrunda mübarizələrə qarışmaqdan imtina edirdilər. Onlar öz neytrallığını qoruyur və ərəb-yəhudi konfliktində iştirak etməkdən imtina edirdilər.

1948-ci ildə İsrail müstəqil dövləti qurulmuş oldu. Fələstin torpağında yaşayan ermənilərin bir hissəsi İsrail vətandaşlığını qəbul etmiş oldu. Yerusəlimin Köhnə şəhərində yaşayan və İordaniyanın işğal etdiyi torpaqlarda yaşayan digər yarısı isə İordaniya vətandaşı oldular. Ermənilərin iki qrupu meydana gəldi. İsrail dövləti sərhədləri daxilində yaşayan İsrail vətəndaşları və Yerusəlimin Köhnə şəhərində və Qərb sahilində İordaniya vətandaşları.

1967-ci ildə İsrailin Şərqi Yerusəlimi işğal etməsi ilə Yerusəlimin erməni cəmiyyəti İsrail idarəçiliyi altına keçmiş oldu. 2000 il sonra yəhudilərin yenidən müqəddəs şəhərə ayaq basmaları yəhudilər üçün tarixi hadisə sayılırdı. Bu yeni idarəçilikdə erməni cəmiyyəti çətinliklərlə qarşılaşsa da, sonradan İsrail idarəçiliyi ilə də yaxın münasibət qurmağa nail ola bilmişdir. Erməni patriarxiyası İsrail-Fələstin konfliktindən çox təsirlənmişdir. O, bu müqəddəs torpaqda varlığını qoruyub saxlamaq üçün İsrail ilə yaxın münasibətini saxlamağa çalışmaqla yanaşı, Fələstindəki erməni cəmiyyətinin də İsrail tərəfindən əziyyət çəkməsinə göz yuma bilmirdi.

Bugün Köhnə şəhərin erməni camaatı İsrailin işğalının erməni kvartalı istiqamətində gedəcəyindən qorxur. İllərlə erməni cəmiyyəti bu torpaqlarda mövcudluğunu qoruyub saxlamaq üçün mübarizə aparmışdır. Bugün onların

qarşılaşdığı isə yəhudi ekstrimizdir. Yəhudi kvartalında yəhudilərin sayı artır, lakin qonşu erməni kvartalında isə azalır. Bu isə iki xalq arasında demoqrafik və dini əsasda gərginliyin artmasına səbəb olur.

Şərqi Yerusəlimdə ermənilər Fələstin vətandaşıdırlar və Fələstinlilərin Köhnə şəhərdə qarşılaşdığı çətinliklərə oxşar vəziyyətlə üzləşirlər. Fələstinlilər illərdir ki, konflikti düzgün idarə etmədiklərindən İsrailə məğlub olurlar. Ermənilərin də qorxduğu budur ki, vəziyyətin həlli Fələstin və ya Ərəb diplomatlarına qalsa, tezliklə bütün Yerusəlim əldən gedəcəkdir.

Situasiya kritikdir. İsrail Köhnə şəhərin yəhudi olmayan xalqına qarşı ciddi davranır. Lakin öz yəhudi vətandaşlarına qarşı isə münasibətdə daha mülayimdir. Onlar şəhərin demoqrafik vəziyyətini yəhudilərin xeyrinə dəyişməyə çalışırlar. Buna görə də, yəhudilərin burada yerləşdirilməsinə səy göstərirlər. Ermənilər Şərqi Yerusəlimdəki evlərini tərk etməyə təqib olunurlar. Bundan başqa, yaşayışla bağlı da çətinliklərlə qarşılaşırlar. Onlar üçün artıq burada yaşamaq dözülməz olur. Bu vəziyyət onları digər mərkəzi asiya xristianları kimi, Abş və Kanadaya miqrasiya etməyə məcbur qoyur.

Beləliklə, yəhudilərin və ermənilərin bir xalq kimi tarixi təkamülünü araşdıraraq belə bir nəticəyə gəlmək olar ki, bu xalqların yaranması və ilkin inkişafı fərqli coğrafiyalarda və tarixi şəraitlərdə baş vermiş olsa da, inkişaf nəticəsində, tarixin müəyyən mərhələsində onların qarşılıqlı əlaqələri və qaynayıb qarışması baş vermişdir. İlk vaxtlar yalnız geopolitik səbəblərdən əmələ gələn bu tarixi yaxınlıq tədricən iki xalq arasında qarşılıqlı rəqabətə, ziddiyyətlərə və hətta bəzi məqamlarda nifrətə doğru təkamül etmişdir. Xüsusilə, ərəb xilafəti dövründə, xaçlı yürüşləri zamanı, osmanlı hakimiyyəti illərində habelə qərb müstəmləkəçiliyi dövründə yəhudilər və ermənilər arasında münasibətlər zaman-zaman kəskin xarakter almış və ciddi rəqabətə çevrilmişdir. Bütün bunlar İsrail və Ermənistan dövlətləri yaranmamışdan öncə iki xalq arasında kəskin rəqabətin əsasını qoymuş və bu rəqabət onların milli dövlətləri yarananda miras olaraq ötürülmüşdür.

## 1.2 İsrail-Ermənistan münasibətlərinin dini ideoloji aspektləri

1948-ci il 14 may tarixində əsası qoyulan İsrailin bir dövlət kimi formalaşmasında dini amillər mühüm rol oynamışdır. İsrailin yerləşdiyi ərazi üç dinin müqəddəs hesab etdiyi tarixi abidələrə və yerlərə malikdir. Həm xristianlığa, həm islama, həm də yəhudiliyə aid müqqəddəs yerlərə malik olması bu ərazi üzərində beynəlxalq və regional rəqabəti və qarşıdurmanı gücləndirmişdir. Yəhudilər üçün Qüdsün, yəni Yerusəlimin çox böyük əhəmiyyəti vardır. Bu şəhər 3 dinin (İudaizm, İslam, Xristianlıq) mərkəzi sayılır.

Belə ki, Yəhudiliyin əsas dini kitabı olan Tövrat - "Tanax" adlandırılan dini qanunlar külliyyatının bir hissəsidir və bu külliyat özündə 3 kitabı birləşdirir. Bu ibri dilində 3 böyük kitabın baş hərflərindən formalaşmış bir abreviaturadır.

" תנ'ך ", yəni "Tanax" aşağıdakı kitablardan ibarətdir:

1. Tora, yəni Tövrat
2. Nviim-yəni, Nəbilər, Peyğəmbərlər kitabı
3. Ketuvim-Müqəddəslər, müqəddəs yazılar

Bu kitabların da hər birinin özünün müəyyən hissələri vardır. İudaizm dininin əsas qayda-qanunları, normaları isə Tövratda öz əksini tapmışdır. Yəhudilikdə axirət dünyasına inanc sonradan yaranmış yenidən dirilmə, əbədi həyat, günahlara görə hesab vermək, cənnət, cəhənnəm və başqa bu kimi inanclar meydana çıxmışdır. İudaizm dinində cənnət, cəhənnəm, hökm günü və başqa bu kimi inanclar məhz Tövratda (Tora) izah edilir (9).

Ümumilikdə, İsraildə din və dövlət anlayışı bir-birinə çox yaxın anlayışlardır, yəni onları bir-birindən ayırmaq qeyri-mümkündür. Hətta İsrailin dövlət atributlarında - bayraqda, menorada, himndə, dua zamanı geyindikləri tallitdə belə dini amillər öz əksini tapır. Məlumdur ki, İsrailin yazılı konstitusiyası yoxdur və bunu "Əsas qanunlar" adlandırılan "Basic Law"lar əvəz edir. Bu qanunlar belə dini qayda-qanunlar əsasında qurulmuşdur.

İsrail dövlətinin qədim tarixi və yəhudilərin dini, formalaşması haqqında məlumat verərkən qeyd etmək lazımdır ki, Aralıq dənizi sahili ölkələrinin ən qədim

əhalisi samilər hesab olunur. E.ə. IV-III minilliklərdə burada qərbi sami tayfaları məskunlaşmışdılar. Onlar dil xüsusiyyətlərinə görə kənani, amori və aramilərə bölünürdü. Məhz Fələstin və Suriya ərazisindən samilər İkiçayarasına hərəkət etmiş və burada akkad dilinin əsasını qoymuşdular. Sami tayfaları Şərqi Aralıq dənizi sahillərində kənani və filistimli adı altında məskunlaşmışdılar.

Tövrat dini kitabında adı çəkilən "ibri" etnonimini ivri (ivrit, yəhudi) adı ilə eyniləşdirirlər. İbri tayfalarının e.ə. XVI-XIV əsrlərdə Şimali İkiçayarasından gəldikləri bildirilir. Şimali Suriya və İkiçayarasında məskunlaşmış aramilər arasında yaudi tayfası yaşamışdı. Ehtimal olunur ki, "yaudi" etnonimindən yəhudi adı meydana gəlmişdi.

Beləliklə, yəhudilərin 3500 ildən çox tarixi olduğu göstərilir. Yəhudi tarixinin e.ə. XVI əsrdə patriarxlar Abram, İshaq və Yakovdan başlandığı bildirilir. İkiçayarasında aparılmış qazıntılar zamanı e.ə. 2000-1500 illərə aid sənədlərdə Ur şəhərindən Avramın köçəri həyatı haqqında məlumatlar vardır. Bu məlumatlar Bibliyadakı məlumatlarla oxşarlıq təşkil edir. Patriarxlar haqqında salnamədə göstərilir ki, Abram allahların iradəsi ilə Ur şəhərini tərk edir və Kənan torpağına gəlir və burada tək allaha inanan xalqın başlanğıcını qoyur. Quraqlıq üzündən Kənanda aclıq başlayanda Abram buranı tərk edir və Misirdə məskunlaşır. Abramın nəsilləri burada qul vəziyyətinə düşür və 400 ilə qədər bu vəziyyətdə yaşayırlar. Abramın oğlu İshaq və nəvəsi Yakov yəhudilərin özünəməxsusluqlarını qoruduqları üçün Abramın davamçıları hesab olunur. Abramın digər oğlu İsmayıl Misirdə yerli qadınla evləndiyi üçün səhraya qovulmuş və o, ərəblərin başlanğıcını qoymuşdur.

Əvvəlki bölümdə də qeyd edildiyi kimi, İsrail xalqının və dövlətinin tam formalaşması daha çox Musa peyğəmbərin adı ilə əlaqələndirilir. Yəhudi ənənəsinə görə, Musa peyğəmbər təxminən e.ə. XIII-XII əsrlərdə yəhudiləri 400 illik qul əsarətindən sonra Misirdən çıxarmışdır. Bundan belə, yəhudi tayfaları 40 il səhrada dolaşdıqdan sonra Sinay yarımadasına, oradan isə Aralıq dənizinin şərqində yerləşən Erets-İsrael (İsrail torpağı) adlandırdıqları ərazilərə gələrək, buranı ələ keçirmişlər.

E.ə. XI əsrdə yəhudilər arasında tayfa münasibətləri dağılmağa başladı. Eyni zamanda, onlar Krit adasından və Kiçik Asiyadan gəlmiş filistimlilərlə toqquşmalı

olurdular. Filistimlilərə qarşı mübarizəyə Veniamin nəslindən olan kəndli Saul (e.ə. 1025-1004) başçılıq edirdi. Saulun dövründə İudeya, Qalileya və Qilead ələ keçirildi və ilk İsrail çarlığı yaradılmışdı.

Qeyd edildiyi kimi, İsrail ərazisi əvvəlcə Assuriya, sonra Babil tərəfindən işğallara məruz qalmışdır. Bu dövrdə Qüds məbədinin dağıdılması və əhalinin buradan qovulması ilə yəhudi diasporasının başlanğıcı qoyuldu. Belə şəraitdə, din yəhudilərin yeganə dayağı olmuşdur və Babil sürgünündən sonra din yəhudiləri birləşdirən əsas amilə çevrilmişdir. Özlərini seçilmiş bir millət kimi görən yəhudilər ilk təkallahlı din olan İudaizmi Allahın onlara Hz.Musanın timsalında göndərdiyini iddia edirlər. Qüdsdəki Məbəd yəhudiliyin əsas birlik nöqtəsi, yeddi qollu şamdan-Menora və altıbucaqlı Maqen-David ulduzu isə onların əsas simvollarıdır.

Yəhudilikdə inamın əsasını tək olan Allaha inanc və ibadət, tək olan Allahın birliyinə və varlığına olan etimad təşkil edir. İudaizm dini monoteist dindir və təkallahlı dinlər içərisində ən birincisidir. İudaizmdə Allahın birliyi, əvvəlinin və sonunun bilinməməsi, hər şeyi bilməsi, bütün varlıqların Yaradanı olması və başqa bu kimi inanclar vardır. Yəhudilər tək Allaha sitayiş edirlər, çünki İudaizm monoteist dindir. İudaizm dinində Allah "Elohim" adlanır və Allahın "Yəhva, Yehova" kimi bir neçə adı vardır. İsraildə ailə hüququ belə dini normalar üzərində qurulub: Nigah və boşanma yalnız dini məhkəmənin icazəsi ilə həyata keçirilir.

Yəhudilər ibadətlərini sinaqoqlarda həyata keçirirlər. Sinaqoqlarda Aron ha-Kodeş adlandırılan, Qüdsə tərəf yönəlmiş müqəddəs bir bölmə vardır ki, orada müqəddəs əlyazmalar saxlanılır. Bütün sinaqoqlarda yeddi qollu şamdan (menora) da olur. Bundan əlavə, Kral Davudun möhürü kimi qəbul edilən və "Maqen David" adlandırılan iki üçbucaqdan meydana gəlmiş altı bucaqlı bir ulduz da vardır.

Menoranın bir çox simvolik mənası vardır. İlk mənası daimi işıq ifadə etməsidir. Menoranın 7 işığı eyni zamanda Allahın 7 gününü ifadə edir, yəni altı iş günü və yeddinci istirahət günü olan Şabbatı. İlk orijinal Menora Betsalel Ben Hur tərəfindən Tanrının göstərişlərinə görə çəkilmiş, hazırlanmış və müqəddəs Mişkan çadırının (Musa peygəmbər tərəfindən inşa olunmuş məbəd) ən müqəddəs iç hissəsi olan Kadoş Akodeşimə yerləşdirilmişdir. Bundan sonra Menora yəhudi köçləri

zamanı onlarla birlikdə yerini dəyişdirmiş, Yerusəlimin xarici dövlətlər tərəfindən istilaları ilə Babil sonra Yunan, Roma, Bizans imperatorlarının əlinə keçmişdir (12).

Ərəblərin Yerusəlimi işğal etməsindən sonra Menora bir daha heç ortaya çıxmamışdır. Əfsanəyə görə Menora ya Yerusəlimdə, ya da Şila da basdırılıbdır. O, Musanın gəlməsini və məbədin yenidən qurulmasını gözləyir (12)

Yəhudilər sinaqoqlarda müqəddəs kitabdan bəzi parçaları səsli şəkildə oxuyurlar. Yəhudi ibadətinin ən önəmli məqamlarından biri "Tanax" parçalarının xaxamlar (yəhudi müdrikləri) tərəfindən oxunmasıdır. Yəhudilər sinaqoqlardan başqa evdə də ibadətlə məşğul olurlar. İbadət, adətən, Qüdsə üz tutaraq həyata keçirilir. Onlar ibadətə xüsusi ibadət geyimlərində gedirlər. İudaizm dininə əsasən, sinaqoqda qadınlarla kişilər ayrı-ayrı ibadət edirlər. Qadınlar, adətən, sinaqoqun ikinci mərtəbəsində başı bağlı şəkildə ibadət edirlər.

Yəhudiliyin dini atributlarından biri də Tfildir. Yəhudilikdə "tfilin" yəhudi kişilərinin bayram və şənbə günləri istisna olaraq, sol qol və başlarına taxdıqları, içində Tövratdan sürələr olan dəridən hazırlanmış iki balaca kvadrat şəkilli qutulardır. Eyni zamanda bu qutunun taxılma mərasiminə də bu ad verilir. Sol qolda nəbzin vurduğu yerə və başda iki göz arasında alına taxılan bu qutuların içərisində dəri üzərinə əl ilə yazılmış Tövratdan sürələr olur. Tfillin bayram günləri və şənbə günləri istisna olmaqla, 13 yaşa dolmuş hər yəhudi kişi tərəfindən xüsusi bir dua ilə taxılır. Allahın adının keçdiyi bu qutuları qolda nəbzin üzərinə və başda gözlərin arasına taxan bir yəhudi ürəyini, əllərini və gözlərini pis düşüncə və hərəkətlərdən qorumuş olur (10).

Yəhudi kişilərin səhər ibadətləri zamanı geydikləri üzəri mavi, ağ rəngli şala Tallit deyilir.Yəhudilikdə səhər duasını ən tez oxuya bilmək üçün günəşin mavi ilə ağ rəngi ayırd edilə biləcək aydınlığa çatması lazımdır. Bu səbəblə tallitin xətləri mavi rəngli düzəldilir ki, səhər işıq yandırmadan dua edən şəxs günəşin işığı ilə tallitdəki mavi xətləri gördüyü anda səhər duasına başlasın. İsrail dövlətinin bayrağı da tallitin rənginə uyğun şəkildə hazırlanmışdır (11).

İudaizmdə dua və ibadət günlük və həftəlik olmaqla iki hissəyə bölünür. Günlük ibadət səhər, günorta, axşam saatlarında həyata keçirilir. Həftəlik ibadət isə

şənbə günləri sinaqoqda icra edilir. Həftəlik ibadət Şabbat adlanır. Belə ki, hər həftə sonu onlar Şabbat bayramını xüsusi şəkildə qeyd edirlər.

Yəhudilərin Purin bayramı var. Purin bayramı yəhudiləri məhv etmək istəyən Amana qarşı müharibədə qələbə şərəfinə keçirilir. Tarixçilərin fikrincə, ermənilər elə həmin Amanın nəslindəndir. Bəzi tədqiqatçılara görə, yəhudilərlə ermənilər arasında münaqişə və dini dözümsüzlük məhz bu zamandan başlamışdır. İki xalqın müqəddəs yerlərə olan iddiasından əlavə, onların ideologiyasındakı özünü müqəddəsləşdirmə və müəyyən dözümsüzlük məhz bu tarixi dövrdən baş qaldırmışdır.

Müasir dövrdə hələ də mövcud olan yəhudi məzhəblərinə 1-Mühafizəkar yəhudilər; 2-Ortodoks yəhudilər; 3-Reformist yəhudilər; 4-Yenidən qurulan yəhudilər aid edilir.

Mühafizəkar yəhudilər XIX əsrin ortalarında Alman yəhudiləri arasında ortaya çıxmışdır və bu cərəyan daha çox Almaniyada geniş yayılmışdır. Sonradan Amerikada da dəstəklənməyə başlanılmış bu məzhəbin tərəfdarları keçmiş adət-ənənələrinə bağlı olanlar və bunu bu günə qədər qoruyub saxlayanlardır .

Qüdsdəki məbədin dağıdılmasından günümüzə qədər gələn rəsmi yəhudi inanc və adətlərini təmsil edən Ortodoks yəhudilik isə təmsilçilərinin sayının ən çox olduğu bir məzhəbdir. Bugün İsrail hökümətində də bu məzhəb tərafdarları hakimdir. Musa peyğəmbərin qanunlarına bağlı olan Ortodoks yəhudilər Şabbatla əlaqədar olaraq, şənbə günü heç bir iş görməməklə də digər məzhəblərdən fərqlənirlər.

Daha çox Avropadakı yəhudilərin başlatdığı reformist yəhudilik hərəkatı İudaizmlə müasirlik anlayışlarını birləşdirməyi qarşıya məqsəd qoymuşdur. Beləcə, bu mənsəbə qulluq edən yəhudilər həm öz adət ənənlərinə bağlı yaşayacaq, həm də müasir dünya ilə ayaqlaşacaqdılar. Bu hərəkatın başlanmasının əsas səbəbi Almanyadakı yəhudilərin dini mərasimləri mədəni həyatları üçün bir maneə kimi görmələri idi. Beləliklə, onlardan bir qismi xristianlaşmış və digərləri isə adət ənənələrini dəyişdirmişlər.

Reformist yəhudilər dində müasirləşmənin tərəfdarları idilər. Bunu həyata keçirmək üçün onlar ibadətin bəzi şəkillərini dəyişdirərək qadın və kişi arasında ayrı-

seçkiliyə son vermiş, şənbə günü qadağasını aradan qaldıraraq sinaqoq ayinlərini azaltmışdılar. Onlar, hətta şifahi Talmud ənənəsini də inkar etmişdilər.

Qeyd olunan üç məzhəbdən başqa "Mordekai Kepta"nın qurduğu "Reconstructionist"- Yenidən qurulanlar adlı bir məzhəb də vardır ki, daha öncə mühafizəkar yəhudilərin içində yer almışdılar. Onlar zaman keçdikcə öz fikirləri ilə digər yəhudi məzhəblərini təsirləndirməyi bacara bilmişdilər.

Bu hərakatın qurucusuna görə yəhudilər də digər millətlər kimi bir millətdir. "Seçilmişlik" deyə bir özəllikləri yoxdur. Tanrı yəhudiləri deyil, yəhudilər Tanrını seçmişdilər. Bu məzhəb tərəfdarları yenidən dirilməyi və axirəti rədd edirlər. Onlar Musa peyğəmbəri də inkar edir, qadın və kişilərin birgə ibadətinə icazə verirdilər. Onlar qadınlara da haham seçilmək izni veriridilər (9).

Yəhudilər Qüdsü özlərinin paytaxtı elan etmiş olsalar da, BMT qətnaməsinə əsasən 1948-ci ildə İsrail dövləti yaradıldıqdan sonra Qüds və Vifliyem beynəlxalq nəzarətdə olan ərazilər elan olunmuşdu.

Qüdsün qədim tarixi vardır. Şəhərin divarları Sultan Süleyman tərəfindən tikilmişdir. Onun 8 qapısı vardır. Qapılardan ən məşhuru Dəməşq və Yaffa qapılarıdır. Yaffa qapısının yanında XVI əsrdə Yerusəlimin divarlarını inşa etmiş türk memarlarının qəbirləri var. Deyilənə görə onları divarların inşası başa çatdıqdan sonra sultanın əmri ilə qətlə yetirmişdilər.

Həm İsrail, həm də Fələstin bu şəhəri rəsmi olaraq öz paytaxtı hesab edir. Onun statusu hələ də tam müəyyən olunmayıb.

Müqəddəs şəhərdə müxtəlif konfessiyaların, dinlərin müqəddəs abidələri vardır. Burada Süleyman peyğəmbərin e.ə 950-ci ildə tikdirdiyi məbəd mövcud olmuşdur. Daha sonra bu Babillilər tərəfindən dağıdılır. İkinci məbədi isə 70-ci ildə Romalılar tərəfindən dağıdılmışdır. Maraqlıdır ki, hər iki məbəd eyni gündə və eyni ayda yerlə-yeksan edilib. Bu tarix sentyabrın 10-dur. Buna görə də, bir çox yəhudilər bunu Allahın hökmü kimi qəbul ediblər. Bu məbəddən müasir dövrə yalnız qərb tərəfdə yerləşən divarlar qalıb. Bura məbədə ən yaxın divarlar olub. Bu divarlar yəhudilər üçün xüsusilə müqəddəsdir. Bu divarlara yəhudilər "Hüzün divarı" və ya "Ağlama divarı" deyirlər. Burada kişi və qadınlar ayrı-ayrılıqda, qadınlar sağ tərəfdə,

kişilər isə sol tərəfdə ibadət edirlər. Ənənəyə görə bu yerlərə gəlib çatmış hər bir inanclı yəhudi iki ovcu və alnı ilə divara toxunaraq Allaha şükr edir, dualar oxuyur və məbədin dağılmasına görə kədərlənir. Buna görə də divarı "Hüzün divarı" adlandırırlar. Yəhudi inanclarına görə Musa peyğəmbər gəlməyincə bu məbəd bərpa oluna bilməz. Ona görə də iki min ilə yaxındır ki, bütün dünya yəhudiləri divarin qarşısına toplaşaraq dua edir. Bəziləri  tövbə edib günahlarının bağışlanmasını istəyir, bir qismi isə konkret istəklərini ifadə edir.

Müsəlmanların namaz qıldıqları zaman Məkkəyə üz tutduqları kimi, yəhudilər də dua edərkən Qüdsə tərəf üz tuturlar. Sinaqoqlarda istiqamət üzü "Kədər divarı"na düşməlidir. Yəhudilərin inancına görə Tanrı bu yerdən-Məbəd dağından yeri yaratmağa başlayıb. Elə burada da qiyamət gününün başlanması elan olunacaq. Hər şey burada başlayıb, nə vaxtsa bura da da bitəcək.

Qüds həm də xristianların müqəddəs şəhəridir. İncildə təsvir olunan bir çox hadisələr bu şəhərdə baş verib. İndi bu şəhərdə çoxlu kilsələr var. Onların bir qismi İsa Məsihin Qüdsdə olduğu dövrlə əlaqədardır.

Via dolorosa-Kədər yolu İsa peyğəmbərin Qalqofaya qədər getdiyi yoldur. İsa Məsih bu yol ilə məhkum edildiyi yerdən çarmıxa çəkildiyi və dəfn edildiyi yerə qədər getmişdir. Xaç yolu və ya Ələm yolu adlanan bu yol 14 dayanacaqdan ibarətdir. İndi bu dayanacaqların yerində kilsələr tikilib. Qüdsə ziyarətə gələn xristianlar bu yolu piyada gedirlər. Bu yol onları İsa Məsih kilsəsinə gətirib çıxarır.

İsa Məsih kilsəsi xristian dünyasının ən müqəddəs yerlərindən biridir. İsa peyğəmbər burada çarmıxa çəkilib və dəfn olunub. Ona görə də dünyanın bütün yerlərindən xristianlar,məhz, bu kilsəyə görə Qüds şəhərinə gəlirlər.

Bu kilsə 6 dini konfesiya arasında bərabər bölünüb. Kilsəsin fasadında ikinci mərtəbənin sağ pəncərəsinə bir nərdivan söykənir. Nərdivan yunan pravoslav kilsəsinin nəzarətindəndə olan haşiyəyə dayanıb, erməni apostol kilsəsinin nəzarətində olan pəncərəyə söykənir. Bu nərdivan xristianlıqda konfesiyalararası mübahisənin simvolu kimi çıxış edir. Onun yerində durması kilsənin bölündüyü 6 dini konfesiya arasında razılığa (yerindən oynatmamaq, təmir etməmək və 6

konfesiyasın razılığı olmadan heçnəyi dəyişməmək) əməl olunduğunun göstəricisidir (49).

Bu nərdivanın Müqəddəs İsa Məsih kilsəninin divarında peyda olması xristian konfesiyalar arasındakı konfliktlə əlaqdardır. Kilsəyə nəzarət edən 6 dini konfesiya bunlardır- katolik kilsəsi, yunan provaslav kilsəsi, erməni apostol kilsəsi, suriya provaslav kilsəsi, efiopiya pravoslav kilsəsi və kopt provaslav kilsəsi .

Bu kilsə üzərində nəzarət hüqunun əldə edilməsi uğrunda xristianlar arasında gedən mübarizə çox qədim zamanlardan mövcud idi. Lakin XVI əsrdən etibarən bu mübarizə daha da güclənmişdir. Altı dini konfesiyanın da mübarizədə iştirakına baxmayaraq, bu mübarizə katolik və pravoslavlar arasında daha kəskin forma almışdır.

Yerusəlimin Məmluklərin idarəçiliyi altında olduğu dövrdə katoliklər İsa Məsih kilsəsi və digər müqəddəs yerlərdə idarəçiliyi əllərinə almışdılar. Bundan pravoslav yunanlar narazı idilər. Buna görə də onların arasında tez-tez qanlı davalar düşürdü. Bununla da onlar həm kilsəyə, həm də ətrafdakı insanlara ziyan gətirirdilər.

1757-ci ildə imperiyanın pravoslav əhalisinin narazılığını yatırtmaq üçün Sultan III Osman yeni fərman verir. O, bu fərmanla katoliklərin müqəddəs torpaqdakı yerlər üzərində hüquqlarını məhdudlaşdırır və Yunan pravoslav kilsəsinin ixtiyarına Vifleymdəki İsanın doğum kilsəsini və Müqəddəs Mariya kilsəsini verir. Bundan başqa, İsa Məsih kilsəsində iki konfesiyaya da eyni hüquqları tanıyır (49).

1757-ci il fərmanı xristianlığın müqəddəs ocağının bir neçə konfesiya arasında bölünməsinə dair ilk əsaslı sənəd idi. 1757-ci il fərmanı ilə qüvvəyə minən və sonradan 1852-ci il fərmanında yenidən təsdiq olunan  müqəddəs yerlər üzərində hüquqların bölünməsi  "müqəddəs torpaqın status-kvosu" adını almışdı. Müasir dövrdə bu sənəd əsas xristian ocaqlarının idarə olunması və fəaliyyət göstərməsinə dair yeganə keçərli sənəddir. Bu status-kvo ərazilərin yuridiksiyalarında olan tərəflər (Britaniya mandatlığı altında Fələstin, İordaniya, İsrail) tərəfindən gözlənilib və hələdə gözlənirilir (49).

Bu nərdivana baxıb, onun yerində durduğunu görmək 6 konfesiya arasında razılaşmaya əməl olunduğunun göstəricisidir. Buna baxmayaraq, bu konfessiyalar arasında tez-tez konfliklər meydana gəlir.

Kilsənin konfessiyalar arasında bölünməsi XVI-XIX əsrlərdə baş vermişdir və bəzi qeyri-müəyyənliklər səbəbindən konfesiyalar arasında tez-tez narazıçılıqlar yaranır. Kilsədə hər bir konfesiyaya müəyyən hissə məxsusdur. Bundan başqa, onların arasında ibadət saatları da müəyyən olunmuşdur. Çox vaxt konfliklər də bunun üzərində yaranır. Lakin buna baxmayaraq, bura müqəddəs yerdir və buna görə də onlar bir yerdə olmağa məhkumdurlar və mübahisələrə son qoya bilirlər. Bu kilsəyə bu qədər iddiaçının olmasına baxmayaraq, bəzən istifadə edilən suyun pulunu heç kim vermək istəmir, borcu bir-birinin üstünə atırlar. Məsələn, 2010-cu ildə Qüdsün şəhər meriyası (bələdiyyəsi) borc ödənilməzsə, suyu kəsəcəkləri ilə hədələmişdilər (49).

Kilsədə asayişə İsrail polisi nəzarət edir. 1109-cu ildən bəri kilsənin açarları Yudex adlı ərəb-müsəlman ailəsində saxlanılır. Kilsənin qapılarının açılması və bağlanması isə digər müsəlman ailəsi Nusseybexin ixtiyarındadır. Bu hüquqlar və açarlar irsi olaraq atadan oğula ötürülür.

İsa Məsih kilsəsi bir neçə binadan ibarətdir. Qalqofanın ən yüksək nöqtəsində İsa peyğəmbər çarmıxa çəkilib. Kiçik mağarada isə İsa peyğəmbər dəfn edilib. Bu mağara qaya üzərində yonulmuş düz bir yerdir. Daşları aparmasınlar deyə, onun üzəri ağ mərmərlə örtülüb. Bu məbədin 3-cü əsas yeri İsanın dirilmə məbədidir.

Əsrlər boyunca Qüds şəhəri əldən-ələ keçib. İşğalçıların yerli müqəddəs ocaqlara münasibəti isə fərqli olub. Bəzən onları yerlə yeksan ediblər, bəzən isə təmir edib və ya heç toxunmayıblar. İsanın dirilmə kilsəsi bütöv və salamat qalıb və həmişə xristian dininə məxsus olub. Amma çox az adam bilir ki, VII əsrdə o məscidə çevrilə bilərdi. Yalnız, II Xəlifə Ömərin tolerantlığı nəticəsində bu baş verməyib. II Xəlifə Ömər Qüdsə gələndə onu bu kilsəyə aparırlar. Bu zaman namaz vaxtı yetişir. Ruhanilər ona bu kilsədə dua etməyi təklif edirlər. II Xəlifə Ömər imtina edir. O, kilsədən çıxaraq üzbəüzdə namaz qılır. İndi bu yerdə Ömər məscidi yerləşir.

Nəhayət, Qüds həm də müsəlmanların müqəddəs şəhəridir. Çünki Haram əş-Şərif məhz bu şəhərdə yerləşir. Məbəd dağında bütün müsəlmanlar üçün çox əziz və müqəddəs bir yer Əl-Əqsa məscidi yerləşir. Əl-Əqsa müsəlmanların ilk qibləsi olmuşdur.

İsraildə hal-hazırda hər üç dini mənsəbə qulluq edənlərin nümayəndələri yaşayırlar. Belə ki, İsraildə üstünlük yəhudilərdə olsa da, xristianlar və müsəlmanlar da yaşayırlar.

İsraildə ermənilər də yaşayır və orada erməni diasporası fəaliyyət göstərir. Lakin İsraildə erməni diasporası çox azlıq təşkil edir.

Ermənilərlə müqəddəs torpaq arasındakı əlaqə Assur və Babilllərin bu torpaqlara gəldiyi dövrə gedib çıxır. Hətta, bəzi mənbələrdə 3000 il bundan əvvələ aid Mesopatamiya ilə ermənilər arasında ticarət əlaqələrinin olması, yəhudi və erməni tacirlər arasında dostluq əlaqələrinin olması da göstərilir. “Krallar kralı” ləqəbli Tiqran Suriyaya daxil olmaqla şimal əraziləri işğal etdiyi zaman öz siyasi təsirini həmin vaxt Hasmonah kralları tərəfindən idarə olunan İsrailə də yaymışdır. Erməni-yəhudi əlaqələrinin erməni çarı Böyük Tiqranın zamanına gedib çıxdığı bildirilir.

Ermənilərin müqəddəs torpaqlarda olması xristianlığın erkən illərinə aid edilir. 301-ci ildə xristianlığın qəbulundan sonra erməni dindar və monarxlarının bu ərazilərə, xristianlığın müqəddəs ocaqlarına  səfərləri başlayır. Bu səfərlər zamanı onlardan bəziləri vətənlərinə qayıtmamış və bu ərazidə öz cəmiyyətlərini yaradaraq yaşamağa davam etmişlər.

Tədricən, ermənilər regionda öz yerləşmələrini genişləndirmişdilər. Osmanlı hakimiyyəti dövründə sultanın dəstəyindən faydalanan ermənilər ( əsasən XVII-ci əsrdə) bu ərazidə geniş yaşayış məskəni-kvartal yaratmışdılar. Osmanlıların Yerusəlimdə hakimiyyəti dövründə erməni cəmiyyəti öz mövqeyini burada xeyli möhkəmləndirə bilmişdir. Türkiyənin vəzifəli şəxsləri ilə əlaqələrindən istifadə edərək onlar burada öz cəmiyyətlərinin statusunu möhkəmlətmiş və Yerusəlimin erməni kvartalını formalaşdırmışdılar.

Şərqi Yerusəlim, daha dəqiq desək Yerusəlimin Köhnə Şəhəri 4 kvartaldan ibarətdir: xristian, müsəlman, yəhudi və erməni kvartalları. Erməni kvartalı onların

içində ən kiçiyidir beləki, bütün şəhərin 1/6 hissəsini təşkil edir. Köhnə şəhərin cənub-qərb hissəsinindən Sion və Yaffa darvazalarından ora giriş mümkündür. Erməni kvartalı iki ayrı hissədən - Müqəddəs James Monastrının daxilində yaşayanlar və onun xaricində yaşayanlardan ibarətdir. Müqəddəs James Monastrı bütün kvartalın 2/3 hissəsini əhatə edir.

Ermənilərin bu müqəddəs torpaqlarla tanışlığı böyük Tiqranın çarlıq dövrünə təsadüf etsə də, onların bu torpaqlarda aktiv rol oynamağa başlaması xristianlığın qəbul edilməsindən sonra baş vermişdir. Yerusəlimdə ərəblərin hakimiyyəti zamanı erməni yepiskopları fəaliyyət göstərirdilər. 638-ci ildə burada erməni patriarxiyası fəaliyyətə başlayır. Bu patriarxiya bugün də Yerusəlimin erməni cəmiyyətinin həyatında böyük rol oynayır.

Erməni Patriarxlığının ərazisi Müqəddəs Ceyms kilsəsinin ərazisini və onun ətrafını əhatə edir. Bu kilsə patriarxlığın mərkəzi hesab olunur. Patriarx və İcraçı Komitə Qardaşlıq Baş Assambleyası tərəfindən seçilir. İcraçı Komitə Patriarxlığın işini idarə etmək üçün fəaliyyət göstərir.

Erməni cəmiyyətinin böyük hissəsi Köhnə şəhərdə məskunlaşıb və təqribən 2/3 hissəsi monastrın özündə yaşayır. Monastırda yaşayan ermənilər Vanketsi adını almışlar. Onlar bu patriarxiyaya simvolik icarə haqqı ödəyirlər. Ermənilər hər zaman monastr daxilində yaşamağa daha çox üstünlük vermişlər, çünki burada bir çox mədəni və sosial xidmətlər patriarxiyanın hesabına həyata keçirilirdi. Bundan əlavə, monastr divarları əhatəsində yaşamaq ermənilərə sanki təhlükəsizlik hissi bəxş edirdi. Yerusəlim ermənilərinin 20%-i monastrdan kənarda erməni kvartalında yaşayır. Onlara Kaxakatsi deyirlər (32).

Erməni kilsəsi Yerusəlimdə xüsusi statusa malikdir. O, müqəddəs torpağın xristian ocaqlarının 3 qoruyucusundan biri statusuna sahibdir. Digər ikisi isə, Yunan Ortodox və latın Roman Katolik kilsələridir. Erməni kilsəsinin Müqəddəs James kilsəsi, Anna və Kayafa evləri üzərində tək yuridiksiya hüququ vardır.

Erməni cəmiyyətinin və kilsəsinin Yerusəlimdə formalaşması ciddi çətinliklər, dini inancları və siyasi güzəştləri hesabına baş tutmuşdur. Erməniləri müqəddəs

torpağa cəlb edən başlıca məqam ermənilər tərəfindən xristianlığın rəsmi dövlət dini kimi qəbul olunması olmuşdur.

Müasir dövrdə erməni kvartalı Qədim şəhərin dörddə bir hissəsini əhatə edir. Burada təxminən 2000-dən çox insan yaşayır (16). Bunların çoxu hələ də İsrail vətandaşı deyillər. Şəhərin statusunun təyin olunması və Ərəb-İsrail münaqişəsinin həllində erməni cəmiyyəti çətin vəziyyətə düşmüdür. Belə ki, erməni patriarxiyası əsrlərdir ki, İsa Məsih kilsəsinin bir parçasına sahibdir. Bundan başqa, onlar təkcə Yerusəlimdə deyil, bütün xristian dünyasında əllərində olan müqəddəs yerlərə nəzarət hüquqları ilə güclü söz sahibi olmuşlar. İsrail dövləti erməni cəmiyyətinin buradakı artımına təsir göstərmək məqsədi ilə patriarxiyanın torpaqlarını əlindən almağa çalışır. İsrail dövləti hər fürsətdə erməni patriarxiyasına məxsus torpaqlarda tikinti və təmir işlərinin keçirilməsinə mane olur. Bu cür addımları atmaqda məqsəd erməniləri öz torpaqlarını satmağa məcbur etməkdir. Bu cür siyasətin nəticəsində Yerusəlimin yəhudi kvartalı böyüyür və buradakı yəhudilərin təhlükəsizliyi təmin olunur. İsrail rəsmiləri tez-tez pravoslav yunan və ermənilər arasında konfliktlər yaradararaq öz siyasi maraqlarını həyata keçirirlər.

Beləliklə, tədricən ermənilər və yəhudilər arasında qızışan qarşıdurma və rəqabət İsrail dövlətini ermənilərə qarşı müəyyən məhdudiyyətlər tətbiq etmək və müəyyən dikriminasiya aparmağa məcbur edir. Yuxarıda qeyd edildiyi kimi, bu vəziyyət Yerusəlimin İsrail tərəfindən işğalından sonra daha da dərinləşdi.

Belə ki, İsrail erməniləri Suriya və Livandakı həmyerliləri ilə əlaqə saxlamaq imkanından məhrum edilmişlər. Bu ölkələrə səfər qadağan edilmiş, telefon danışıqlarına nəzarət qoyulmuşdur. Ərəb dövlətlərində ailəsi və dostları olan İsrail erməniləri onlarla neytral zonada görüşmək məcburiyətindədirlər. Belə görüşlər üçün bəhanə 1999-cu ildən bəri keçirilən Pan-Erməni oyunları (ing. Pan-Armenian Games) olmuşdur. Bu oyunlar keçmiş sovet diplomati Aşot Melik-Şaxnazaryan tərəfindən təşkil edilmişdir. Bu oyunlar Ermənistan və erməni diasporu tərəfindən 2 ildən bir keçirilən idman yarışlarıdır. Məqsəd dünyada yaşayan erməniləri idman yarışı vasitəsi bir araya toplamaqdır. Yarışlarda Qarabağda yaşayan ermənilər və diaspora erməniləri fəal iştirak edir. Bu oyunlarda 30-dan çox dövlətin gənc idmançıları bir

araya gəlir. Bu oyunlar İsrail ermənilərі üçün Ermənistan, Ərəb dövlətləri və İrandan olan həmyerliləri ilə görüşmək üçün unikal vasitəsidir (16).

Əvvəlki ərslərdə olduğu kimi, hal-hazırda da yerli erməni cəmiyyətinin həyatı kilsə və xristianlığın müqəddəs yerləri ilə sıx bağlılıq təşkil edir. Yerusəlimdə yaşayan cavan ermənilər İsrail pasportuna sahibdirlər. Yaşlı nəslin nümayəndələri isə İordaniya vətandaşlığına sahibdirlər. Bundan başqa, Fələstin Muxtariyyətində də yaşayan ermənilər çoxluq təşkil edir. Onlar əsasən Vifliyem ərazisində məskunlaşıblar. İslamçıların təqiblərinə məruz qaldıqlarından Fələstinin digər şəhərlərində ermənilər demək olar ki, qalmayıblar.

İsrail ermənilərinin ilk təşkilatı İsrail erməniləri birliyi- “Ararat” 2004-cü ildə ölkənin mərkəzində yaradılmışdır. Bu təşkilatın əsas məqsədi erməni cəmiyyətinin mədəni tarixi ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi, İsrail cəmiyyətinin ayrılmaz parçası kimi ermənilər, yəhudilər və digər xalqların nümayəndələri arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi olmuşdur. Eyni zamanda, bu təşkilat erməni cəmiyyətinin erməni kilsəsi və diasporası ilə qarşılıqlı fəaliyyətdə və əlaqədə olması üçün çalışır. Bundan bir il sonra daha bir təşkilat Petax-Tikva şəhərində qeydiyyatdan keçmişdir. Bu təşkilat həmçinin “Nairi” adı ilə tanınırdı (16).

Lakin nə “Ararat”, nə də “Nairi” təşkilatı onların idarəçilərinin sözlərinə görə xaricdən maliyyə yardımı almırlar. Eyni zamanda, bu təşkilatlar rəsmi Yerəvanla da işləmirlər. Bu təşkilatın idarəçilərinin məqsədi iki xalq arasında yaxşı əlaqələr yaratmaq və körpü rolunu oynamaqdır.

İsraildə Yerusəlimdən başqa ermənilər Tel-Əviv, Petax-Tikva, Bat-Yam və Yaffa şəhərlərində də yaşayırlar. Yaffada ermənilərin məskunlaşması bizim eranın V əsrindən etibarən baş vermişdir. Buradakı ermənilər Ərəb-İsrail müharibələrində çox əziyyət çəkmişlər. 1967-ci il 6 günlük müharibə dövründə isə yüzlərlə erməni ailəsi İsraildən qaçmaq məcburiyyətində qalmışdı. Lakin, sonradan Müqəddəs Nikolay kilsəsinin yenilənməsi ilə buradakı erməni cəmiyyətinə yeni nəfəs verilmiş kimi oldu. Bundan əlavə, sovetlər birliyinin də dağılması ilə bura ermənilərin yeni axını olmuşdur (24). Erməni Apostol kilsəsinin Yerusəlimdəki patriarxiyasının

idarəçiliyində İsraildə və İordaniyada yerləşən erməni kilsələri vardır. Bu kilsənin mərkəzi Eçmiadzin monastrıdır.

İsraildə erməni cəmiyyətinin qədim dövrlərdən bəri formlaşdığı kimi, Ermənistan ərazisində də yəhudi cəmiyyəti formalaşmışdır. Ermənistanın yəhudi cəmiyyətinin 2000 ildən artıq tarixi vardır, lakin buna baxmayaraq, Ermənistan və Azərbaycanın işğal olunmuş ərazisi Dağlıq Qarabağ regionunda onların sayı 1000 nəfərə yaxın qalmışdır. Bu kiçik yəhudi cəmiyyəti illərlə erməni anti-semitizminə məruz qalmış və bugün onlar artıq əsrlərdən bəri yaşadıqları bu torpaqlarda "qonaq" olaraq qəbul olunmağa başlayıblar. Ermənilərin yəhudilərə qarşı olan bu münasibəti yəhudilərin hər hansı hərəkəti ilə bağlı yaranmamış, sırf tarixi inanclar, reginal və beynəlxalq siyasət, Türkiyə və Azərbaycan, İsrailin Türkiyə ilə əmakdaşlığı kimi faktorlardan irəli gələrək yaranmışdır.

Qafqazdan olan yəhudilərə Dağ yəhudiləri adı verilmişdir və onlar bu regionun ən qədim sakinlərindən biridirlər. Dağ yəhudilərinin bu regionda təqribi 8 əsrlik tarixi mövcuddur və onların fars dövlətindən gəldiklərinə aid mənbələr mövcuddur.Qafqazın digər bölgələrindən fərqli olaraq, Ermənistanda nisbətən az sayda yəhudi yaşamışdır. Yəhudilərin bu ərazidə qədim dövrlərdən bəri yaşamasına baxmayaraq, onlardan çoxu son illərdə bu əraziyə miqrasiya etmişdilər. Beləki, XIX əsrdə bu regiona Polşa və Fars dövlətindən köçmüş yəhudilər Yerəvanda Aşkenazi və Sefardik cəmiyyətlərini yaratmışdılar.

1917-ci ildə Bolşevik inqilabından sonra erməni millətçiləri öz müstəqilliklərini elan etdilər. Erməni və yəhudilər arasında münasibətlər bu periodda, nisbətən, yaxşı idi baxmayaraq ki, erməni millətçilərinin radikalizmi yəhudilərin daxilində qısa müddətli bir qorxuya səbəb olmuşdu. Daha sonra, 1921-ci ildə Qırmızı Ordunun Daşnakları məğlub etməsi ilə Ermənistan Sovetlər Birliyinə qatılmış və Kommunist rejimin bir parçasına çevrilmişdir. İkinci Dünya Müharibəsindən sonra Moskvanın SSRİ-nin müxtəlif bölgələrindən olan yəhudiləri Yerəvana köçürməsi ilə əlaqədar olaraq, burada yaşayan yəhudilərin sayında əsaslı artım baş verir. Müharibədən sonra yəhudilərin sayı 5 min nəfərdən çox idi. Buna baxmayaraq, 1970-1980 ci illərdə onların sayında kəskin azalma baş verirsə də, yəhudilər bu

regionun əsas icmalarından biri kimi öz varlıqlarını Ermənistanda qoruyub saxlaya bilmişdilər. Qısacası, Ermənistanın yəhudi icması həm müsəlman, həm xristian, həm də kommunist idarəçilərinin tabeçiliyində öz varlıqlarını qoruyub saxlamağı bacarmışdılar (46,10)

Ermənistanın sovetlər birliyinin üzvü olduğu dövrdə yəhudilərin sayı 6 min nəfərdən çox idi.Yəhudilərin ən böyük dalğası 1965 və 1972-ci illərdə əsasən, mühəndis və inteligent təbəqə olaraq Rusiya və Ukraynadan buraya köçmək məcburiyyətində qalmışdılar. Lakin 70-80 illərdə siyasi səbəblər, iqtisadi böhran və yəhudilərə qarşı xoş olmayan münasibət üzündən onların sayında azalma baş verir. 1991-ci ildə müstəqil Ermənistan dövləti ərazisindəki yəhudi azlığını tanıyırsa da, yəhudilər hələ də onlara görə burada ruslar, polyaklar və azərilər kimi "qonaq statusu" daşıyırdılar. Yəhudilərə qarşı olan bu rəsmi inamsızlıqdan əlavə, erməni millətçiliyi ermənilər və azlıqlar arasında siyasi ziddiyətlərə səbəb olurdu. Radikal millətçilər erməni kompaniyası başlatmaqla bəyan edirdilər ki, xarici ünsürlər ölkədən çıxarılmalırdır. Bu kompaniya ilə mərkəzi və yerli hökümət orqanları insanları öz doğma dillərində və ya rus, türk dillərində danışmağı qadağan edir, erməni dilində danışmağa məcbur edirdilər (46,11).

Ermənistan və Azərbaycan arasında hərbi konfliktin başlanması və ermənilərin Azərbaycanın qərb ərazilərinə daxil olmağa başlanması ilə onların yəhudilərə və erməni olmayanlara qarşı qorxu və inamsızlıqları ən yüksək həddinə çatdı və bəzi radikal ermənilər artıq yəhudiləri düşmənlərinin nümayəndələri kimi görməyə başlamışdır. Baxmayaraq ki, müharibə ərzində yəhudilər heç bir zaman öz ölkələrinə satqınlıq etməmişdilər. Bu cür etnik ziddiyyətlər və iqtisadi böhran üzündən onlar miqrasiya etməyə məcbur olmuş və 90-cı illərdə onların sayı kəskin azalmışdı. 2002-ci ilə aid hesablamalar onların sayını 1000 nəfərdən az olduğunu bildirir. Burada qalmış yəhudilər artıq öz dillərini unutmuş və erməni dilində danışırlar. Onlardan bəziləri şənbə məktəblərinə gedib yəhudi dilini öyrənir və buradan köçmək üçün İsrail vətandaşlığını almağa çalışırlar.

Ermənistanın yəhudi icması hər zaman dövlətə sadiqliyini qoruyub saxlamışdır. Onların çoxu qarışıq evliklikdən doğulmuşlardır. Onların hər hansı xarici dövlətlərlə

sıx əlaqə yaratmaq imkanları yoxdur. İsrail dövləti onlara az da olsa maddi yardım edir. Başqa sözlə desək, tarixi inamsızlıqdan başqa yəhudilərə qarşı antisemitizmə əsaslı bir səbəb mövcud deyil. Ermənistanda yəhudilərə qarşı bu münasibət sadəcə olaraq ermənilərin xarici siyasət fərziyələri və onların siyasi-iqtisadi uğursuzluqlarında bir qrupu günahlandırmaqda olan ehtiyacından irəli gəlmişdir. Buna görə də, antisemitizmi xarici siyasət vasitəsi kimi istifadə edənlər "yəhudi düşmən"i obrazını hədəf qoyurlar. Bu qrupun fərziyəsinə görə yəhudilərin Ermənistan dövləti və ermənilərə qarşı gizli planı mövcüddur. Onların fikrinə görə, bu plana İsrail, yəhudi lobbiləri və eyni zamanda Ermənistanın yəhudi icması da daxildir (46,13).

Mesropianın 5 avqust 1997-ci ildə Qolos Armenii adlı qəzetində dərc olunmuş məqaləsi yəhudilər və ermənilər arasında olan ziddiyəti və tarixi inamsızlığı nümayiş etdirir: " Türklərə nifrət bizim qanımızdadır. Bundan başqa, biz bulqar və yunanlara qarşı da nifrət hissi duyuruq. Yəhudilər də türklərə bənzəyir, lakin onlar ərəblərə nifrət edir. Ərəblər də öz növbəsində türkləri sevmir. Beləliklə, nifrətin həddi daha da artır. "(46,13).

Göründüyü kimi, Ermənistanın daxildə yəhudi icmasına, İsrailə və xaricdə yəhudi lobbisinə antisemitik və şübhəli münasibəti Ermənistanın müstəqillik qazanmasından sonra da davam edir. Təəccüblü olsada, azlıqlara qarşı olan bu erməni antoqonizmi onların hərəkətləri ilə bağlı olmayıb, beynəlxalq münasibətlərdə baş verən proseslərdən irəli gəlmişdir. Xüsusilə, bu proseslərə misal olaraq üç amili göstərmək olar: Baki neft proyekti, Türkiyə-İsrail strateji əməkdaşlığı və Türkiyə-Gürcüstan arasında inkişaf edən münasibətlər. Ermənistan bütün bu prosesləri İsrail və türk lobbiləri tərəfindən həyata keçirilən anti-Ermənistan layihəsinin bir hissəsi kimi qiymətləndirmişdir (46,13).

Beləliklə, yəhudilərin və ermənilərin dini və ideoloji dəyərlərinin tarixi və müasir dövrdəki müqayisəli təhlilindən aydın olur ki, bu iki xalqın həm dini, həm də ideoloji dəyərlər sahəsində rəqabəti tədricən siyasi müstəviyə keçərək, onların müstəqil dövlət yaratmalarından sonra qarşılıqlı münasibətlərinə də təsir göstərmişdir.

II Fəsil

# İSRAİL-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN GEOSİYASİ ASPEKTLƏRİ

## 2.2.İsrail-Ermənistan münasibətlərində Ermənistanın Azərbaycana təcavüzü faktoru

Ermənistan və İsrailin yerləşdikləri regionda apardıqları siyasət bir sıra vacib və oxşar xüsusiyyətlərə malikdir. Hər iki dövlət qonşu dövlətlərin ərazisini işğal edərək, öz ərazisini genişləndirmişdir. Bundan əlavə, hər iki dövlət öz böyük himayəçisinə malik idi. Bu qədər oxşar xüsusiyyətlərin olmasına baxmayaraq, İran faktoru habelə bir sıra digər amillər iki dövlətin rəqabətini gücləndirirdi. Ermənistan yaranmış şəraitdə, türk müsəlman dövlətlərinin əhatəsində, yalnız, qonşu İran vasitəsi ilə öz mövcudluğunu qoruyub saxlayırdı. İran isə 1979-cu il islam inqilabından sonra İsrailin əsas geosiyasi düşməninə çevrildiyi üçün bu üçlükdə münasibətlər qəribə və mücərrəd konfiqurasiya aldı. Ermənistan İsrail ilə münasibətlərini saxlasa da, prioritet əhəmiyyəti İrana verirdi. İsrail Ermənistanın İranla münasibətlərinə xüsusi qısqanclıqla yanaşmasa da, İrana nüvə texnologiyalarının ötürülməsinə sərt reaksiya verirdi. Eyni zamanda Ermənistan ərəb dövlətləri ilə sıx münasibətlərini inkişaf etdirərək, Fələstin münaqişəsində heç də həmişə İsraili dəstəkləmirdi. Digər tərəfdən İsrailin Azərbaycanla olan münasibətləri Ermənistan tərəfindən də birmənalı qarşılanmırdı. Ermənistan İsrailin Azərbaycana silah satması, hərbi dəstək göstərməsi və digər sahələrdə olan köməyini öz milli təhlükəsizliyinə təhdid hesab edirdi. Bu qarışıq vəziyyətdə Ermənistan, İsrail, İran, Azərbaycan və Yaxın Şərqin ərəb dövlətləri arasındakı olan münasibətlər mürəkkəb konfiqurasiyaya malikdir.

İsrailin Ermənistan və Qafqaz regionu ölkələri ilə münasibətlərində din amili heç bir önəm daşımır, siyasi maraqlar dini maraqlardan üstündür. Eyni şəkildə Azərbaycanın Yaxın Şərq regionunda yerləşən ölkələrlə, xüsusilə İsrail ilə münasibətlərində dini amillər prioritet əhəmiyyət daşımır. İsrailin Azərbaycan üçün əhəmiyyəti bir neçə aspektdən qiymətləndirilə bilər:

1.Müasir hərbi texnologiyaların əldə edilməsi baxımından;
2.Beynəlxalq lobbiləşdirmə və imic formalaşdırma baxımından;
3.İqtisadi maraqlar baxımından;

Azərbaycanın isə İsrail üçün əhəmiyyəti aşağıdakı amillərə əsaslanır:
1.İranla qarşılıqlı rəqabət şəraitində Azərbaycanın potensialından istifadə etmək;
2.Sırf iqtisadi maraqlar;
3.Yəhudi icmasının Azərbaycanda yaşaması baxımından İsrail dövləti Azərbaycana böyük maraq göstərir;

Yuxarıda qeyd etdiyimiz amillər İsrail-Ermənistan münasibətlərində, demək olar ki, təsadüf olunmur. Əksinə, rəqabət yaradan faktorlar üstünlük təşkil edir. Ermənistanın həm ABŞ çərçivəsində lobbilərin rəqabəti konteksində, həm regionda yaşayan erməni azlığına İsrailin qeyri-adekvat münasibəti baxımından habelə beynəlxalq məsələlərdə rəqabət yaradan, hətta qarşı durmaya səbəb olan yanaşmaların mövcud olması iki ölkə arasındakı münasibətlərə sərinlik gətirir. İsrail Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını tanımadığı kimi, Ermənistan da İsrailin ələ keçirdiyi Fələstin torpaqlarını tanımır. Başqa sözlə desək, hər iki dövlət bütün beynəlxalq siyasi məsələlərdə rəqabət vəziyyətindədirlər.

Sovetlər birliyinin dağılması ilə beynəlxalq münasibətlər sistemində böyük dəyişikliklər meydana gəlmişdir. Bir çox dövlət öz müstəqilliyini bərpa etmiş və siyasi proseslərdə inkişaf baş vermişdir. 1991-ci ildə öz müstəqilliyini elan etmiş Azərbaycan öz xarici siyasət xəttini qurmaq məcburiyyətində qalmışdır.Yeni müstəqillik qazandığı ilk anlardan etibarən Azərbaycan öz xarici siyasi xəttində dünyanın ən aparıcı dövlətləri və təşkilatları ilə əməkdaşlıq yolunu tutmuşdur. İlk olaraq qardaş ölkə olan Türkiyə sonra ABŞ və İran ilə diplomatik münasibətlər qurulmuşdur. Azərbaycanın İsrail ilə münasibətlərinin qurulması da bu çərçivədə baş tutmuşdur. İki dövlət iqtisadi, siyasi və stratejik münasibətlərini inkişaf etdirmişlər.

İsrail-Ermənistan münasibətləri Sovetlər birliyinin dağılması ilə Ermənistanın müstəqilliyini elan etməsindən sonra 4 aprel 1992-ci ildə qurulmuşdur. 1993-2007 illər arasında Ermənistanla əlaqələr İsrailin Gürcüstan səfirliyi vasitəsilə həyata keçirilirdi. 1996-cı ildə Tsolak Momjian Ermənistanın Yerusəlimə fəxri konsulu

olaraq təyin edilmişdir. 2010-cu ildə Şmuel Meyrom İsrailin Ermənistana səfiri təyin edilmişdir. 2012-ci ildə isə Ermənistanın Misirdəki səfiri Armen Melkonian İsrailə də səfir təyin edilmişdir (31).

Ermənistanın bir sıra dövlət və hökümət adamlarının İsrailə yüksək səviyyəli səfərləri olmuşdur. 1994-cü ilin dekabr ayında Ermənistanın xarici işlər naziri Vahan Papazianın, 1995-ci ilin fevral ayında isə Ermənsitan prezidenti Robert Koçaryanın İsrailə səfərləri olmuşdur. 1998-ci ilin oktyabr ayında Ermənistanın xarici işlər naziri Vardan Oskanian İsrailə səfər etmişdir. 2000-ci ilin yanvar ayında Ermənistanın prezidenti Robert Koçaryanın İsrailə növbəti səfəri baş tutmuş və bu səfər zamanı Ermənistan prezidenti İsrailin baş naziri Ehud Barak və digər yüksək rütbəli İsrail rəsmiləri ilə görüşlər keçirmişdir. İki tərəf münasibətlərin möhkəmləndirilməsi haqqında danışıqlar aparmış, səhiyyə və investisiyalarla bağlı razılaşmalar imzalamışlar (31).

İki ölkə arasında 19 dekabr 1994-cü ildə mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıqla bağlı razılaşma imzalanmışdır. 1998-ci ilin oktyabr ayında isə iki ölkə səhiyyədə əməkdaşlıq sahəsində razılıq əldə edir. 2000-ci il yanvarın 19-da iki ölkə arasında investsiyaların qorunması və inkişafı sahəsində habelə səhiyyə sahəsi üzrə əməkdaşlıqları nəzərdə tutan proqram layihəsinə dair sənədlər imzalanıb. Bundan başqa həmin ildə Yerəvan Dövlət Universiteti və Yerusəlimin Yəhudi Universiteti də əmakdaşlıqa imza atıblar (31). 2005-ci ilin noyabr ayında İsrailin baş Rabbisi Yona Metzger Ermənistana səfər etmiş və elan etmişdir ki, İsrailin yəhudi cəmiyyəti erməni soyqırımını tanıyır (42).

2011-ci ilin avqust ayında İsrail diplomatları Pinchas Avivinin başçılığı altında Yerəvana səfər etmişlər. Burada onlar erməni diplomatları ilə danışıqlar aparmış, iki ölkə arasındakı münasibətləri müzakirə etmişlər (31).

Daha sonra 2012-ci ilin aprel ayında Yeravanda İsrailin kənd təsərrüfatı naziri Orit Noked Ermənistan baş naziri Tiqran Sargsyan və kənd təsərrüfatı naziri Sergo Karapetian ilə görüş keçirmişdir (31).

Artıq yuxarıda qeyd etdiyimiz kimi, İsrail-Ermənistan dövlətləri yaranmamışdan öncə bu iki xalq arasında münasibətlər və əlaqələr xeyli dərəcədə

gərginləşmişdir. Milli dövlətlərin yaranmasından sonra qurulan diplomatik əlaqələr tarixi mirası daşımaqda davam etdi. Hər iki dövlət ağır geosiyasi şəraitdə öz dövlətçilik strukturlarını formalaşdırır və inkişaf etdirirlər. İsrailin ərəb dövlətləri və Fələstin ilə olan münaqişəsi, artıq, yarım əsrdən çoxdur ki, davam edirdi-Ermənistan dövləti yarandıqda. Ermənistan isə hələ Sovetlər birliyinin tərkibində olduğu zaman Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları nəticəsində başlanmış olan münaqişənin gedişində Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş və beləliklə, ağır münaqişə şəraitində öz milli dövlətçiliyini qurmağa başlamışdır.

Həm İsrail, həm də Ermənistanın münaqişə apardığı əks tərəfin müsəlman dövlətləri olması belə bir nəticə çıxarmağa əsas verirdi ki, bu iki dövlətin maraqları ümumiləşəcək və onlar vahid bir mövqedən çıxış edəcəklər. Lakin tarixi miras və bir sıra yeni geosiyasi amillər bu iki dövləti müttəfiqdən daha çox rəqibə çevirir. İsrail-Ermənistan münasibətləri arzu olunduğu kimi yüksək inkişaf templəri ilə deyil, inersiya üzrə qurulmağa başladı.

İki dövlət arasında siyasi diyaloqun təşkilində məhdudiyyətlər çoxdur. Bunun bir sıra geopolitik və ideoloji səbəbləri vardır ki, bu dövlətlərin müstəqilliklərini qurduqları andan etibarən ayrı-ayrı barrikadalarda yer almasına səbəb olmuşdur.

Beləki, yeni müstəqillik qazanmış Ermənistan dövləti ilk vaxtlardan etibarən İsrail və Qərb dövlətləri ilə diplomatik əlaqələrini qursa da, onlara həmişə inamsızlıqla yanaşmışdır. Bundan əlavə, Ermənistanın bir dövlət kimi müstəqilliyini formalaşdırdığı andan etibarən onu səciyyələndirən xüsusiyyətlərindən biri özünü təklənmiş hiss etməsi olmuşdur. Ermənistan höküməti müstəqilliyinin ilk günlərindən etibarən Qərb dövlətlərini onun problemlərinə qarşı laqeyd münasibət göstərməkdə günahlandırır. Ermənilərə görə hələ Osmanlı dövründə Qərb dövlətləri onları öz məqsədləri naminə istifadə etmiş, sonradan isə müstəqil dövlət qurmaq cəhtlərində onlara dəstək olmamış və tənha buraxmışdırlar. İkincisi, ermənilər yəhudiləri və İsrail dövlətini Qərbin təmsilçiləri olaraq qəbul etmiş və Qərb dövlətlərinə qarşı olan şübhəli münasibətlərini onlara da yansıtmışdılar. Bir çox hallarda, onlar öz uğursuzluqlarına görə yəhudiləri və İsrail dövlətini günahlandırarkən, məhz, Qərb dövlətlərini nəzərdə tuturlar. Bir çox ermənilərə görə CİA (Central İntelligence

Agency-Mərkəzi Kəşfiyyat Agentliyi), Mossad (Təhqiqat və Xüsusi Əməliyyat Orqanı), İsrail, yəhudilər və ABŞ eyni mənanı kəsb edir (46, 17).

Bundan başqa, Ermənistan hər zaman Sovetlər Birliyinin ən zəif və kiçik dövlətlərindən biri olmuşdur. Özünün zəif olması, əlverişsiz və dağlıq bir ərazidə yerləşməsi, onun müstəqilliyini qoruyub saxlamasını çətinləşdirmidir. Öz növbəsində bütün bu faktorlar isə Ermənistanın öz gücünə inamsızlığını artırmış, yəhudilər də daxil olmaqla dövlət daxilində yaşayan azlıqlara şübhəli münasibət göstərməsinə səbəb olmuşdur.

Buna görə də, 1991-ci ildə müstəqillik qazanmasından sonra Ermənistan dövləti Rusiyanın təsir dairəsi olmağa davam etmişdir. Moskvanın "müstəqil" Ermənistan üzərində iqtisadi, siyasi və hərbi təsiri böyük idi. Ermənistanın Rusiya təsirindən azad olması və özünün daxili siyasi-iqtisadi problemləri ilə baş edə bilməsi üçün qonşu dövlətlər olan Türkiyə, Azərbaycan, Gürcüstan və İranla münasibətlər qurmağa məcbur idi. Bundan əlavə, onun Qərb dövlətləri, ABŞ və Avropa Birliyindən olan iqtisadi dəstəyə ehtiyacı vardı. Beynəxalq mühit Ermənistanın xeyrinə idi. Rusiyada hökümət orqanları daxildəki iqtisadi və siyasi xaosla mübarizə aparır, Qərb dövlətləri isə yeni yaranmış keçmiş Sovet Birliyi ölkələrini Avropa siyasi sisteminə qatmaqda həvəsli idi. Türkiyə də tarixi ziddiyyətlərə baxmayaraq, Ermənistanla əməkdaşlıqa hazır idi. Türkiyə, hətta Ermənistanın müstəqiliyini tanımış ilk dövlətlərdən biri olmuşdu. Müasir düşüncəli Türkiyə ilə qarşılıqlı münasibətləri inkişaf etdirmək naminə keçmiş erməni iddialarını bir kənara qoyan Ter-Petrosyan hökümət də Ermənistan tərəfindən müsbət bir faktor idi. Lakin Qarabağ problemi Ermənistanın xarici siyasətdə hərəkət azadlığını məhdudlaşdırdı. Ermənistan açıqca Qarabağ ermənilərini Azərbaycana qarşı dəstəkləyib və Azərbaycanın 20 faiz torpaqlarını işğal etdikdə Türkiyə öz münasibətlərini Ermənistanla inkişaf etdirə bilmədi. Bununla da, Türkiyə-Ermənistan arasında diplomatik münasibətlər qurulmamış olaraq qaldı. Bunun əvəzində, Türkiyə öz münasibətlərini Gürcüstan, Azərbaycan və digər keçmiş sovet respublikaları olan dövlətlərlə qurdu və elan etdi ki, Ermənistan öz işğalçı ordularını Azərbaycan torpaqlarından çəkməyincə Ermənistanla münasibətlərini inkişaf etdirə bilməz.

Bundan daha sonra, Ermənistanda radikal Koçaryan hökümətinin qurulması ilə Rusiyanın daha çox təsir zonasına çevrilən Ermənistanın öz ərazilərini Rus hərbi qüvvələrinə açması, üstəlik, onun Qərb dövlətləri və Türkiyəyə qarşı tutduğu sərt mövqe İsrail-Ermənistan dövlətləri arasında olan uçurumu daha da dərinləşdirdi.

Bundan əlavə, İsrail-Ermənistan münasibətlərinə mənfi təsir göstərən digər faktor İsrailin Ermənistanın əzəli düşmənləri olan Türkiyə və Azərbaycanla olan yaxın münasibətləri olmuşdur. 1991-ci illərin sonlarında Türkiyə və İsrail arasında səfirlik səviyyəsində qurulan diplomatik münasibətlər tezliklə strateji müttəfiqliyə çevrildi. Yaxın Şərqdə iki Amerikan demokratiyası daşıyıcılarının müttəfiqliyi, nəinki, Ərəb dövlətlərini, eyni zamanda, Yunanıstan, Cənubi Kipr, İran və Ermənistanı təşvişə salmış və bu birliyi özlərinin təhlükəsizliyinə qorxu olaraq qəbul etməyə yol açmışdır. Radikal ermənilərə görə bu müttəfiqlik Ermənistanı hədəf almışdı. Əslində isə İsrail Fələstin problemində Suriyanı və digər Ərəb ölkələrini balanslaşdırmağı, Türkiyə isə ona qarşı hərbi əməliyyatlarda PKK terror təşkilatını dəstəkləyən Suriyaya qarşı strateji dəstək almağı məqsəd tutmuşdu. Bu amillərdən başqa da İsrail-Türkiyə müttəfiqliyi üçün səbəb çox idi. Lakin tərəflərdən heç biri nə Yunanıstanı, nə də Ermənistanı əməkdaşlıqlarında hədəf olaraq seçməmişdi (46,20).

Son zamanlar sübut olunmuşdur ki, İsrail-Ermənistan münasibətləri türk-yəhudi münasibətlərindən asılılıq təşkil edir. Beləki, 2010-cu il Mavri Mərmərə hadisəsi ilə bağlı Türkiyə-İsrail münasibətlərində baş vermiş soyuqlaşmadan sonra İsrail mətbuatında tez-tez Knessetdə qondarma erməni soyqırımının tanınması ilə bağlı xəbərlər yayınlanmışdı. Ankara ilə münasibətlərdə böhranlı vəziyyətin yaranmasına qədər erməni soyqırımının tanınması ilə bağlı məsələ parlamentdə qaldırılmırdı. Vaşinqton kimi, Tel-Əviv də bu məsələni Türkiyəyə təsir vasitəsi kimi istifadə edir.

Türkiyə-İsrail əməkdaşlığına cavab olaraq Ermənistan özünün İran ilə olan münasibətlərini inkişaf etdirmişdir. Beləki, Ermənistan, İran və Yunanıstan özlərinin alyansını yaratmış, daha sonra bu birliyə Suriya və Cənubi Kipr dövlətlərini də əlavə etmişdilər. Şübhəsizki, İsrail-Türkiyə əməkdaşlığı Ermənistan üçün böyük üzüntü olmuşdu. Bu faktor Ermənistanın qeyd edilən dövlətlərdən özünə müttəfiq axtarmasında başlıca səbəblərdən biri kimi çıxış etmişdi. Bununla əlaqədar,

Ermənistan qeyd etmişdir ki, Türkiyə-İsrail münasibətləri İsrailin Ermənistana qarşı olan münasibətini formalaşdırır və məhz, bu münasibətlərə görə İsrail ermənilərə dəstək vermir. Ermənistanın Yerusəlimdə fəxri konsulu Tsolak Momjian Ermənistanın mövqeyini rəsmi açıqlayaraq bildirmişdir:

"Mən indiki zamanda İsrailin mövqeyini anlayıram; Türkiyə, xüsusilə Suriaya görə İsrail üçün doğru müttəfiqdir. " (46,24).

İran Amerikadan sonra Ermənistanın dövlət müstəqilliyini tanıyan ikinci dövlət olmuşdur. Qarabağ münaqişəsindən sonra Türkiyə və Azərbaycan öz sərhədlərini Ermənistanla bağlamışdılar. Gürcüstanla münasibətlər isə Rusiyaya görə inkişaf etdirilə bilməmişdir. Bu, Ermənistanın iqtisadiyyatına böyük zərbə vurur. Belə gərgin bir vəziyyətdə İranla sərhədlər və oradan keçən tranzit yollar Ermənistan üçün çox önəm daşıyır. İran vasitəsilə Ermənistan digər dövlətlər və bütün dünya ilə əlaqə qura bilir. Buna görə də, Ermənistan İranla olan ikitərəfli münasibətlərdən asılılıq təşkil edir.

Bundan başqa, Ermənistan və İran beynəlxalq arenada da bir-birinin maraqlarını müdafiə edirlər. Ermənistan Amerikadan aldığı böyük miqdarda köməyə baxmayaraq, hələdə İrana sanksiyaların qoyulmasına qarşı çıxış edir. Tehran da həmçinin Amerikadakı güclü erməni lobbisindən məharətlə faydalanır. Bugün İran və Ermənistan arasında müxtəlif sahələrdə yüzlərlə razılaşmalar imzalanıb. İki ölkə arasında yaxın iqtisadi və siyasi münasibətlər mövcuddur. Əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi üçün müxtəlif səviyyəli görüşlər keçirilir.

Qoar Karapetyan qeyd edir ki, Tehranla olan münasibətlər Yerəvan və Yerusəlim arasında yaxın münasibətlərin qurulmasına imkan vermir. Ermənistanda İranla olan münasibətlərə iki tərəfli münasibət mövcuddur. Bəziləri bu münasibətə xoş baxmır, bəziləri əksinə. Onun fikrincə burada iki faktor rol oynayır. Birincisi, ermənilərin islama qarşı ənənəvi qorxu ilə yanaşmasıdır. İkinci faktor isə budur ki, ermənilər və farslar arasında ənənəvi, qarşılıqlı və xoş münasibət mövcuddur. İsraildə isə İrana qarşı olan münasibət farslarla deyil, ölkədə hakim olan idealogiya ilə bağlıdır (19).

Bütün ekspertlər bu fikirdədilər ki, bugün Ermənistanın İranla və Yerusəlimin Bakı ilə gizli münasibətləri olmasaydı, Ermənistan və İsrail yaxınlaşa bilərdilər. Bundan başqa, səfirliklərin mövcud olmaması ikitərəfli münasibətlərin inkişafına mənfi təsir göstərir. Eyni zamanda, ərazisində nə enerji resursları, nə də təbii ehtiyatlar olmayan, üstəlik, illik büdcəsi 50 dəfə İsrailinkindən aşağı olan kasıb Ermənistan Yerusəlimə ciddi bir iqtisadi əməkdaşlıq təklif edə bilməz (19).

Beləliklə, İsrailin Türkiyə ilə münasibətlərini daha da inkişaf etdirdiyi bir zamanda Ermənistan İsrailin düşmənləri olan İran, üstəlik, Suriya ilə öz siyasi və hərbi əməkdaşlığını inkişaf etdirmişdi. Nəticədə, Ermənistanın İran və Suriya ilə olan yaxın münasibətləri İsrail-Ermənistan münasibətlərini pisləşdirmiş və İsrail açıqca elan etmişdi ki, "İsrail-Ermənistan arasında soyuq münasibətlərin səbəblərindən biri də İran-Ermənistan siyasi və hərbi əməkdaşlığıdır." (46, 33)

İsrail-Ermənistan münasibətlərinin inkişafına maneçilik törədən digər geopolitik faktor isə İsrailin Amerikanın, Ermənistanın isə Rusiyanın tarixi strateji tərəfdaşları olmasıdır. Bu dövlətlərin ikitərəfli münasibətlərinin qurulmasında tək İran və Türkiyənin deyil, eyni zamanda, Amerika və Rusiyanın da maraqları toqquşur.

Bundan başqa, Ermənistan dövlətinin İsrail-Fələstin konfliktində tutduğu mövqe də münasibətlərin inkişafına maneəçilik törətmişdir. Beləki, İsrail Ermənistanın bu münaqişədə Fələstinlilərin tərəflərini verməməsindən hərzaman narahatçılıq hissi keçirmişdir. Ermənistanın Fələstinin BMT-də müşahidəçi statusunun lehinə səs verməsi onun mövqeyini bir daha sübut etmişdir (51).

İsrail-Ermənistan münasibətlərində inkişafa maneə yaradan bu geopolitik faktorlardan əlavə, ideoloji faktorlar da mövcuddur. Bu faktorlar uzun müddət iki ölkə arasında münasibətlərin yüksələn inkişafına mənfi təsir göstərmiş, iki dövlətin xarici siyasət xəttlərini bir-birindən uzaqlaşdırmışdır. Bunlardan ən əsası qondarma erməni soyqırımı məsələsidir ki, dövlət səviyyəsində Ermənistan və İsrail arasında qarşılıqlı anlaşma məsələlərində problemli məqamlardan birini təşkil edir.(bax 2.2.)

Digər ideoloji faktor, erməni və yəhudi lobbilərinin Amerikada ideoloji ziddiyyəti məsələsidir. Uzun müddət yəhudi lobbisi İsrail hökümətinin maraqlarını

müdafiə edərək ABŞ konqresində erməni soyqırımı haqqında qanunun qəbuluna mane olmuşdur. Yəhudi təşkilatlarının İsrailin siyasətinə təsiri erməni lobbisinin Yerəvanın siyasətinə təsirindən daha çoxdur. Aparıcı yəhudi təşkilatları və diasporası İsrail höküməti ilə Holokost məsələsində vahid fikrə malikdilər. Lakin belə güclü əlaqə erməni diasporası ilə Yerəvan arasında yoxdur. Məhz onların arasındakı fikir ayrılığı ermənilərin qondarma soyqırımını tanıtmaq cəhtlərini boşa çıxardır.

Cənubi Qafqaz ölkələri içində Ermənistan hər zaman İsrail ilə münasibətlərinin zəif və az perspektivli olması ilə seçilmişdir. Çünki bu ölkələrin içində İsrail prioritet diqqəti hərzaman Azərbaycana vermişdir. Bu faktor iki ölkə arasında siyasi dialoqun təşkilini hərzaman çətinləşdirmişdir.

İsrail Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olmuşdur. İki ölkə arasında münasibətlər 1992-ci ilin aprel ayında qurulmuşdur. Azərbaycan müstəqillik qazanmasından etibarən İsrail ilə hər zaman qarşılıqlı xoş və dostluq münasibətlərinə malik olmuşdur. Azərbaycan, xüsusilə, İsrail ilə yaxın münasibətlərin qurulmasına böyük diqqət vermişdir. Azərbaycanın bütün dövlət başçıları ölkələrində yəhudi millətinə qarşı heç bir antisemitik münasibətin olmamasına xüsusi diqqət ayırmışlar. İsrail də, öz növbəsində, hər zaman Azərbaycanı özünə yaxın dövlət olaraq qəbul etmişdir.

Ermənistan isə İsrail və Azərbaycan arasındakı ikitərəfli münasibətlərin yüksəlməsi ilə erməni məcmuələrində İsrail və yəhudilərə qarşı daha da artan anti-semitik çıxışları sayəsində İsrailin gözündə öz gündəliyində millətçiliyi və irqçiliyi inkişaf etdirən mono-etnik bir dövlətə çevrilmişdir. Hələ keçən əsrin 70-80 ci illərində Erməni terror təşkilatı ASALA-nın üzvləri 1972-ci il Münxen olimpiya oyunlarında İsrail deleqasiyasına hücüm edən Qara Sentyabr təşkilatı ilə Livanın Bekaa vadisində, Fələstin bazalarında çiyin-çiyinə təlimlər keçmişlər (34). Antisemitik ifadələr bugün Ermənistanda çox təkrarlanır. Holokosta aid yeganə abidə dəfələrlə dağıdılmış, lakin bunu edənlər cəzasız qalmışdır (34).

Azərbaycan Türkiyə və Misirdən sonra ikinci müsəlman ölkəsidir ki, İsrail ilə ikitərəfli strateji və iqtisadi münasibətlərini inkişaf etdirmişdir. Lakin iki dövlət arasında natamam diplomatik münasibətlər mövcuddur. Beləki, 1993-cü ilin

avqustunda İsrail öz diplomatik nümayəndəliyini Bakıda açsa da, Azərbaycan bu məsələnin iki dövlət arasında tez-tez müzakirə mövzusu olmasına baxmayaraq, analoji addımı atmaqda tələsməmişdir. Bir çoxları düşünür ki, rəsmi Bakı bu addımı atsa, İsrailin investisayalarının daha da çox hissəsini buraya cəlb edə və amerikadakı yəhudi lobbisinin daha böyük dəstəyinə nail ola bilər (18).

Eliezer Yotvat İsrailin Azərbaycana təyin etdiyi ilk səfir olmuşdur. Azərbaycanın İsraildə səfirliyinin açılmaması ilə bağlı mövqeyini Heydər Əliyev öz dövlətinin mürəkkəb geopolitik vəziyyətdə olması, İrana ərazi baxımından yaxınlığı, İslam dövlətləri təşkilatında iştirakı ilə əsaslandırmışdır (30).

Azərbaycan və İsrail dövləti arasında münasibətlərə nəzər yetirsək, görmək olar ki, Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik qazanmasından sonra İsrailin strateji və təhlükəsizlik, təhsil, iqtisadiyyat sahələri ilə uğurlu əlaqələr yaratmışdır. Azərbaycan-İsrail arasıdakı əlaqələrin tamlığı üçün, yalnız, İsraildə Azərbaycan səfirliyinin açılması məsələsi qalıb. Lakin rəsmi Bakı bu addımı atmaqda hələ tələsmir.

Tel-Əviv Azərbaycan səfirliyinin İsraildə açılması haqqında mövzunu müzakirəyə qoyursa da, regionda stabilliyi qorumaq üçün səylər göstərən Azərbaycan hökümətinin bu mövqeyinə anlayış göstərir. İsrail Azərbaycanın geosiyasi şəraitini yaxşı başa düşür. İsraildə öz nümayəndəliyini açmamaqla Azərbaycan regionda qüvvələr balansını qorumağa çalışır (43).

Buna baxmayaraq, İsrail-Azərbaycan strateji əməkdaşlığı günü gündən inkişaf edir. Azərbaycan hava yollarının İsraildə rəsmi olmayan nümayəndəliyi fəaliyyət göstərir. Bundan əlavə, Lider TV-nin İsraildə açılmış yeni bürosu Azəbaycanı orada təmsil edir. Bu, Azərbaycan televiziyası üçün ilk dəfə idi ki, öz daimi nümayəndəsini İsraildən və Orta Şərq dövlətlərindən xəbər almaq üçün oraya göndərirdi.

2004-cü ildə Bakiya səfər etmiş İsrailin deputatı Amni Koen qeyd etmişdirki, İsrail dövləti də Azərbaycanla əlaqələrinin genişləndirilməsinin marağındadır. O, bunun üçün əlindən gələni edir. İsrail də Azərbaycan kimi, terrordan əziyət çəkir. Ona görə də, onun narahatçılıqlarını başa düşür və hər zaman problemin həlli ilə bağlı Bakının ədalətli qərarını dəstəkləyir (40).

Azərbaycan-İsrail münasibətlərində yüksəlişə 2006-cı ildə iki dövlət arasındakı münasibətlərin aparılmasına Aviqdor Libermanın rəhbərliyi altında olan “Bizim evimiz İsrail” partiyası daxil edildikdə baş vermişdir. Bu partiyanın deputatlarından biri də Azərbaycanda yaşamış Yosef Şaqaldır. Elə məhz bu dönəmdə İsraildə Azİz assosiyasiyası yaradılmışdır. Bu assosiasiya bugünə qədər İsrail-Azərbaycan münasibətlərində çox önəmli rola malikdir (28).

27 avqust 2007-ci ildə isə İsraildə Azərbaycan konqresi öz fəaliyyətinə başladı. Bu konqres İsraildə Azərbaycan xalqının və dövlətinin maraqlarını təmsil etmək üçün yaradılmışdır. İsraildə Azərbaycan diplomatik missiyasının olmadığına görə bu Konqres diaspora təşkilatları ilə mədəni işlərlə məşğul olur. Bu konqres, həmçinin İsrail ilə münasibətlərdə vacib rol oynayan Azərbaycan mədəniyyət mərkəzini də yaratmışdır.

İsrail Azərbaycan ilə olan münasibətlərə böyük önəm verir. Bunun bir neçə səbəbi var: 1.Azərbaycanın şiə İranının şimal qonşusu olması; 2.Azərbaycanın müsəlman bir ölkə olaraq İsrail üçün önəmli bir müttəfiq olması; 3.Son zamanlarda Türkiyə ilə pozulan münasibətlərdə din faktorunun səbəb olmadığını göstərmək; 4.Azərbaycanın bölgədə iqtisadi cəhətdən ən güclü ölkə olması.

Bundan başqa, İsrailin Qafqazla bağlı siyasətinə təsir edən əsas faktorlardan biri də Xəzər nefti olmuşdur. Ərəb dövlətləri və İran ilə yaxşı münasibətləri olmayan İsrail Azərbaycan nefti və digər Türk dövlətləri olan Özbəkistan, Qazaxıstan, Türkmənistan dövlətlərində olan qaz ehtiyatlarını özünün enerji asılılığını azaltmaqında bir fürsət olaraq görmüşdür. Bundan başqa, İsrail dövləti hər zaman yeri yaranmış türk və müsəlman dövlətlərini beynəlxalq arenada dəstəkləmiş və onların dəstəyini digər müsəlman dövlətlərini balanslaşdırmaqda gözəl fürsət kimi qiymətləndirmişdir. Başqa sözlə, yəhudi-amerikan işbirliyi bu ərazini kommersiya maraqları üçün dəyərli görürdülər. Yəhudi-amerikan işbirliyi bu zonanı “digər Küveyt” ölkəsi olaraq qiymətləndirirdi. Bu da amerikan neft şirkətləri üçün qızıl şans idi. Bu zonadan daha böyük neft payına sahib olmaq üçün Azərbaycanla yaxın münasibətlərin qurulması vacib idi. Ermənistan kimi, heç bir təbii ehtiyatı olmayan, kiçik və izola olunmuş ölkə isə İsrail və Amerikan şirkətləri üçün heç bir əməkdaşlıq

təmin edə bilməzdi. Məhz bu faktorlara görə Amerikanın yəhudi lobbisi Azərbaycan adına böyük addım atmışdı. Onların 1992-ci ildə erməni lobbilərinin təsiri ilə ABŞ konqresinin "Azadlığa Dəstək" aktına əlavə etdiyi və Azərbaycana Amerikanın birbaşa yardımını yasaqlayan 907-ci bəndə düzəliş etmək üçün etdikləri səylər çox vacibdir. 2001-ci ildə 11 yəhudi təşkilatı elan etdi ki, onlar bu qərarla razı deyillər. Yəhudi qrupları açıqca elan etdilər ki, Azərbaycan İsrail, ABŞ və Qərb çox önəmli bir partnyordur və ABŞ tərəfindən dəstəklənməlidir. Yəhudi təşkilatları və Türkiyənin səyləri nəticəsində ABŞ konqresmeni 907-ci bəndi aradan qaldırmışdır. Bu addım Ermənistan tərəfindən özünə qarşı yəhudi-türk təxribatı kimi qəbul olunmuş və İsrailin təmsiçiləri kimi gördükləri yəhudi azlığını günahlandırmaqlarına səbəb olmuşdur (46,25).

İsrailin Azərbaycana böyük dəyər verməsinin digər bir səbəbi isə Azərbaycandakı yəhudi lobbisi faktoru olmuşdur. Yəhudilər Azərbaycanda 2 min ildən artıqdır ki, yaşayırlar. İki millət arasındakı tarixi əlaqələri və Azərbaycan-İsrail dövlətləri arasındakı inkişaf edən əlaqələri analiz edərkən Vaşinqton institutunun Yaxın Şərq üzrə ekspertləri Soner Kaqaptay və Aleksandr Murinson belə bir nəticəyə gəlmişlər ki, Azərbaycan müsəlman və yəhudilərin birgə yaşayışının ən gözəl nümunəsidir (18). Azərbaycanda yəhudi azlığına qarşı olan bu tolerant münasibət rəsmi Tel-Əvivin və beynəlxalq yəhudi təşkilatlarının nəzərindən yanına bilməzdi.

Belə hesab edilir ki, yəhudilər Azərbaycan ərazisində bizim b.e.ə. V əsrdən başlayaraq məskunlaşmağa başlamışlar. Babil çarı tərəfindən Yerusəlimdəki birinci məbədin dağıdılmasından sonra yəhudilər şimala doğru irəliləyir və indiki Azərbaycan ərazisinə yerləşirlər. Sonradan bunlardan bəziləri yenidən Yerusəlimə dönmüş, bəzi yəhudilər isə elə buradaca qalmış və dağ yəhudiləri adını almışdılar. Hazırda onlar Azərbaycan yəhudi cəmiyyətinin başında durur və öz spesifik yəhudi-tat dilində danışırlar.

Aşkenaz yəhudilər isə Azərbaycana ilk dəfə XIX əsrin əvvəlindən etibarən çar Rusiyasının işğalı ilə gəlməyə başlamışlar. 1870-ci illərdə Azərbaycanda olan neft şoku ilə onların buraya böyük axını baş verir. Bu yəhudilər əsasən, neft şəhəri olan Bakıda yerləşirlər. İkinci Dünya Müharibəsinin baş verməsi ilə Azərbaycana axın

edən Aşkenaz yəhudilərin sayı daha da artmışdır. Onlar daha çox Rusiya, Ukraina və Belarusiyadan Avropadakı antisemitizmə görə buraya axın edirdilər (21).

1980-ci illərdən etibarən, Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ müharibəsi və ölkədəki siyasi-iqtisadi vəziyyətə görə yəhudilərin Azərbaycandan kütləvi imiqrasiyası baş verir. Onlar əsasən, ABŞ, İsrail, Kanadaya imiqrasiya edirdilər. Azərbaycan İsrail və Azərbaycan dövlətləri arasındakı ticarət və iqtisadi əlaqələrin qurulmasında xidməti olan Azərbaycan əsilli İsrail vətandaşlarını ikili vətandaşlıq ilə mükafatlandırmışdır (35,16).

Məhz bu dövrlərdə Azərbaycandan İsrailə imiqrasiya edən yəhudilərin hesabına Azərbaycanın İsraildə güclü lobbisi yaranmışdır. Bu faktor iki dövlət arasındakı münasibətlərə müsbət təsir göstərir. Yerli idarəetmə bu lobbi ilə hesablaşır, İsrailin rəsmiləri isə oların keçirdiyi tədbirlərdə iştirak edir. Amerikanin güclü yəhudi lobbisidə Azərbaycan ilə strateji əməkdaşlığı dəstəkləyir. Bu da onun göstəricisidir ki, Azərbaycan və İsrail arasıdakı əlaqələr yüksək səviyyədə qurulub (25).

Bugün, Azərbaycan dövləti öz ərazisindəki yəhudi cəmiyyəti və İsrail dövləti ilə yaxşı münasibətlərə sahibdir. Azərbaycanın İsrail və ABŞ ilə olan ikitərəfli iqtisadi və diplomatik münasibətlərində yəhudi cəmiyyəti faktorunun rolu danılmazdır.

İsrail üçün Azərbaycanla münasibətlər tək siyasi cəhətdən yox, həm də iqtisadi cəhətdən böyük əhəmiyyət kəsb edir. Beləki, İsrail idxal etdiyi neftin 40%-ni Azərbaycandan alır. Qalan hissəni isə Rusiya təmin edir. Bugün İsrail üçün prioritet məsələrdən biri məhz Moskvadan olan bu enerji asılılığını azaltmaqdır.

İsrail-Azərbaycan arasındakı münasibətlərə müsbət təsir göstərən digər bir məqam 11 sentyabr hadisəsindən sonra Azərbaycanın dünya terrorizminə qarşı Amerikanın müttəfiqləri arasında yer alması olmuşdur. Bu andan etibarən, Azərbaycanın Amerika ilə yeni bir təhlükəsizlik sferasında əməkdaşlığı meydana gəlmişdi. Azərbaycan ABŞ hərbiçlərinə Əfqanıstan və İraqdakı missiyalarını yerinə yetirmək üçün hava korridoru təmin etmiş, həmçinin ABŞ-ın Kosovo və İraqdakı missiyaları zamanı koalisiyaya da qatılmışdır. Bu addımlarla Azərbaycan və İsrail

bir-birinə daha da yaxın olmuşdur, çünki İsrail ABŞ-ın Yaxın Şərqdəki əsas tərəfdaşlarından biridir (50,325).

Yəhudi əsilli yazar Maayan Jaffen Amerikanın “The Hill” qəzetində İsrail və Azərbaycan əlaqələri müsəlman-yəhudi sülhü üçün ümid qığılcımı və modelidir adlı məqalə dərc edib.

Maayen Jaffen qeyd edir ki, Azərbaycan da İsrail kimi bəzi xoşagəlməyən hallara baxmayaraq, özünü ABŞ-a yaxın ölkə hesab edir və dost münasibətlərinə üstünlük verir. Lakin son zamanlar ABŞ tərəfindən müttəfiq Azərbaycanın ünvanına bir sıra tənqidlər səsləndirilir və bu tənqidlər bəzən İrana qarşı olan tənqidlərdən də artıq olur. Məqalədə bildirilir ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqına girərək suverenliyini itirdiyi bir zamanda Azərbaycanla münasibətlərə əhəmiyyət vermək lazımdır. Azərbaycanın qadınlara ilk dəfə səs hüququ tanıyan, ilk səhiyyə naziri yəhudi olan və parlamentdə yəhudilərə yer verən bir müsəlman ölkəsi olmasına toxunan M.Jaffe ölkədə sekulyar cəmiyyət quruculuğu istiqamətində ciddi işlər görüldünüyünü qeyd edib: "Son illərdə baş verənlərdən dünyanın nəticə götürməli olduğu halda, Azərbaycanda açıq cəmiyyət yaratma səyləri tənqidə məruz qalır". Müəllif əlavə edib ki, regionda müsəlman-yəhudi barışığına nail olmaq üçün Azərbaycan-İsrail münasibətlərinə model kimi nəzər salmaq və bu ölkəni dəyərləndirmək lazımdır (1).

Bundan əlavə, Yaxın Şərqdə vəziyyətin gərgin olduğu, antisemitist çıxışların və İsrailə qarşı təhdidlərin artdığı bir zamanda müsəlman ölkəsi olan Azərbaycanın yürütdüyü siyasət region üçün ümid qığılcımıdır (1).

Hər mərhələdə öz liderlərindən uzaqgörənlik və siyasi dayanıqlıq tələb edən yəhudi və müsəlman dövlətləri arasındakı dostluğun bu nümunəsi bir daha sübut etdi ki, dini fərqlilik qarşılıqlı hörmətə və qarşılıqlı anlayışa maneə yaratmır.

İsrail və Azərbaycan arasında olan bu isti münasibətin digər bir səbəbi isə hər iki ölkənin Türkiyə və Amerika ilə olan əməkdaşlığıdır. Bu əməkdaşlıqla Azərbaycan və Türkiyə balaca, lakin güclü erməni-amerikan lobbisinə qarşı İsrail-ABŞ lobbisinin dəstəyini təmin etmək və erməni lobbisinin amerikan xarici siyasətində bu ölkələrə qarşı hər hansı hərəkətinin qarşısı almağı məqsəd etmişlər (5).

Türkiyə dövləti Azərbaycanı hər zaman beynəlxalq məsələlərdə dəstəkləmiş onun İsrail ilə münasibətlərinin inkişafında maraqlı tərəflərdən biri olmuşdur. Bundan əlavə, Türkiyə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə cavab olaraq, 1993-cü ilin aprel ayında Ermənistan ilə olan sərhədlərini bağlamışdı. Bu müharibədə Türkiyənin strateji müttəfiqi olan İsrail də Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi.

İsrailin Dağlıq Qarabağ münaqişəsində Azərbaycana verdiyi əsas dəstəyi aşağıdakı kimi sıralamaq olar:

1. Müasir texnika və texnologiyanın Azərbaycana satışı;
2. Yəhudi lobbisi vasitəsi ilə aparıcı dünya ölkələrində dəstək;
3. Terrorizmə qarşı birgə mübarizə;

Londonda ərəb dilində nəşr olunan Al-Vassat həftəlik qəzetində qeyd edilmişdi ki, Dağlıq Qarabağ müharibəsində İsrail və Türkiyə Azərbaycanı Stinger raketləri ilə təmin edirdilər (30,7).

Bu iki ölkə arasındakı münasibətlərin gələcəkdə soyuyacağını bir çox politoloqlar proqnozlaşdırsalar da, xüsusilə Qəzza sektoru ilə olan hadisədən sonra, lakin bu belə olmadı. Bununla da sübut olundu ki, İsrail-Azərbaycan münasibətləri Türkiyə ilə olan münasibətlərdən asılılıq təşkil etmir (28).

İsrail və Azərbaycan münasibətlərində hərbi əməkdaşlıq əsas yeri tutur. “Jane’s Defense weekly” 1996-cı ildə məlumat verir ki, Dağlıq Qarabağ problemini həll etmək üçün İsrail Azərbaycan hərbi qüvvələrinin modernləşdirilməsi ilə məşğul olur. Bu proqram çərçivəsində İsrailin hərbi sənayesi Azərbaycan ordusunu müasir silahlarla təmin edir (18).

26 fevral 2012-ci ildə iki dövlətin imzaladığı silahlar haqqında müqavilədə 1.6 milyard dollarlıq silahdan söhbət gedir. Bu da iki ölkənin hərbi ittifaqının gedərək artmaqda olduğunu göstərir (13).

Yəhudi lobbisi və neft siyasətindən başqa, İsrail Azərbaycanı Qafqazda İrana və Rusiyaya qarşı vacib aktor kimi görmüşdür. Azərbaycan da, eyni zamanda, İsrailə Qarabağ problemində yardımcı olacaq bir fiqur kimi baxmış, İsrailin təsiri ilə Amerikanın erməniləri durdurması üçün onlara çağırış etməsinə inanmışdır. Lakin

İsrail ermənilərə qarşı istifadə etməkdə Azərbaycanı silahla təmin etsə də, konfliktin həllində birbaşa iştirakdan hər zaman qaçmışdır.

2015-ci ildə Rafael Harpaz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İsrailin mövqeyini belə izah edir: "İsrailin Dağlıq Qarabağ münaqişəsində olan mövqeyi aydındır: Biz ATƏT-in Minsk qrupunun münaqişənin həllində göstərdiyi səyləri, eləcə də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik." (2).

İsrailin Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqe 2016-cı ilin aprelində 4 günlük müharibə zamanı daha aydın şəkildə anlaşılmışdır. Beləki, İsrail Ermənistana qarşı Azərbaycanı silanlandırsa da, konfliktdə birbaşa iştirakdan qaçmışdır. Bunun bir neçə səbəbi var.

İsrailli ekspert Armin Rozen İsrailin bu müharibədəki mövqeyini izah edərək vurğulayır ki, Azərbaycan-Ermənistan arasındakı son müharibə İsrail üçün əlverişsiz bir zamanda baş vermişdir (23).

O qeyd edir ki, İsrail Suriyada Rusiya ilə qarşı-qarşıya dayanmış vəziyyətdə idi. Sonrakı qarşılıqlı anlaşmadan sonra İsrail "Hizbullah" obyektlerinə hücum edə bildi. Lakin İsrail Suriyada Rusiya ilə anlaşma əldə edə bildisə də, Qarabağda tərəflər bir-birlərinə zidd mövqelərdə yer alıblar. Ermənistanda Rusiya hərbi bazaları yerləşir, İsrail isə Azərbaycanı müasir silahlarla təmin edir. Bu faktorlar İsraili istəmədən Rusiyaya qarşı qoymuş olur (23).

A.Rozen qeyd edir ki, baxmayaq ki, ATƏT Ermənistan və Azərbaycana silah satmağa embarqo qoymuşdu, İsrail Azərbaycanla olan əlaqələrini bu embarqodan daha üstün tutmuş və onu silahla təmin etmişdi. O, "Haaretz" qəzetinin verdiyi məlumatı əsas gətirərək, İsrailin son 4 il ərzində Azərbaycana 5 milliard dollarlıq hərbi sursat satdığını nəzərə çatdırmışdı (23).

Ekspertin sözlərinə görə bütün bunlara baxmayaraq, İsrail Qarabağ konflikti ilə bağlı məsələlərdə öz ehtiyatını əldən veməyərək konfliktin birbaşa iştirakçısı olmaqdan qaçmışdı. Məsələn, İsrail rəsmi şəkildə Ermənistanı işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməyə çağırmayıb (23).

Armin Rozenin fikrinə görə Tel-Əvivin bunu etməməsinə səbəb odur ki, belə bir çağırış diqqəti İsrailin İordan çayının qərb sahilini işğal etməsinə çəkə bilər. İsrail,

eyni zamanda, Qarabağın statusu ilə bağlı da heç bir fikir söyləməyib. Tel-Əviv hesab edir ki, tərəflər bu mövzunu öz aralarında müzakirə edib razılığa gəlməlidirlər (23).

Bundan başqa müəllifin fikrinə görə əgər "Haaretz" İsrailin Azərbaycana silah satdığını yazmasaydı, bu hərbi müttəfiqlik sirr olaraq qalacaqdı, çünki Azərbaycanla olan bu müttəfiqlik Rusiya-Ermənistan müttəfiqləri ilə diplomatik gərginliklərə səbəb olur. İsrailin konfliktə 3-cü tərəf olaraq qatılmaq istəməməsinin digər səbəbini isə müəllif belə izah edir: "İsrailin təhlükəsizliklə bağlı hələ həll olunmamış problemləri mövcuddur. Birinci növbədə bu, İran və BMT qətnaməsidir. Lakin buna baxmayaraq, İsrailin mövqeyi kifayət qədər güclüdür ki, o, öz vəziyyətində başqa oyunçuların fikrinə məhəl qoymadan Azərbaycan kimi ölkələlərlə əlaqə yarada bilsin" - ekspert qeyd edir (23).

İsrailli ekspert Ehraim Sneh İsrail Plus qəzetində dərc etdiyi məqalədə yazır ki, bu konfliktin həllində ən yaxşı nəticə İsrailin "sülh naminə torpaq" formulasında diplomatik danışıqların aparılması ilə əldə edilə bilərdi. İsrailin vasitəçiliyi ilə bu danışıqların keçirilməsi Ermənistanı işğal olunmuş torpaqlardan öz hərbi qüvvələrini çəkəcəyi təqdirdə Türkiyə ilə iqtisadi əlaqələrin bərpası və inkişaf etdirilməsi ilə həvəsləndirə bilərdi. Bu, Ermənistan üçün ən böyük iqtisadi faydalardan biridir ki, buna da öz ordularını işğal edilmiş torpaqlardan çəkən kimi nail ola bilərdi. Ermənistanın zəif iqtisadiyyatı bu razılaşmadan böyük xeyir əldə etmiş olardı. Buna görə də, Azərbaycan beynəlxalq ictimaiyyətdən bugün əldə etdiyindən daha böyük dəstəyə ehtiyac duyur (38).

O qeyd edir ki, Beynəlxalq ictimaiyyətin status-kvonu konfliktin həlli olaraq ən uygun variant kimi görməsi Azərbaycanın xeyrinə deyil. Avropanın azəri nefti və qazını istəməsinə baxmayaraq, o konfliktin Azərbaycanın xeyrinə həll edilməsində səy göstərmir. ABŞ da İraqda və Əfqanıstanda apardığı müharibədə Azərbaycanın dəstəyindən faydalansa da, konfliktin bitməsi üçün heç bir şey etmir. Qərbdə yaxşı başa düşürlər ki, Azərbaycan işğal olunmuş torpaqlarını geri qaytarmadan heç bir razılıq əldə oluna bilməz. Bundan başqa, Rusiya da konfliktin davam etməsində maraqlı olan tərəfdir. O, Ermənistan ərazisində yerləşdirdiyi hərbi gücləri ilə

konfliktin daimi mediatoru rolunda çıxış edir və hal-hazırda bu mübahisəli regionda öz sülhyaradıcı qüvvələrinin yerləşdirilməsi haqqında düşünür. Bu da ona Türkiyə sərhəddində özünün hərbi qüvvələrinin artırılması üçün əlavə imkan yaradacaq (38).

Beləliklə, beynəlxalq ictimaiyyətin susması, status-kvonun davam etməsinə səbəb olur. Bu, Azərbaycandan başqa hamı üçün münasibdir. Böyük dövlətlər regiondakı bu konfliktdən zaman-zaman öz xeyirlərinə istifadə edir. Eyni zamanda, regiondakı bu konflikt onlara buraya müdaxilə etməyə və konfliktdən təsir vasitəsi kimi istifadə etməyə imkan yaradır. Buna görə də, onlar konfliktin bitməsində maraqlı deyillər. Ermənistan-Azərbaycan sərhəddində olan bu münaqişə ocağının hələ də var olması minlərlə insanın həyatını təhlükəyə atır. Münaqişə ocağı sərhəddində yaşamağa davam edən ailələr gün ərazində, bəlkədə, 100 dəfə ermənilər tərəfindən açılan atəşə məruz qalırlar. Lakin beynəlxalq ictimaiyyət buna rəğmən halədə susmağa davam edir. Bu situasiya Qəza münaqişə xəttində olan situasiya ilə eynidir. İsrail dövləti də bunu yaxşı başa düşür.

Göründüyü kimi, İsrailin razılıq əldə etmək üçün danışıqlara çağırışı konfliktin həllində böyük bir nəticə verə bilərdi. Nəticədə, İsrail Misirlə sülh naminə Sinay yarımadasını qaytarmış olan bir dövlətdir. Bəs niyə Yerusəlim hələ də sakitdir? Niyə İsrail hökuməti bu önəmli müttəfiqinə diplomatik dəstək vermir?

Onun sakitliyinə səbəb iki konflikt arasındakı qaçılmaz oxşarlıqdır. Siyasi cəhətdən Ermənistanın mövqeyi İsrailin Qərb sahilində tutduğu mövqe ilə eynilik təşkil edir. Burada da, İsrail tərəfi status-kvonun davam etməsində təkid edən tərəfdir. İsrailin də qaçmaq istədiyi Dağlıq Qarabağ və Qərb sahilinin işğalı arasında oxşarlıqdır.

İran İslam Respublikası Azərbaycan və İsrail arasındakı münasibətlərin inkişafından çox narahatçılıq hissi keçirir. Bu səbəbdən, İlham Əliyevin 2003-cü ildə prezident seçilməsindən sonra İran Azərbaycanla olan diplomatik münasibətlərini daha da inkişaf etdirərək, onun İsrail ilə olan münasibətlərini kəsməyi məqsəd qoymuşdu. Hətta 2004-cü ildə İranın yüksək səviyyəli hərbiçiləri Bakıya səfərlər etmiş və Azərbaycanı İsrail ilə olan əməkdaşlığını kəsməyi və İsrailin hərbiçilərini qəbul etməyi dayandırmağa yönəltmişlər (45).

Lakin Azərbaycan üçün İsrail ilə əlaqələr İrandan daha vacibdir, çünki İsrail Dağlıq Qarabağ müharibəsində Azərbaycanın strateji tərəfdaşlarından və dəstəkçilərindən biridir. Dağlıq Qarabağ müharibəsi nəticəsində, Azərbaycan torpaqlarının 20 faizi erməni qoşunları tərəfindən işğal edilmişdir. Bir milyona yaxın azərbaycanlı Ermənistan və Azərbaycanın işğal olunmuş regionlarından qaçmaq məcburiyyətində qalmışdır. Bu faktlara baxmayaraq, İran Ermənistana qarşı Azərbaycanın yanında mövqe almamışdır (37).

Əksinə, İran və Rusiya bu müharibədə ənənəvi olaraq, Ermənistanı müdafiə edirdilər. Müharibə başlayanda İran Azərbaycanın çoxsaylı şiə camaatını nəzərə almayaraq, öz neytrallığını elan etmişdi. Şiə müsəlmanları tərəfindən idarə olunan İranın, vaxtilə, Cənubi Azərbaycan adlanan şimal hissəsində Azəri etnik azlığı vardır. Azərbaycanın 8 milyonluq əhalisindən fərqli olaraq, burada təqribi 25 milyon insan yaşayır (30,15).

İran düşünürdü ki, Ermənistana qarşı Azərbaycana dəstək göstərməklə XIX əsrdə Fars və Rus imperiyası tərəfindən ikiyə parçalanmış Azərbaycanın birləşməsinə səbəb ola bilər. Buna görə də, İran Ermənistanı Azərbaycana qarşı müdafiə edirdi. Hətta 1992-ci ilin aprelində İran Ermənistanı təbii qaz və kömürlə təhciz edirdi ki, bunun da nəticəsi olaraq, Ermənistan Azərbaycana qarşı təcavüzkar hərəkətlərini davam etdirə bilmişdir (48).

Ermənistan İran üçün Azərbaycanın gələcək yüksəlişinə qarşı buffer dövlət rolunu oynayır. Bundan əlavə, onların arasında ticarət, enerji və nəqliyyat sahəsində yaxın münasibətlər mövcuddur. 2007-ci ildə İran və Ermənistan arasında İrandan Ermənistanın Megri şəhərinə neft boru kəmərinin tikilməsi haqqında razılıq imzalanmışdır (44).

Yaxın Şərq üzrə Vaşinqton İnstitutu da həmçinin qeyd etmişdir ki, Azərbaycan informasiyaların mübadiləsini, onların təhlili və analizini əhatə edən təhlükəsizlik və nəzarət sahəsində gizli olaraq İsrail və Türkiyə ilə əməkdaşlıq edir. İsrail ilə əlaqələrin gizliliyinin səbəbi budur ki, İsraillə olan münasibətlər Azərbaycanın cənub qonşusu olan İranı qıcıqlandırır. Tehran bir neçə dəfə Azərbaycana bildirmişdir ki, müsəlman dünyasının düşməni olan sionist rejimlə əlaqələr yaratmaq ona böyük

problemlər aça bilər. Belə olan halda, Azərbaycanın Xarici İşlər Naziri həmçinin sərt formada cavab vermişdir ki, başqa ölkələrlə əlaqələr yaratmaq Azərbaycanın hüququdur (18).

Qeyd etmək lazımdır ki, rəsmi Tehran Ermənistanı işğalçı ölkə kimi tanımışdır və hərdəfə İslam Əməkdaşlıq Təşkilatının sessiyalarında İƏT-in digər üzvləri ilə birlikdə Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərini boşaltmağa çağırır. İranın Azərbaycandakı keçmiş səfiri Əfşər Süleymani Tehran və Yerəvan arasındakı əməkdaşlığı belə izah edir: "İndi heç bir ölkə öz əlaqələrini bir dövlətə görə başqası ilə pozmur. İranda hamı düşünürdü ki, Azərbaycan öz neft kəmərlərini İran ərazisindən keçirdəcək. Amma Bakı bunu etmədi. Bizim əlaqələrimiz Yerəvanla o halda zəifləyə bilərdi ki, Azərbaycan neft kəmərlərini İrandan keçirərdi. Bu həmçinin sizə də daha ucuz başa gələrdi" (18).

2012-ci ilin qış hadisələrindən sonra İsrail və Azərbaycan arasında hərbi yaxınlığın tempi nəzərə çarpacaq dərəcədə artmışdır. Beləki, yanvar ayında Azərbaycanda İsrailin diplomat və ictimai xadimlərinə qarşı hücumun təşkilində günahlandırılan bir qrup terrosist silahsızlaşdırılmışdır. Qrupun dəstəyi İran dövlətindən gəlirdi. Bu hadisədən sonra İran xüsusi idarə orqanları İngiltərənin "Times of London" qəzetində bir məqalə ilə tanış olurlar. Bu məqalədə Mossadın işçisi orqanın Azərbaycandakı fəaliyyətindən danışır. Onun sözlərinə görə Mossad yerli xüsusi missiya orqanları ilə İranda son zamanlar baş vermiş, demək olar ki, bütün təxribat işlərinin başında durur. Həmçinin fizik Mustafa Əhməd Roşanın ölümündə onun əli var. Bunun da nəticəsində, İran Xarici İşlər Naziri Azərbaycanı Mossada sığınacaq verməkdə və İrana qarşı təxribat işlərində İsraillə birgə iştirak etməkdə günahlandırırdı. Bunsuz da çox gərgin olan İran-Azərbaycan münasibətləri bu hadisədən sonra daha da pisləşdi. Əvəzində, Bakı və Tel-Əviv daha da yaxınlaşdı. İsrail və Azərbaycan dövlətləri hərbi sahədə danışıqları yenilədilər (27).

Azərbaycan və İran münasibətlərində yaranan gərgin vəziyyət Bakı və Tel-Əviv arasında ikitərəfli münasibətlərin inkişaf etməsinə əlverişli təsir göstərmişdir. Harvard universitetinin professoru, Siyasi Araşdırmalar Mərkəzinin prezidenti Daniel Karpentr qeyd etmişdir ki, Azərbaycan və İsrail arasında siyasi dialoqun

yaradılmasının təşəbbüskarı Amerika olmuşdur. O qeyd edir ki, bu münasibətlər bir tərəfdən Xəzər regionunda İrana qarşı siyasi balansın yaradılmasına, digər tərəfdən isə bu regionda Rusiyanin təsirinin azaldılmasına xidmət etməlidir (46.20).

Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dərin tarixi və mədəni kökləri olan İranla öz əlaqələrini pozmaq niyyətində deyil. Əksinə, Tehranla iqtisadi və siyasi əlaqələrin daha da intensivləşməsinin marağındadır. Bunu son zamanlar dövlət başçılarının artan ikitərəfli səfərləri də sübut edir. Bundan da başqa, ilbəil malların dövriyəsinin həcmi artır, beynəlxalq münasibətlər çərçivəsində uğurlu əməkdaşlıq davam edir. O ki qaldı, İsraillə münasibətlərə, bu münasibətlər İranın simasında heç bir başqa dövlətə qarşı yönləndirilməmişdir. Bundan da başqa, digər ərəb dövlətlərinin də fikirlərini nəzərə almaq lazımdır, hansılarkı Bakının İsrailə qarşı münasibətini qəbul etməyə bilərlər (18).

Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanı dəstəkləyən İsrailin mövqeyi ermənilər tərəfindən birmənalı qarşılanmır və bu, onların ikitərəfli münasibətlərinə mənfi təsir göstərir.

## 2.2 Holokost və “erməni soyqırımı” məsələsinin İsrail-Ermənistan münasibətlərinə təsiri

Erməni soyqırımı məsələsi dövlət səviyyəsində Ermənistan və İsrail arasında qarşılıqlı anlaşma məsələlərində problemli məqamlardan birini təşkil edir. Beləki, ermənilər öz qondarma soyqırımlarını İsrail dövlətinə və bütün dünyaya tanıtmaq və buna Holokost termini verərək bu hadisəyə yəhudi soyqırımı kimi önəm qazandırmağa çalışmaqdadırlar. İsrail dövləti isə ermənilərin bu soyqırım iddialarını qəbul etmir. Bir neçə dəfə parlamentdə bu məsələ müzakirə olunsa da, rəsmi tanıma ilə bağlı qanun qəbul olunmamışdır. İsraili bu addımdan çəkindirən bəzi faktorlar var: Birincisi, yəhudi milləti özundən başqa bir xalqın soyqırıma məruz qalmısını qəbul etmir və özünun istisna olduğunu iddia edir. Onlar düşünür ki, heç bir hadisə onların İkinci Dünya Müharibəsində yaşadıqları ilə müqayisə edilə bilməz. İkinci səbəb isə İsrailin Türkiyə ilə uzunmüddətli strateji və hərbi əməkdaşlığı olmuşdur. Buna görə də İsrail müsəlman dövlətində özünün Türkiyə kimi strateji əməkdaşı ilə münasibətlərini korlamaq istəmirdi. Lakin yuxarıda qeyd olunduğu kimi, İsrail-Türkiyə münasibətlərinin mavi mərmərə hadisəsindən sonra korlanması ilə İsrail Türkiyəyə qarşı təsir vasitələri kimi istifadə etdiyi Yunan və Kipr ilə dostluq münasibətlərinin qurulması, kürd terrorçularının qanundan kənar şəkildə dəstəklənməsi ilə yanaşı erməni soyqırımının mümkün olan tanınmasından da anidən söz açmışdı (46,128).

Lakin sonradan 2011-ci ildə xarici işlər naziri Dani Aylon İzrus portalına belə bir bəyanat vermişdi: “Knessetin erməni soyqırımını tanıyacağına heç bir şans yoxdur. Bu mümkün deyil. Biz tarixin mübahisəli məsələlərinə görə özümüzə icazə verə bilmərik ki, müsəlman dünyasındakı əsas əməkdaşımız olan Azərbaycanla münasibətləri korlayaq” (46,28).

Bundan sonra isə o erməni saytı Mediamaksa belə bir açıqlama verir ki, birincisi İkinci Dünya Müharibəsi dövründə ermənilərin kütləvi öldürülməsi çox həssas bir məsələdir və bizdə təqiblərdən və öldürülmələrdən əziyyət çəkən bir xalq kimi bu məsələyə qarşı həssasıq. Lakin təəssüflər olsun ki, bu məsələ artıq

siyasiləşib. Buna görə də, biz çox ehtiyatla hərəkət etməliyik. İsrail heç bir zaman erməni faciəsini danmayıb, lakin biz Türkiyə və Ermənistan arasındakı bu məsələdə tərəfdaş olmaq istəmirik (46,28).

Xarici işlər naziri Aviqdor Liberman isə 2012-ci ilin fevralında RTV kanalına verdiyi intervyuda, ilk dəfə olaraq, ictimaiyyət qarşısında Osmanlıda ermənilərin kütləvi öldürülməsini İsrail tərəfindən soyqırım kimi tanımasına qarşı çıxmışdır. O, qeyd etmişdir ki, "İsrail varlığından bəri Holokost termininin hər hansı bir başqa müharibəyə və ya faciəyə aid edilməsinə razı olmamışdır. Biz hesab edirik ki, İkinci Dünya Müharibəsi dövründə yəhudi xalqının yaşadıqları heç bir hadisə ilə müqayisə edilə bilməz. Biz digər konfliklərin Afrikada, Asiyada, balkanlarda baş vermiş vəhşicəsinə qətllərin termin vasitəsilə başqa bir Holokosta çevirmək cəhtlərini qəbul etmirik. Biz bütün faktların və tarixin bütün kədərli səhifələrinin olduğu kimi göstərilməsindən yana çıxış edirik. Biz bu məsələyə qarışmağa hazırlaşmırıq. Bu məsələ bugün tarixi hadisədən artıq siyasi mübahisəyə çevrilib. Buna görə də, belə hesab edirəm ki, İsrailə bu dəqiqə bu məsələyə qarışmaq lazım deyil" (46, 29).

İkinci faktor, Holokostın istisna hal olması. Məlumdur ki, yəhudilər Holokostu müstəsna hal kimi qiymətləndirirlər. İsrail siyasətçiləri və elm adamları qeyd edirlər ki, yəhudi soyqırımı ilə ermənilərin kütləvi halda öldürülməsini eyniləşdirmək olmaz. Çünki ermənilərin soyqırımından fərqli olaraq, Holokost yəhudilərin dövlət qurması ilə nəticələndi.

Erməni soyqırım iddialarının qəbul edilməsi baxımından, bəlkə də, ən vacib ölkə İsraildir. Çünki İsrail dünya tarixində soyqırıma məruz qaldığı ən açıq şəkildə qəbul edilmiş olan yəhudilərin ölkəsidir. Ermənilər İkinci Dünya Müharibəsi illərində yəhudilərə qarşı həyata keçirilmiş soyqırım aktının köklərinin türklərin ermənilərə etdikləri sözdə soyqırımda gizləndiyini vurğulayırlar. Onlar düşünürlər ki, yəhudilərin dəstəyini alsalar, bu, onları Türkiyə qarşısında daha da güclü edə bilər. Bundan başqa, bütün Qərb dünyasında öz gücü ilə tanınan yəhudi lobbisinin dəstəyini də bura əlavə etmək lazımdır. Məsələn, ABŞ-da yəhudi lobbisi dəstək vermiş olsa idi, yunan lobbisindən çoxdan dəstəyini qazanmış olan ermənilər istədikləri qərarları rahatca qəbul etdirə bilərdilər.

1965-ci ildən bəri ermənilərin strategiyaları, əslində, yəhudi Holokostuna qısqanclıqdan yaranmış bir siyasi xəttdir. Ermənilər öz qondarma erməni soyqırımlarını Holokostla müqayisə edərək bu məsələyə Holokost kimi faciəvi identik bir məna qazandırmağa çalışırlar. Çünki son illərdə ermənilərin yeritdiyi siyasət yəhudi Holokostu ilə erməni iddiaları arasında paralellik yaratmaq və yəhudilərin Holokosta görə yararlandıqları imkanlardan yararlanmaqdır. Ermənilərə görə XX əsrin ilk soyqırımını 1915-ci ildə türklər ermənilərə əzablar verərək həyata keçiriblər. 1915-il hadisələrini  Pre-Holokost, yəni Holokost öncəsi Holokost olaraq adlandıran ermənilərə görə Nasistlər tərəfindən yəhudilərin soyqırımı  ilə ermənilərə qarşı olunanlar arasında heç bir fərq yoxdur. Hətta türklər buna görə cəzalandırılmadığı üçün Nasistlər də bundan cürətlənmiş və yəhudiləri soyqırıma məruz qoya bilmişdilər. Bu iddiaya görə ermənilərə ən böyük dəstəyi yəhudilər verməlidir (8,517).

Holokost bütün dünya tərəfindən soyqırım aktı və böyük faciə kimi tanınmışdır. Bu soyqırımın günahkarları bəllidir. Nyurnberq tribunalının qərarı və bundan əlavə, böyük sübut və dəlillər mövcuddur (17). Ermənilər "soyqırım" ifadəsinin yanında "Holokost" terminini də istifadə edərək öz iddialarına böyük bir məna qazandırmağa çalışırlar. Ancaq bunun sayəsində Holokostun sadəcə yəhudilərə deyil, ermənilərə də edildiyi ispat edilə bilər. Bu strategiya içində ən önəmli ölkənin İsrail olduğu aydındır. Bu günə qədər yaşanmış olan ən böyük soyqırımın yəhudilərin başına gəldiyinin dünya ictimaiyyəti tərəfindən qəbul edildiyindən, soyqırım yaşamış bir millət olaraq yəhudilərin və onları təmsil edən İsrailin ermənilərə verəcəyi dəstək son dərəcə həyati idi və bəlkədə, erməni məsələsinin radikal ermənilərin arzuladığı şəkildə nəticələnməsində həll edici məqam olacaqdı. Bu səbəbdən, erməni lobbiləri, xüsusilə yəhudi və İsrail dəstəyini almağa çalışmışlar, ancaq göründüyü kimi bunda uğur əldə edə bilməmişlər.

1980-ci illərdə böyük erməni strategiyasının digər bir qolunu isə erməni cəmiyyətləri içində sanki bir "erməni sənayesi"nin qurulması təşkil edirdi. Erməni sənətçiləri, iş adamları, müəllimlər, siyasətçilər və digərləri hər kəs öz işini və bacarıqlarını erməni müharibəsi üçün istifadə etməyə məcbur olunurdu. Bu

məcburiyyət bəzən şiddət şəklində yaşanmışdısa da, təməlində sosial basqı şəklində cərayən etmişdir. Erməni müharibəsini teatr oyunlarında, kinoda, müsiqidə bir şəkildə istifadə edən sənət adamları erməni milləti tərəfindən mükafatlandırılmış, qəhraman olaraq cəmiyyətdə hörmətli bir yer tutmuşlardır (7). İsrailli ekspert Arie Qut Amerikan şərqşünası, Prinston universitetinin professoru Bernard Lyuisin 1998-ci ildə İsrailin "Haaretz" qəzetinə verdiyi müsahibəni xatırlayır: "Soyqırım hər hansı bir dini və ya etnik qrupun planlaşdırılmış şəkildə məhv edilməsidir. Mənim bildiyimə görə erməni iddialarını sübut edəcək belə bir əsaslı dəlil yoxdur....ermənilər iki qat qazanc əldə etmək istəyirlər. Bir tərəfdən, onlar özlərinin Osmanlı rejiminin despotluğuna qarşı olan mübarizəsi haqqında fəxrlə danışır, digər tərəfdən isə öz faciələrini yəhudi Holokostu ilə qarşılaşdırırlar" (26).

Qeyd etdiyimiz kimi, erməni strategiyasının önəmli istiqamətlərindən biri sözdə erməni soyqırımı ilə yəhudi soyqırımı arasında birbaşa əlaqə qurulması və bunu qəbul etməyənləri inkarçı (denier) olaraq günahlandırılması olmuşdur. Bildiyimiz kimi, inkarçı ifadəsi daha çox yəhudi soyqırımını tanımayanlar üçün istifadə edilmişdir. Qərbdə inkarçılıq böyük bir utanc hesab edilir, hətta bəzi ölkələrdə bu, qanuna əsasən, günah olaraq bildirilib. Erməni iddialarının dilə gətirildiyi hər məkanda yəhudi soyqırımı da yada salınmış və yəhudi soyqırımının əslində, erməni soyqırımından təsirləndiyi, insanlıq tarixində ən böyük soyqırımların türklər tərəfindən edildiyi tez-tez vurğulanmışdır. Bunun əksini sübut etməyə çalışan hər kəs isə inkarçılıq ilə günahlandırılmışdır.

Bütövlükdə, İsrail və dünya yəhudiləri yaxın bir zamana qədər erməni iddialarına açıqca qarşı çıxmış və gözlənən dəstəyi verməmişlər. Buna səbəb ilk olaraq İsrailin və bütün yəhudilərin İkinci Dünya Müharibəsi dövründə yaşadıqlarının xüsusiləşdirməkləri olmuşdur. Onlar iddia edirlər ki, heç bir faciə Holokost kimi ola bilməz. Bütün dünyanın yəhudilərə qarşı olduğu fikrinin ardınca, heç bir millətin bu qədər böyük bir faciə yaşamayacağını iddia edirlər. Bu səbəblə, Bosnada soyqırım yaşanarkən belə buna soyqırım deyilməsi yəhudilərdə narahatçılıq doğurmuşdur (7).

İkinci olaraq, bunu deyə bilərik ki, yəhudi soyqırımı yəhudilərə və İsrailə böyük maddi və siyasi qazanc gətirmişdir. Belə olan təqdirdə, soyqırıma məruz qalmış

xalqların sayının artması, xüsusilə də ermənilərin iddialarının qəbul edilməsi halında "tarixin ilk soyqırıma məruz qalmış ölkəsi " ünvanının ermənilərə keçməsi İsrailin və yəhudilərin maraqlarına uyğun gəlmirdi. Holokost uzun müddət yəhudilərin, bəlkədə, ən böyük qazanc mənbələrindən biri idi. Holokost sayəsində qazanılan mənəvi və siyasi gücə əlavə olaraq, İkinci Dünya Müharibəsi sonrasında Avropa və ABŞ nəzdində əldə edilən maddi yardımlar və təzminatlar sayəsində Yaxın Şərqdə İsrail dövlətini ayaqda tuta bilmək mümkün olmuşdur (8,518).

Bundan başqa, İsrail bir dövlət olaraq öz xarici siyasətində soyqırımın bir termin olaraq daha çox istifadə edilməsinə qarşıdır. Yəni İsrailə görə soyqırım anlayışı əgər başqa hadisələr üçün də istifadə olunacaqsa, daha diqqətli dəyərləndirmələr edilməlidir. Son dönəmlərdə soyqırımların sayındakı artım hər iddianın soyqırım olaraq qəbul edilməsi təhlükəsini gündəmə gətirmişdir ki, bu vəziyyət erməni iddialarında da ortaya çıxır. 1870-ci illərdən başlayan ermənilərin oyanma hərəkatı və onun nəticələri Holokostdan fərqlənir.

Beləki, ermənilər uzun müddət Osmanlı imperiyası ilə konfliktdə idilər, onlar separitizmlə məşğul olur, Osmanlı imperiyasının müharibə şəraitində olduğu qonşusu Rusiya ilə əlbir olub, Osmanlı torpaqlarında böyük Ermənistan qurmaq xəyalları ilə yaşayırdılar (3). Almaniyada yaşayan yəhudilər isə ermənilərdən fərqli olaraq heç bir zaman dövlətlərinə qarşı silahlanmamış, düşmənlə gizli təxribat işlərinə qoşulmamış, dinc əhaliyə, kəndlərə qarşı silahla hücüm etməmişlər. Nasistlər bütün Almaniyanın və işğal edilmiş torpaqların yəhudi millətinin, tamamilə, yox edilməsini qarşılarına məqsəd qoymuşdular. Lakin türklərin belə bir planı yox idi. Birinci Dünya Müharibəsi və ondan sonrakı illərdə İstanbulda Erməni Apostol Kilsəsinin Konstantinopol Patriarxiyası fəaliyyət göstərirdi. Belə bir faktı Nasist Almaniyasında təsəvvür etmək çətindir (17). Almaniyada nasistlər hakimiyyətə gələn kimi yəhudilərə qarşı bir sıra diskriminativ qərarlar qəbul etmişdilər. Təbii ki, belə bir hadisə heç vaxt Osmanlı imperiyasında baş verməmişdir. Bundan başqa, alman ordusunda yəhudi əsgərlər yox idi. Lakin osmanlı ordusunda isə erməni əsgərləri vardı. Yəhudi uşaqları üçün alman ordusu tərəfindən tədarük edilən hər hansı bir yetimlər evi də yox idi. Osmalılarda isə erməni uşaqları üçün osmanlı ordusu

tərəfindən tədarük edilmiş yetimlər evi mövcud idi. Bəli, müəyyən qədər ermənilərə qarşı Osmanlı dözümsüzlüyü mövcud idi. Lakin bunu da qeyd etməliyik ki, Osmanlı imperatorluğunda yayılmış bir irqçilik yox idi. Amma Almaniyada bu var idi (2).

Arie Qut deyir: "Avropa yəhudilərinin faciəsini 1915-ci il hadisələri ilə müqayisə etməklə onlar Hitlerin lagerlərində, sadəcə, yəhudi olduqlarına görə öldürülən altı milyon yəhudinin xatirəsinə xəyanət edirlər (3). Qondarma erməni soyqırımını Holokostla eyni tutmağa çalışanlar, niyəsə, bu faktı görməzdən gəlirlər.

Yuxarıda qeyd olunan faktları nəzərdən keçirdikdən sonra demək mümkündür ki, qondarma erməni soyqırımını Holokostla eyni tutmağa çalışmaq düzgün deyil və əsassızdır: "Biz İsraillilərə yəhudilərin Holokostu ilə əsasında erməni separatizmi və irredentizmi duran 1915-ci il hadisələrinin müqayisə olunması utanc verir" (1) - Arie Qut bildirir. O qeyd edir ki, bütün ailəsini Ukraynada itirmiş bir babanın nəvəsi olaraq İsrail siyasətinin patriarxı, 9-cu prezident Şimon Peresin sözlərini tez-tez xatırlayıram: " Yəhudi xalqının Holokostunu başqa xalqın faciəsi ilə qarşılaşdırmaq mümkünsüzdür. " (26).

İsrailin erməni məsələsinə və Ermənistana qarşı münasibətində digər önəmli təsiredici amillərdən biri kimi xarici siyasət faktoru çıxış edir. Beləki, İsrail dövləti yarandığı gündən bəri müsəlman ölkələr arasında müttəfiq axtarışı içində olmuşdur və bu baxımdan İran və Türkiyə "düşmən" ərəb dünyasını tarazılaşdırmaqda vacib faktorlar kimi çıxış ediblər. Soyuq Müharibədən sonra güclü bir türk dünyasının ortaya çıxması İsrailin ərəbləri tarazılaşdırması baxımından böyük uğur olmuşdur. İkincisi, Yaxın Şərqdə regionunda, Suriyada baş verən hadisələr ərəbləri şimalda məşğul etmək siyasətini izləyən İsrail üçün müstəsna əhəmiyyət kəsb edir. Beləki, ərəb dövlətləri Suriyadan gələn qaçqınlar, terror təhdidləri və digər çağırışlara cavab olaraq bəzi hallarda, hətta İsrailin dəstəyinə belə ehtiyac hiss edirlər. Türkiyə ilə son illərdə münasibətlərin ziqzaqvari inkişafı, müəyyən qədər, İsrailin regional səviyyədə ən güclü müttəfiqini itirməsinə gətirib çıxarsada, İraqda və Suriyadakı hadisələrə görə onun ərəb dünyasında təklənməsi mümkün olmamışdır. Suriyanın parçalanmış olması İsrailin xarici siyasət maraqlarına cavab verir. Üçüncüsü, Azərbaycan və digər bəzi Türk cümhuriyyətlərinin neft və qaz ilə zəngin olması həm İsraili, həm də Amerikalı

yəhudi iş adamlarını cəzbetməkdədir. Bundan əlavə, regional qüvvələr balansı diqqətə alındığında İsrailin Türkiyə və digər türk dövlətləri ilə birlikdə ABŞ tərəfində, Ermənistanın isə İran, Suriya və Rusiya ilə əlaqələrini inkişaf etdirdiyi göz önündədir. Ərazisində Rusiyanın hərbi qüvvələrinin yer aldığı və İran, Suriya, Yunanıstan və Kipr Yunan dövləti ilə siyasi bir ittifaqda yer alan Ermənistanın İsrailin xarici siyasəti ilə uyğunlaşmadığı aydın görünür.

Beləliklə, İsrail Türkiyə ilə müttəfiqliyinə xələl gətirməmək, yüksək sürətlə inkişaf edən türk dünyasının enerji mənbələrindən ən yüksək payı əldə etmək, türk dünyasında mövcud olan mülayim islam anlayışını ərəb dünyasına, İrana və radikal islama qarşı istifadə etmək üçün Türkiyə ilə yaxşı münasibətləri saxlayıb inkişaf etdirməyə məcburdur. Bu amillər İsrailin erməni məsələsinin də daxil olduğu digər bəzi həssas mövzularda Türkiyəni dəstəkləməsinə şərait yaradır.

Məhz bu amillərə görə İsrail Türkiyə ilə pozulan münasibətlərini bərpa etdi. İsrailin xarici islər naziri Şimon Peres 2001-ci ildə Türkiyəyə etdiyi səfərdə İsrailin mövqeyini açıqca ifadə etmişdir. O, erməni iddialarını "mənasız" olaraq dəyərləndirmiş və İsrailin erməni iddiaları ilə bağlı mövqeyini dəqiqləşdirərək demişdir: " Biz Holokost ilə erməni iddiaları arasında hər hansı bir oxşarlıq yaradılması məqsədi ilə atılan hər addımı rədd edirik. Heçnə, Holokost kimi ola bilməz. Ermənilərin yaşadıqları bir faciədir, lakin Holokost deyil...İsrail erməni məsələsi ilə bağlı hər hansı bir tarixi və ya fəlsəfi münasibət göstərməməlidir. Əgər hər hansı bir münasibət göstərəcəksək də, tarixi gerçəkləri səhv salmamaq üçün çox diqqətli olmalıyıq" (46,20). Bundan əlavə, hətta Türkiyə-İsrail münasibətlərinin korlandığı zaman İsrail parlamenti ermənipərəst deputatların və bəzi amerikalıların təsirinə rəğmən qondarma erməni soyqırımını qəbul etməmişdir.

İsrailin erməni iddiaları qarşısında tutduğu mövqeyə Azərbaycan faktoru da əhəmiyyətli təsir göstərir. Azəbaycan neftinin İsrail və Amerikan yəhudi lobbisinin maraq obyekti olması faktı İsrailin nəyə görə Ermənistanla deyil, məhz Azərbaycanla sıx əlaqələr formalaşdırdığı səbəbini anlamağa kiyafət edir. Azərbaycan neftinin beynəlxalq bazara çıxmasından sonra bu maraq daha da artmışdır. Xüsusilə, Abş yəhudi lobbisinin neft şirkətləri ilə olan yaxın əlaqəsi bu marağı gücləndirmiş və bu

sahədə İsrail və yəhudi lobbisi ilə Azərbaycan arasında möhkəm bir bağ olduğu görünüşü ortaya çıxmışdır. Xüsusilə, Amerikan konqresində Azərbaycana Amerikan yardımlarına qadağa qoyan 907 saylı maddənin dəyişdirilməsində yəhudi lobbisinin oynadığı rol bu görünüşü daha da qüvvətləndirmişdir. İsrail və yəhudi lobbisi Baki-Tiflis–Ceyhan neft boru xətti proyektinin həyata keçirilməsində də böyük rol oynamışdır. Ermənistana görə bu bağın arxasında Türkiyə dayanır. Türkiyə hər fürsətdə İsrail ilə olan ortaqlığına Azərbaycan və Gürcüstanı da qataraq, Ermənistana qarşı bir blok qurmaq məqsədi güdür. Lakin hadisələrin real inkişafı göstərdi ki, Azərbaycanın İsraillə münasibətləri müstəqil dinamikaya malikdir və bu münasibətlər Türkiyədən asılı deyil.

İsrailin erməni iddialarını dəstəkləməməsinin digər bir səbəbi isə bu iddiaların əsassız olmasına inanmasıdır. Yəhudi Holokostu ilə erməni hadisələrini qarşılaşdıran bir çox yəhudi də bu nəticəyə varmışdır. Beləki, yəhudi Holokostu incələndiyi zaman görmək mümkündür ki, bu soyqırımda ən vacib faktor əsrlərdən bəri sürmüş olan yəhudi düşmənçiliyidir. Digər bir ifadə ilə desək, Almanlar yüz illərdir yəhudi düşmənçiliyini içlərində yaşatmış və nifrətlərini uyğun bir məqamda soyqırımla ifadə etmişlər. Lakin erməni məsələsi araşdırıldığında yüz illərlə erməni siyasi liderlərinin İstanbulda Osmanlı idarəçiliyində yaxından iştirak etmələrinin şahidi oluruq. Bugünə qədər on minlərlə erməni Anadoluda sakit və firavan yaşamalarına davam etmişlərdir.

Buna baxmayaraq, Türkiyə tərəfi erməni tərəfinə bir neçə dəfə Osmanlı imperiyasındakı 1915-ci il hadisəsi ilə bağlı birgə araşdırma aparmağı da təklif etmişdi. Hələ 2005-ci ildə Rəcəb Tayyib Erdoğan birgə türk-erməni komissiyasını təşkil etməyi təklif etmişdi (26). Bu Türkiyə tərəfindən çox gözəl və ədalətli addım idi. Lakin erməni tərəfi Türkiyənin və Avropa parlamentinin bu çağırışına etiraz etmişdir. Bu da bir daha onu sübut edir ki, Ermənistan və onun idarəçiləri Türkiyə ilə tarixi kompromisə getməyə hazir deyillər və bu hadisəni dünya ictimaiyyətinin yaddaşına soyqırım olaraq yeridilməsinə çalışırlar.

Yəhudilərin erməni iddialarına böyük ölçüdə soyuq baxmasının bir digər səbəbi iki xalq arasındakı tarixi çəkişmədir. Tarix boyunca yəhudilər və ermənilər arasında böyük bir dostluğun olmasını söyləmək imkansızdır. Bir çox xristian cəmiyyətlərdə

olduğu kimi, antisemitizm ermənilərdə də güclüdür. Osmanlı dövründə yəhudilərin ən böyük düşmənləri yunanlar və ermənilər olmuşdur. Ermənilər və yəhudilər hər zaman rəqabət içində olmuş, zaman-zaman bu rəqabət şiddətli davalara, hətta ölüm hallarına belə səbəb olmuşdur.

İkinci Dünya Müharibəsində yəhudilərə qarşı edilmiş soyqırımda Nasistlərlə ermənilərin birgə fəaliyyətlərindən belə məlumatlar verilir (33). Təbii olaraq, bütün bu faktorlar yəhudilərin və İsrailin erməni siyasətini təsirləndirən ünsürlərdir. Ermənilər arasında yəhudi düşmənliyi o qədər yayılmış bir hissdir ki, bugün belə bir çox erməni 1915-ci il hadisələrinin planlayıcısının yəhudilər olduğunu düşünürlər (36). Müasir Ermənistanda İsrailə və yəhudilərə düşmənçilik hələ də mövcuddur. Buna nümunə olaraq, Yerəvanda Holokost qurbanlarına aid yeganə abidənin dağıdılmasını göstərmək olar. Erməni cəmiyyətində antisemitizmin güclənməsinə təsir edən digər bir faktor isə budur ki, onlar Holokosta qondarma erməni soyqırımının rəqibi kimi baxırlar. Ermənilər belə hesab edirlər ki, yəhudilər ermənilərə əsrlər boyu qoyduqları məqsədlərinə çatmağa mane olurlar. Arie Qut bildirmişdir ki, Yerəvanın yazıçılar evində Roman Episkopyanın "Milli sistem" kitabının təqdimatı keçirilirsə, İsrail Knesseti bu qondarma erməni soyqırımını necə tanıya bilər?! Bu kitab yəhudilərə qarşı antisemitik və şovinist ruhla yazılmış, yəhudi xalqına təhqir olan bir kitabdır. Bu kitabda yazıçı yəhudilərin Holokostunu əfsanə adlandırır (26).

Ümumiyyətlə, yəhudilər və ermənilər tarix boyunca bir-birlərinə çox rastlaşmış olmamışdılarsa da, rastlaşdıqları dönəmlərdə də çox da gözəl münasibətlər qura bilməmişdilər. Bunda ən vacib amil daha öncə də vurğuladığımız kimi, erməni dini inanclarında yəhudilərə qarşı olan dözümsüzluk olmuşdur. Bunu Osmanlı hakimiyyəti zamanlarında, iki millətin birgə yaşadığı dönəmlərdə baş verən bir çox hadisə sübut etmişdir. Bir çox yəhudi erməni və yunan intriqalarının nəticəsində həyatını və ya bütün var-dövlətini itirmişdir. Düşmənçilik düşmənçilik yaratmış və erməni-yunan müttəfiqliyi qarşısında Osmanlı yəhudiləri türk və digər müsəlman təbəələrə daha çox yaxınlaşmışdırlar. Bunun da nəticəsində, ermənilər yəhudiləri "türklərin müttəfiqi" olmaqla günahlandırmış, hətta bəzi ermənilər İttihad və Tərəqqi

komitəsinin ermənilərə qarşı yönləndirənlərin yəhudilər və massonlar olduğunu belə iddia edə bilmişdilər. Tələt paşa və digər İttihad Tərəqqi idarəçilərinin yəhudi olması iddialarına əlavə olaraq, hətta Atatürkün də yəhudi ola biləcəyi iddiaları belə erməni soyqırım lobbiçilərinin dilinə gətirilir (36). Bu da iki xalq arasındakı tarixi dözümsüzlüyün nə qədər güclü olduğunun bariz nümunəsidir.

İsrailin bu məsələ ilə bağlı mövqeyi 1980-ci illərə qədər birmənalı olaraq qalırdı. Onun mövqeyini göstərən ilk örnək 1978-ci ildə ortaya çıxmışdır. İsrailin İba kanalı bu tarixdə erməni əsilli bir rejissora Qüdsün erməni məhəlləsi haqqında bir film çəktirmişdir. Ancaq film hazır olanda filmdə Qüdsdən çox 1915-ci il Müvəqqəti Köçürülməsinin mövzu edildiyi və siyasi iddiaların təkrarlandığı görülmüşdür. Rejissor Michael Arlen filmdə türkləri çox ağır bir dillə günahlandıraraq, siyasi bir propaqanda filmi ortaya çıxarmışdır. Təbii olaraq, filmin göstərilməsinə müxtəlif çevrələr şiddətlə qarşı çıxmış və İba filmin göstərilməməsinə qərar vermişdir. Bu qərarın alınmasında İsrail höküməti və İba kanalının mövqeyi qədər Türkiyə yəhudilərinin və Türkiyədən köçmüş İsraildə yaşayan yəhudilərin də böyük rolu olmuşdur. Hətta türk hökümətindən çox bu iki qrupun basqısı altında bu qərar alınmışdır (7).

Başqa bir nümunə olaraq, 1982-ci ildə bir qrup erməninin Tel-Əvivdə keçirilən bir simfoziyanı özlərinə hədəf seçməsi zamanı yaşayan hadisəni göstərmək olar. Simfoziyanın mövzusu Holokost və soyqırım məsələləri idi. Bu simfoziyaya əvvəldən hazırlaşan erməni tərəfi İsaildə qurulan bir iclasda soyqırım iddialarını qeydiyyatdan keçirtmək və beləcə, İsraillilərin örtülü də olsa dəstəyini almaq istəmişlərdi. Ancaq İsrail Xarici İşlər Nazirliyi bu müraciətlərin böyük bir qismini rədd etmişdir. Ermənilər bunun üzərinə İsrail hökümətini “akademik azadlığı” əngəlləməkdə günahlandıraraq, böyük bir kampaniya formalaşdırmağa çalışmışdılar (52).

Bu nümunələr İsrailin 1990-ci illərə qədər erməni iddialarına qarşı münasibətini aydın şəkildə ifadə edir. Bu nümunələrin tərsi olan bəzi nümunələr də mövcuddur. Xüsusilə, bəzi liberal yəhudi dərnəkləri və bəzi insanlar erməni iddialarını dəstəkləyən açıqlamalar da etmişdilər. Ancaq bunu söyləməliyik ki, İsrail

bir dövlət olaraq erməni iddialarının dəstəkləməməyə böyük bir diqqət edir. İsrail rəsmi olaraq və açıqdan ermənilərin yəhudilərin vəziyyəti ilə qurmaq istədikləri bənzərlikləri rədd etmişdir.

Son dövrlərdə ermənilərin yəhudi Holokostu ilə 1915-ci il hadisələri arasında bənzərliklər qurma yönündə davranışlarıınn ən önəmli nümunəsi olaraq 2001-ci ildə Londonda təşkil edilmiş Holokostu Anma günü (Holocaust Memorial Day) nümunə kimi göstərilə bilər. İngiltərə tarixində ilk dəfə olaraq təşkil edilən bu tədbirin məqsədi Nasistlərin hərəkətlərini yeni nəsillərə xatırladaraq, keçmişdən dərslər çıxarmaq və gələcəkdə belə səhflərin təkrarlanmasını əngəlləyə bilməkdi. İkinci Dünya Müharibəsi və sonrasında meydana gələn soyqırım və qətllərin anıldığı tədbirin mərkəzində, şübhəsiz, yəhudilər dururdu. Ancaq ermənilər anma günündən aylar öncə başlatmış olduqları kompaniyalar ilə bu tədbirə onların da daxil edilməli olduqlarını, ermənilərin də soyqırıma məruz qaldıqlarını, hətta yəhudi soyqırımının sözdə erməni soyqırımına hər hansi bir münasibət bildirilmədiyi üçün baş verdiyini iddia etməyə başladılar. Bu cəhdlər tədbirin İkinci Dünya Müharibəsi və sonrasını əhatə etdiyini əsas gətirilərək təşkilatçılar tərəfindən rədd edilmişdi. İki tərəf arasında qalmaq istəməyən İngiltərə hökuməti orta bir yol tapıb, anma gününə İngiltərədəki ermənilərin əsaslarının "qonaq" statusunda çağırdısa da, tədbirə 1915-ci il hadisələrini yaşadıqlarını iddia edən bir neçə ermənin də qatılması Türkiyənin böyük qəzəbinə səbəb olmuşdur. Ancaq bu hadisələr səbəbi ilə açıqlamalar gətirən İngiltərə tərəfi 1915-ci il hadisələrinin bir soyqırım ola bilməyəcəyini açıqca elan etmişdilər. Yəhudilər onlar üçün təşkil edilmiş anma gününə ermənilərin də daxil olma istəyini xoş qarşılamamışdır. İngiltərə və dünya yəhudi liderləri də Holokostun, sadəcə, yəhudilərə edildiyini bildirərək, başqa hər cür cəhtin keçmişə hörmətsizlik ola biləcəyini bildirmişdilər.

İsrail parlamentində erməni iddialarına inanan tərəflər də vardır ki, bunlar da 1990-cı illərdə ön plana çıxmış və Holokostun təkliyi məsələsini ciddi bir şəkildə şübhə altına almışlar. Onlara görə ən böyük soyqırmı yaşamış bir millət olaraq, digər soyqırımları ilk tanıma vəzifəsi də İsrailin üzərinə düşür. Daha çox liberal olaraq adlandırılan bu yəhudilər ermənilərin də bu sahədə dəyərləndirilməsinin zəruriliyi ilə

çıxış edirlər. Lakin bu görüşlər İsrailin rəsmi göruşlərini dəyişdirməyə müvəffəq olmamışdır.

Ermənilər dəstəkləyən önəmli şəxsiyyətlərdən biri Knessetdə baş spiker vəzifəsində çalışdığı zaman Reuven Rivlin olmuşdur. O, əvvəllər öz ermənipərəsət görüşləri ilə tanınsa da, prezident vəzifəsinə keçdikdən sonra 2010-cu ildə bu məsələ ilə bağlı qərarın qəbul edilməsinə etiraz etmişdir. Arie Qut bildirir ki, Reuven Rivlin bu qərara etiraz etməklə 2010-cu ildən bəri gərginlik içində olan Türkiyə ilə münasibətlərin daha da pozulmasına yol verməmək məqsədi güdmüşdur. Prezident gözəl başa düşürdü ki, qondarma erməni soyqırımının Knesetdə tanınması Azərbaycanla olan münasibətlərə də xələl gətirər (26).

Arada Nira Al-Monitor qəzetindəki məqaləsində yazır ki, İsrail Türkiyə ilə münasibətlərinin soyuqlaşmasına baxmayaraq, Knessetdə qondarma erməni soyqırımı ilə bağlı qərarın qəbul edilməsinə tələsmir. Bu, ilk növbədə Azərbaycanla olan münasibətlərin pozulmaması üçündür. Türkiyə ilə münasibətlərdə soyuqlaşma baş verən kimi, erməni lobbisinin 1915-ci il hadisələri ilə çağırışları yenidən yüksəlməyə başladı. O qeyd edir ki, İsrail Azərbaycanla olan strateji partnorluğuna böyük önəm verir. İsrail Azərbaycandan 40 faiz neftini alır, Azərbaycana isə silah və müdafiə sistemləri yollayır. Bu ölkəyə daim İsrailin yüksək səviyyəli dövlət adamları səfərlər edir. Azərbaycanın İranla sərhədddi 611 km təşkil edir. İranın Ermənistanla olan sərhədi isə 35 km təşkil edir. Əgər bu göstəricini münasibətlərin vacib kriteriyası kimi götürsək, onda anlayırıq ki, Ermənistan bizə daha az lazımdır. Bundan əlavə, Ermənistan İranın ənənəvi müttəfiqidir ki, onu da İsrailin dostu adlandırmaq çox çətin olardı (20).

Nəticə olaraq qeyd etmək olar ki, ermənilər öz qondarma “erməni soyqırım”larını Holokostla müqayisə edərək bu məsələyə Holokost kimi faciəvi identik bir məna qazandırmağa çalışırlar. Lakin İsrailin bu istiqamətdə mövqeyi bəllidir. Ölkə rəhbərliyi gözəl başa düşür ki, qondarma “erməni soyqırımı”nın Knesetdə tanınması Azərbaycanla olan münasibətlərə də xələl gətirə bilər.

# NƏTİCƏ

Yəhudilərin və ermənilərin bir xalq kimi tarixi təkamülünü araşdıraraq belə bir nəticəyə gəlmək olar ki, bu xalqların yaranması və ilkin inkişafı fərqli coğrafiyalarda və fərqli tarixi şəraitlərdə baş vermiş və tarixin müəyyən mərhələsində onların qarşılıqlı əlaqələri və qaynayıb qarışması reallaşmışdır.

İlk vaxtlar yalnız geosiyasi səbəblərdən əmələ gələn bu tarixi yaxınlıq tədricən iki xalq arasında qarşılıqlı rəqabətə, ziddiyyətlərə və hətta bəzi məqamlarda nifrətə doğru təkamül etmişdir. Xüsusilə, Ərəb xilafəti dövründə, Xaçlı yürüşləri zamanı, Osmanlı hakimiyyəti illərində, habelə Qərb müstəmləkəçiliyi dövründə yəhudilər və ermənilər arasında münasibətlər zaman-zaman kəskin xarakter almış və ciddi rəqabətə çevrilmişdir. Ermənilər davamlı olaraq dini səbəblər, şəxsi və etnik maraqlar üzündən yəhudiləri təqiblərə məruz qoymuşdular. Bu hücumlar labüd olaraq kəskin gərginliyə səbəb olur və ermənilərlə yəhudilər arasında qarşılıqlı nifrəti gücləndirirdi. Bunun nəticəsində yəhudilər ermənilərə qarşı müxtəlif etnik qruplarla əməkdaşlıq edirdilər. Bütün bunlar İsrail və Ermənistan dövlətləri yaranmamışdan öncə iki xalq arasında kəskin rəqabətin əsasını qoymuş və bu rəqabət onların milli dövlətləri yaranan zaman miras olaraq müasir dövrə də ötürülmüşdür.

Bundan başqa, iki cəmiyyət arasında münasibətlərin dini-ideoloji aspektləri də önəmli faktordur. Belə ki, yəhudilərin və ermənilərin dini və ideoloji dəyərlərinin ənənəvi tarixi və müasir dövrdəki müqayisəli təhlilindən aydın olur ki, bu iki xalqın həm dini, həm də ideoloji dəyərlər sahəsində rəqabəti tədricən siyasi müstəviyə keçmiş, hər ikisi müstəqil dövlət olduqdan sonra qarşılıqlı münasibətlərinə də təsir göstərmişdir.

İsrail-Ermənistan münasibətlərində Holokost və qondarma "erməni soyqırımı" məsələsi də önəmli rol oynayır. Bu məsələ müasir dövrdə iki ölkə arasında siyasi dialoqun təşkilində əsas maneə yaradan amildir. Belə ki, ermənilər öz qondarma "erməni soyqırım"larını Holokostla müqayisə edərək bu məsələyə Holokost kimi faciəvi identik bir məna qazandırmağa çalışırlar. Onlar öz qondarma "erməni

soyqırımı" iddialarının İsrail tərəfindən tanınmasına böyük önəm verirlər. Çünki İsrail dünya tarixində soyqırıma məruz qaldığı ən açıq şəkildə qəbul edilmiş olan yəhudilərin ölkəsidir. Bir neçə dəfə Knessetdə qondarma erməni soyqırımının tanınması ilə bağlı məsələ müzakirəyə çıxmışsa da, ermənilərin xeyrinə qərar qəbul olunmamışdır. İsrailin bu istiqamətdə mövqeyi bəllidir. Ölkə rəhbərliyi gözəl başa düşür ki, qondarma "erməni soyqırımı"nın Knessetdə tanınması Azərbaycanla olan münasibətlərə də xələl gətirə bilər.

Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanı dəstəkləyən İsrailin mövqeyi ermənilər tərəfindən birmənalı qarşılanmır və bu da onların ikitərəfli münasibətlərinə mənfi təsir göstərir. Ermənistan siyasi və iqtisadi cəhətdən İsraili müttəfiq kimi qane etmədiyindən İsrail öz xarici siyasətində prioritet istiqaməti Azərbaycana verir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. İsrail-Azərbaycan əlaqələri müsəlman-yəhudi sülhü üçün ümid qığılcımı və modelidir. The Hill qəzeti // http://www.xalqqazeti.com/az/news/news/50209

2. İsraildən Qarabağ açıqlaması // http://metbuat.az/news/101219/israilden-qarabag-aciqlamasi.html

3. Məmmədli Atamoğlu. Ermənilərin Gerçək Tarixi // http://turuz.com/book/title/ermenilerin-gerchek-tarixi-atamoghlu-memmedli-urmu-turuz-2014

4. Emin Arif. Ermenilerin Kimliği ve Büyük Ermenistan efsanesi (Rus ve Ermeni kaynaklarina göre) // http://dergiler.ankara.edu.tr/dergiler/19/19/33.pdf

5. Gafarlı Orhan, Yusuf Çınar, Çağatay Balcı. Kafkasyada İran ve İsrail çekişmesi, Güvenlik sorunları// http://www.academia.edu/2252202/Kafkasya_da_%C4%B0ran__%C4%B0srail_%C3%A7eki%C5%9Fmesi_ve_G%C3%BCvenlik_Sorunlar%C4%B1

6. Memiş Ekrem. Ermenilerin kökeni ve Geçmişten Günümüze Türk-Ermeni ilişkileri // http://www.aku.edu.tr/aku/dosyayonetimi/sosyalbilens/dergi/vii1/ememis.pdf

7. Laçıner Sedat. Türkler ve Ermeniler: Bir uluslararası İlişkiler Çalışması // https://books.google.az/books?id=FkUcbnj6aNAC&pg=PA66&dq=ermeni+ve+yahudi+soyk%C4%B1r%C4%B1m%C4%B1&hl=ru&sa=X&ved=0ahUKEwiVJTU7_fPAhXMBBoKHQZ4AkIQ6AEIGTAA#v=onepage&q=ermeni%20ve%20yahudi%20soyk%C4%B1r%C4%B1m%C4%B1&f=false

8. Laçıner Sedat. Ermeni Sorunu, Diaspora ve Türk Dış Politikası, 2008 // https://books.google.az/books?id=gqUcV87-KvYC&pg=PA489&dq=ermeni+iddialari+ve+israil&hl=ru&sa=X&ved=0ahUKEwjZ1czGpbLQAhWCXBQKHenzClgQ6AEIGDAA#v=onepage&q=ermeni%20iddialari%20ve%20israil&f=false

9. Musevilik // http://dunyadinleri.com/musevilik.html

10. Musevilikde Tefilin Objesi ve anlamı // http://www.dunyadinleri.com/tr-TR/dunya-dinleri/yahudi-dini-objeleri/oku_musevilikte-tefilin-tefillin-objesi-ve-anlami

11. Yahudi erkeklerin dua Salı: Tallit // http://www.dunyadinleri.com/tr-TR/dunya-dinleri/yahudi-dini-objeleri/oku_yahudi-erkeklerin-dua-sali-tallit

12. Yedi Kollu Samdan (Menora)Nedir? Neyi Simgeler? // http://www.dunyadinleri.com/tr-TR/dunya-dinleri/yahudi-kavram-ve-sembolleri/oku_yedi-kollu-samdan-menora-nedir-neyi-simgeler

13. Yusuf Çınar. Kafkasyada İran-İsrail çekişmesi ve Güvenlik sorunları // http://www.academia.edu/2252202/Kafkasya_da_%C4%B0ran__%C4%B0srail_%C3%A7eki%C5%9Fmesi_ve_G%C3%BCvenlik_Sorunlar%C4%B1

14. Арье Гут. США-Азербайджан-Израиль: кто мешает стратегическому «треугольнику?»//http://www.forumdaily.com/ssha-azerbajdzhan-izrail-ktomeshaet-strategicheskomu-treugolniku/

15. Арье Гут. О зверствах армян против евреев и азербайджанцев // http://www.vzglyad.az/news.php?id=41312#.VgPE2d_tmko

16. Влияние армянской общины на статус Иерусалима // http://sim1vol-veri.ru/xp/vliyanie-armyanskoie-obshini-na-status-ierusalima.html

17. Гаджизаде Али. Сравнение так называемого “геноцида армян” с Холокостом // http://minval.az/news/123575800

18. Гусейнов Рашад. Азербайджан-Израиль: Основные тенденции развития двусторонних отношений // http://cyberleninka.ru/article/n/azerbaydzhan-izrail-osnovnye-tendentsii-razvitiya-dvustoronnih-otnosheniy

19. Гольденштейн Александр. Армения и Израиль: порознь поневоле между Ираном и Азербайджаном // http://ia-centr.ru/expert/7093/

20. Израиль никогда не признает геноцид армян из-за Азербайджана. Аль-Монитор // http://news.day.az/politics/573522.html

21. История евреев на Кавказе. Еврейская Энциклопедия // http://toldot.ru/tora/articles/articles_1931.html

22.Как евреи стали армянами// http://www.vitki.info/%D0%9A%D0%90%D0%9A%20%D0%95%D0%92%D0%A0%D0%95%D0%98%20%D0%A1%D0%A2%D0%90%D0%9B%D0%98%20%D0%90%D0%A0%D0%9C%D0%AF%D0%9D%D0%90%D0%9C%D0%98.html

23. Как Израиль поддержал Азербайджан во время четырехдневной войны в Карабахе // http://haqqin.az/news/69439
24. Мазманян Анна. Армяне Тель-Авива // http://barev.today/news/telaviv
25. Откроет ли Азербайджан посольство в Израиле? // http://haqqin.az/news/43592
26. О стратегических интересах Израиля и потаканиях армянской диаспоре // http://www.1news.az/authors/oped/20141208120321874.html
27. Приймак Артур. Против кого Израиль вооружает Азербаиджан? // http://inosmi.ru/caucasus/20120229/187193723.html
28. Спивак Лев. Азербайджан-Израиль: дружба, проверенная историей // http://news.day.az/politics/601203.html
29. Тер-Саакян Карине. Ошеров Михаил: На отношения Армении и Израиля влияет то, что Израиль - исторический союзник США, а Армения – исторический союзник России//http://www.Panarmenian.net/rus/interviews /125442/
30. Abilov Shamkhal. The Azerbaijan-İsrael relations: A Non-Diplomatic, But Strategic Partnership // http://www.acarindex.com/dosyalar/makale/acarindex-1423910554.pdf
31.Armenia-İsrael relations//https://en.wikipedia.org/wiki/Armenia%E2%80%93Israel_relations
32. Armenians in the Holy land. The Armenian Quarter // http://www.jewishvirtuallibrary.org/jsource/Society_&_Culture/geo/armenianq.html
33. Ataöv Turkkaya. Hitler and the Armenian Question // http://vho.org/aaargh/fran/livres7/HitlerArmenien.pdf
34. Azerbaijan, not Armenia, is İsrael’s true ally. Haaretz // http://en.trend.az/azerbaijan/karabakh/2327842.html
35. Azebaijan: The Status of Armenians, Russians, Jews and other Minorities. INS Resource Information Center//http://www.uscis.gov/files/nativedocuments/azerba93.pdf

36. Christopher Jon Bjerknes. The Jewish Genocide of Armenian Christians // http://www.jrbooksonline.com/pdf_books/jewishgenocide.pdf
37. Clare Doyle. Genocide Debate Complicates Search for Karabakh Peace // http://www.eurasianet.org/departments/insight/articles/eav030602a.html
38. Ephraim Sneh. Why Israel is staying silent on Azerbaijan-Armenia conflict // http://www.al-monitor.com/pulse/originals/2016/04/israel-keeps-silent-ally-azerbaijan-conflict-armenia.html
39. Edward Henry Palmer, Society for Promoting Christian Knowledge. A History of the Jewish nation: From the earliest times to the present day. Great Britain: Pott, Young & Co,1883 // https://archive.org/details/ahistoryjewishn00commgoog
40. Government of İsrael supports position of Azerbaijan in Nagorny Karabakh question // http://azertag.az/en/xeber/GOVERNMENT_OF_ISRAEL_SUPPORTS_POSITION_OF_AZERBAIJAN_IN_NAGORNY_KARABAKH_QUESTIO-553670
41. Haytayan Laury. Armenian Christians in Jerusalem:1700 years of peaceful presence // http://www.politicsandreligionjournal.com/images/pdf_files/srpski/godina5_broj2/laury%20haytayan.pdf
42. Israeli chief Rabbi in historic Armenia visit // https://web.archive.org/web/20120224055624/http://www.ejpress.org/article/4334
Ministry of Foreign Affairs of the Republic of Armenia. Bilateral Relations // http://mfa.am/en/country-by-country/il/
43. Israeli Foreign Minister: “The issue why the Azerbaijani embassy does not open in Israel should be addressed to the Azerbaijani government” // http://www.today.az/news/politics/48863.html
44. Iran, Armenia insist on energy and trade ties // http://www.tehrantimes.com/news/192190/Iran-Armenia-insist-on-energy-and-trade-ties
45. Iran Bullies Israel’s Strategic friends- with Eye on Washington // http://www2.debka.com/article.php?aid=893

46. Laçiner Sedat, İbrahim Kaya. The Armenian issue and the Jews // https://books.google.az/books?id=KoPxK1zNnAQC&pg=PA3&lpg=PA3&dq=sedat+laciner+armenia+s+jewish+scepticism&source=bl&ots=z9sfoVu0kN&sig=eStyczR5J41nbysuaKEPjRmINYg&hl=ru&sa=X&ved=0ahUKEwiRtfDh-bvRAhXNdFAKHeuKD0cQ6AEIFzAA#v=onepage&q=sedat%20laciner%20armenia%20s%20jewish%20scepticism&f=false
47. Manougian Tania. The Armenian Community in the Holy Land // http://archive.thisweekinpalestine.com/details.php?id=2211&ed=144&edid=144
48. Soner Cagaptay, Alexander Murinson. Good Relations between Azerbaijan and Israel // http://www.washingtoninstitute.org/policy-analysis/view/good-relations-between-azerbaijan-and-israel-a-model-for-other-muslim-state
49. Stuart Winer. Chruch of the Holy Sepulchre and water authority settle financial tussle // http://www.timesofisrael.com/church-of-the-holy-sepulchre-and-water-authority-settle-financial-tussle/
50. Usak Yearbook of İnternational Politics and Law, 2010 // https://books.google.az/books?id=xW5SXUxZnckC&pg=PA325&lpg=PA325&dq=http://www.mees.com/postedarticles/op+ed/v49n49-5OD01.htm&source=bl&ots=rzgpOGtuER&sig=Vsgd3iQF6EsBDqUFnEsZ0KTUaPQ&hl=ru&sa=X&ved=0ahUKEwiH0N3dhIfRAhVZF8AKHbH5Ci8Q6AEIFzAA#v=onepage&q=http%3A%2F%2Fwww.mees.com%2Fpostedarticles%2Fop%20ed%2Fv49n49-5OD01.htm&f=false
51. Who Voted for the Palestinian Upgrade at the UN? Who against? // http://www.haaretz.com/israel-news/who-voted-for-the-palestinian-upgrade-at-the-un-who-against.premium-1.481537
52. Yair Auron. The Banality of İndifference: Zionism and The Armenian Genocide// https://books.google.az/books?id=nnUR4hSTb8gC&printsec=frontcover&dq=the+banality+of+indifference+zionism+and+the+armenian+genocide&hl=ru&sa=X&ved=0ahUKEwic2K2ksL7QAhWBBBoKHbV5AD8Q6AEIGjAA#v=onepage&q=the%20banality%20of%20indifference%20zionism%20and%20the%20armenian%20genocide&f=false